ƏFRAHİM

# ÜRƏYİ ALDATMAQ OLMUR

ADİLOĞLU
BAKI – 2014

**Redaktor: İLAHƏ HİDAYƏTQIZI**

**Korrektor: ELVİRA NADİRQIZI**

**Əfrahim. «ÜRƏYİ ALDATMAQ OLMUR»**
*Bakı, ADİLOĞLU nəşriyyatı, 2014, 304 səh.*

4722110018 / 121 - 2014 qrifli nəşr

© "ADİLOĞLU", 2014

## ƏFRAHİM İSMAYIL OĞLU HÜSEYNLİ

Əfrahim 70-ci illərdə ədəbiyyatımıza gələn şairlərdəndir. İlk şeiri 1970-ci ildə mərkəzi mətbuatda çap olunub. Sonralar dövrü mətbuatda onun imzasına tez-tez rast gəlmişik. «Səni gözləyə-gözləyə», «Yollar qayadan asılır», «Ömrü hamıtək yaşasan», «Məni axtaran varsa», «Nə yaman çətinmiş məni tanımaq», «Yağan yağış yollarını döydümü» kitablarının müəllifidir. Bu kitab onun oxucularla yeddinci görüşüdür. Kitaba müəllifin yeni şeirləri ilə yanaşı, müxtəlif illərdə yazdığı şeirlərdən də salınmışdır. İxtisasca həkim olan şair bu şeirlərində də öz dəsti-xəttinə sadiq qalmışdır. Dünyamızın dərd-səri, torpaq, Vətən sevgisi, sevgi müqəddəsliyi, el-oba məhəbbəti özünəməxsus şəkildə öz poetik ifadəsini tapmışdır. İnanırıq ki, bu dəfə də onun şeirləri oxucuları tərəfindən sevilə-sevilə oxunacaq.

Əfrahim AYB-nın üzvüdür.

## ƏFRAHİM HAQQINDA DEYİLƏNLƏRDƏN:

- Bir dəfə Əfrahim mənim yanıma gəlmişdi. Ürəyindən gileylənirdi. Müayinə etdikdən sonra dedim: «Şair əgər həqiqi şairdirsə, dərddən qaça bilmirsə, yolunu düzlərdən yox, dağlardan, qayalardan salırsa, ürəyi ağrımalıdır. Bu ağrı ürəyə dərd kimi, dağlardan, qayalardan keçən yollar kimi doğma olmalıdır. Tibbi sözlə desək, bu fizioloji haldır...

***Rafiq YUSİFLİ,***
*Tibb elmləri namizədi,*
*Kardiologiya İnstitutunun əməkdaşı*

* * *

- Əfrahimin şeirlərini oxuduqca el-obaya bağlılıq, vətən məhəbbəti, səmimiyyət məni özünə daha çox cəlb edir. İnanıram ki, rəhbərlik etdiyim ədəbi dərnəyin ən yaxşı, ən istedadlı üzvü kimi mənim inamlarımı doğruldacaq...

***Ağacavad Əlizadə***
***Şair. 1975.***

* * *

- Əfrahim! Şeirlərindən misra-misra, söz-söz görünür ki, sənin yolun oddan-alovdan keçir. Mən də həmişə sənə əsas onu – sənət yanğısını arzu etmişəm... Sənin şeirlərinə bağlılığımın ən əsas səbəbi də budur.

***Nüsrət Kəsəmənli***
***Şair. 9 fevral 1976.***

* * *

- Əfrahimin şeirlərində forma və məzmun əlvanlığı əsas qayədir. Onun seçilən, öz poetik deyim tərzi var...

***Vəli Xramçaylı***
***Şair.***

* * *

- Hələ mən 1976-cı ildə demişdim ki, Əfrahim həm özünü, həm də bizi – dostlarını, yoldaşlarını təmin edən zirvəyə, mərtəbəyə qalxacaq... Elə də oldu.

***Rafiq Vəlizadə (Kərəmoğlu)***
***Həkim-şair.***

* * *

- Azərbaycanda Hippokrat andı içib poeziyaya gələn yazarlar az olmayıb. Abbas Səhhətdən tutmuş Nərimanova qədər... Ədəbiyyatımızda sözün deyən belə yazarlardan biri də Əfrahimdir....

***«Müxalifət» qəzeti***
***31.07.1999***

* * *

- Mənim Əfrahimə həsr etdiyim bu iki şeirim onun haqda demək istədiyim ən yerinədüşən yaxşı sözdür:

## KAINAT YAŞ TÖKÜR SARI PAYIZA

Ömrun fəsilləri gedib deyəsən,
Payızı yaşayaq, qişa var hələ.
Dədələr,babalar dözüm öyrədib,
Nə olsun düşsə də başa qar hələ.

Bilmirəm nədəndir bu ürkəkliyim,-
Mənim duyğularim payızdan gəlib.
Payızdan almışam bu kövrəkliyi,
Vallah, qayğılarım payızdan gəlib.

Dərdimin üstünə dərd verib payız,
Payizdir esqimin əzəli mənim.
Ayağım altında həzin mahnıdır,
Meşənin yarpagı, xezeli mənim.

Bir kövrək xatire boylanır, baxır,
Saralıb tökülən yarpaqlar kimi.
Həsrətdən inləyir, baxır agaclar,
Sinəsi yaralı torpaqlar kimi.

Kainat yaş tökür sarı payıza,
Can atır quşlar da bahara, qardas.
Vətənin başina yağan dərdləri,
Söylə, hara yazaq, de hara, qardas?..

## ŞAİR ÜRƏYİNİN SÖZÜNÜ DEYƏR

Arzusu dil açar qönçələr kimi,
Ləçəklər utanıb başını əyər.
Günahı - dunyaya şair gəlməyi,-
Şair ürəyinin sözünü deyər.

Hər kəsin dərdinə ağlayar, qardaş,
Yazar,- könülləri dağlayar, qardaş,
Dəyişər, hahaqqı bağlayar, qardas,
Şair ürəyinin sözünü deyər.

Çörəyi qəm olar, suyu dərd olar,
Ürəyi cox yuxa, özü mərd olar,
Oturub yazacaq, vallah hardolar,
Şair ürəyinin sözünü deyər.

Dilinə yiyəlik etməsə yaxşi,
Namərd qapisina getməsə yaxşi,
Zəif söz cücərib bitməsə yaxşı,
Şair ürəyinin sözünü deyər.

Tələ də qursalar, kələk gəlsələr,
Ya şeytan, ya iblis, mələk bilsələr,
Hərdən arxasınca baxıb gülsələr,
Şair ürəyinin sözünü deyər.

Şairlər dərd yığar dərdinin üstə,-
Kədər çələngindən bağlayar dəstə.
Vallah, öz canıyla hey girər qəsdə,-
Şair ürəyinin sözünü deyər.

Ağa ağ deyəcək, qaraya qara,
Dilindən min kərə çəksələr dara.
Nə xəzinə bilməz, nə baxmaz vara,-
Şair ürəyinin sözünü deyər...

Sönməz ürəyinin alovu, közü,
Əriyər şam kimi, əriyər özü.
Vallah, bu dünyada qalacaq sözü,
Şair ürəyinin sözünü deyər.

***Aybəniz Qafarlı***
***Tanınmış jurnalist, şairə.***

# VƏTƏN... TORPAQ...
# VƏ BİZ...

# İMTAHAN VERMƏYƏ GEDİRİK HƏR GÜN

Küləklər, yağışlar döyür bu yurdu,
Kim gəlib ocağı qalar, bilmirik.
Günəşin çxmağı, batmağı məlum,
Qürubdan aşağı nə var, bilmirik.

Aydan, ulduzlardan işıq umuruq, -
Görürük göylərin üzü qaraldı.
Çıxır qarşımıza meşin qapılar,
Döymək də, açmaq da sorğu-sualdı.

Bizdən uzaqdadır bahar, - görürük,
Bir ömrə yazılan qış sual olur.
Göylər bulud-bulud, torpaq qaya-dağ,
Danışır, danışmaz daş-sual olur.

Elə özümüz də çətin sualıq,
Barmaqla sayılır cavabı tapan.
İntizara şərik, əzaba şərik, -
Günahkar sayılır, - cavabı tapan.

Babamın, atamın dinməyi sual, -
Dünya zaman-zaman imtahan verib.
Bu torpaq əyilməz padşahları da
Suallar önündə əyilən görüb.

Elə ki, üz tutduq düzə, arana,
Suallar qoşun tək yola düzülür.
İmtahan verməyə gedirik hər gün,
Biri qiymət alır, beşi kəsilir.

Eh, bu imtahandan çıxmağa nə var, -
Danışmaq nahaqdı dərdi, qəhəri.
Tarix zaman-zaman yaşatmasa da,
Dünya şah eləyir kəsilənləri.

## GÖYLƏRDƏN UCA VƏTƏN...

Gözü mənə baxan Vətən,
Mən sənə baxa bilmədim.
Dərdi su yerinə axan Vətən,
Damla olub
Suyunda axa bilmədim.
Oduna yandığım Vətən,
Yandın,
Su olub
Üstünə çilənə bilmədim.
Üşütdü şaxtalar səni,
Bir ocaqlıq od olub
Üstünə ələnə bilmədim.
Sənə quyu qazdılar,
Kəsilmədi kəndirin.
Dar ağacı qurdular,
Tapa bilmədilər kəndiri.
İkiyə böldülər,
Bölünmədi ürəyin.
Çörəyindən yeyənin
Dizi üstəymiş çörəyi.
Atam, qardaşım,
Anam, bacım oldun, Vətən,
Bilə bilmədim.
Başı göylərdən uca Vətən,
Gözün üstə yer verdin mənə,
Ayağın altında ölə bilmədim.

## ÖMRÜ HAMITƏK YAŞASAN

Cavan bilir, qoca bilir, -
Hamı taxtı uca bilir.
Əyri qapı aça bilir,
Doğru-düz elə-belədi.

Ömür nağılsayaqdısa,
Bilən yox kim oyaqdısa,
Ürəyimiz soyuqdusa,
Şaxta, buz elə-belədi.

Hər yükü çəkib daşısan,
Deyəcəklər ki, naşısan.
Ömrü hamıtək yaşasan,
Səksən, yüz elə-belədi.

## DƏRD, ƏL AĞACIN DEYİLƏM

Şirindən artıq acı var,
Dünyanın dar ağacı var.
Dərdin bircə əlacı var, -
Ölümdən qaçan deyiləm.

Dərdi yox deyil torpağın,
Gözü tox deyil torpağın.
Mərdi çox deyil torpağın,
Daha əl açan deyiləm.

Dərd tapan baxtı qınadı,
Qocalan vaxtı qınadı.
Şah olan taxtı qınadı,
Taxt, sənin acın deyiləm.

Dünya, yandır, qovur məni,
Külə dönsəm, sovur məni.
Ağlamaram, ha vur məni,
Qardaşın, bacın deyiləm.

Gəmiçi, səbrim tükənib,
Hanı gəminin yelkəni?
Dərd gəlib mənə söykənib,
Dərd, əl ağacın deyiləm.



## DÜZ BİR İLDİR ANAM YOXDUR

Gəlmişəm bu gün də qəbrinin üstə,
Qəbrin də gözəldir, ay gözəl anam!
Çilənir qəlbimə sərin su kimi
Doğma səs «ay oğul, çox nigaranam».
Qəbrin də gözəldir, ay gözəl anam!

Bir ildir kimsəsiz qərib kimiyəm, -
Bir ildir bu dünya qəlbimə yatmır.
Bir ildir torpaqdır üz tutduğum yön,
Bir ildir anama əllərim çatmır.

İlahi, deyirəm işə bax, işə, -
Təzədən olmuşam bir uşaq kimi.
Bu dərdə şəriktək, bu ev üzünə
Bürüyüb həsrəti bir duvaq kimi.

Hər gün üz tutanda doğma ocağa,
Elə bilirəm ki, gələcək səsi...
Bu mənəm, gəlmişəm, səsimə səs ver,
Səni axtarıram, ay ev yiyəsi!

Nə qonşu deyiləm, nə də ki, özgə,
«Başına döndüyün» oğlunam axı.
Səs ver, doğma səsin laylama dönsün, -
Ölüm də qoy olsun yalan bir yuxu!

Deyirlər, «torpağın üzü soyuqdu».
Yalandır! Duymadım bu soyuqluğu.
Ev də bir qəfəsdir, çöl də bir qəfəs, -
Necə unudular ana yoxluğu?!

Göylər bulud-bulud, yer üzü sükut, -
Yer yerə, göy göyə bənzəmir daha!
Ürək də dəyişib bir sözə bənddi, -
Ürək o ürəyə bənzəmir daha!

Gəlmişəm bu gün də qəbrinin üstə,
Qəbrin də gözəldir, ay gözəl anam!
Çilənir qəlbimə sərin su kimi
Doğma səs «ay oğul, çox nigaranam».
Qəbrin də gözəldir, ay gözəl anam!

***04.08.2013***

# QALDISA UZAQDA BAHAR – ÖMRÜMÜZ...

*(Ömür-gün yoldaşım
Yaqut həkimə)*

Duman da gətirdi, qar daélədi
Yolumuz üstünə taleh küləyi.
Qisməti yüz yerə böldük özümüz, -
Asdıq gümanlardan arzu-istəyi.

«Çatdıq harayına süfrə başından
Qəlbi kövrəyin də, qəlbidaşın da».
Dərd yiyəsi qaldı, biz ömür sürdük
Ayların, illərin qar-yağışında.

Ayılıb gördük ki, bitir ömrümüz, -
Sən belə ömürə yarımçıq demə!
Atam oğul dedi sarışın qıza, -
Təzədən qismətə əl açaq, demə!

Sən fikir eləmə, sən dərd eləmə,
Qaldısa, uzaqda bahar – ömrümüz.
Bu da bir yazıdı, küsməyə dəyməz! –
Bəxş etdi çoxuna bahar ömrümüz.

Səni bezdirməsin bu sarı payız,
Hər günə son demə, nə də ki, axır!
Təkcə Ayaq deyil gözləyən bizi,
Zəhra da, Zeynəb də yollara baxır.

***12.06.2013***

# BİR İL DƏ ÖTDÜ...

Ağrıya-ağrıya aldandı ürək, -
Daşdan səs dilədi, səhradan çiçək.
Nə bilim, saatlar hədər ötəcək...
Baxdım zülüm-zülüm, bir il də ötdü.

Taleyə yazılan qismət... sevincim
Qaldı əlçatmayan güman girinci.
Dağların, daşların oldum gülüncü, -
Ömürdən küsülü bir il də ötdü.

Günlər saat-saat sınaqda qaldı,
Göylər bulud-bulud duvaqda qaldı.
Axtardım, aradım uzaqda qaldı
Gümanım mənzili, bir il də ötdü.

Hanı Yer üzünün səması – aydın?..
Ayları gözlədim, günləri saydım.
Məni dağa-daşa saldı inadım,
Əllərim üzülü bir il də ötdü.

«Gözlə», «döz» dedilər, gözlədim hədər,
O oddan-alovdan yoxdu bir əsər?!
Baxdı bu ocağa hansı bədnəzər? –
Ha sovrulur külü... bir il də ötdü.

Yarpağı, çiçəyi sovurur külək...
Bəlkə qarşıdakı sahilə köçək?
Bir körpü qurmuşdum, - sulardan keçək,
Dağıldı özülü, bir il də ötdü.

Bir yan günəşlisə, bir yanda qal nə? –
Bu ömrün yolunda yüz qalmaqal nə?
Cavabı bilinməz sorğu-sual nə? –
Nə bilim... nə bilim... bir il də ötdü.

*07.05.2013*

## AXTARIŞ

Açan çiçəkləri külək aparır,
Çılpaq ağaclarda nar axtarırıq.
Doğma ürəyinə yol tapmaq olmur,
Özgə ürəyində yer axtarırıq.

Dənizə yol gəzir sellənən sular, -
Yol boyu uçurur qurulanları.
Düzlərin yaxası qışın əlində,
Dağlarsa axtarır uzaq baharı.

Mərd keçilməz qaya, dağ sorağında,
Nadanlar yaşayır taxt həsrətində
Kiminin əlləri ölümə çatmır,
Kimi ucalmağa vaxt həsrətində.

Dünya axtarışlar məngənəsimi? –
Birisi «dost» gəzir, birisi arxa.
Ağacın, çiçəyin gözləri yolda, -
Sular gəlməz olub quruyan arxa.

Gözə görünməzdi, yaxşı nə varsa,
Hamı bir-birində nöqsan axtarır.
Bölünə-bölünə torpağın, Vətən,
Unudub, çoxları ad-san axtarır.

Torpaq doğmasını, yurd yiyəsini,
Axtarıb tapmağı dönüb müşkülə.
Çoxları öyünür, «oğlunam, Vətən!», -
Vətənsə oğullar axtarır hələ.

***2014***

## DÜŞDÜK AĞ GÜNÜN İZİNƏ...

Dar ağacı, ömür yarı,
Gəl bu ömrü bölək yarı.
Vaxt itirmə, sənə sarı
Gələn Əfrahim özüdü.

Yol ölçülməz qarış-qarış,
Dərdi yumaz yağan yağış.
Kim dedi ki, «mənlə barış»
Deyən Əfrahim özüdü?

Gəlməmişəm yığam xərac,
Gəlmişəm ki, tapam əlac.
Qapını döyən var, gəl aç,
Döyən Əfrahim özüdü.

Düşdük ağ günün izinə,
Ağ günün qara üzü nə?
Çəkdiyi dərdin üzünə
Gülən Əfrahim özüdü.

Üzü dönüb yerin, göyün,
Tanrım, yuxudu toy-düyün.
Qəbri qazılır hansı gün,
Bilən Əfrahim özüdü.

Dar ağacı, ömür yarı,
Gəl bu ömrü bölək yarı.
Vaxt itirmə sənə sarı
Gələn Əfrahim özüdü.

## EVİM UZAQ DEYİL QƏBRİSTANLIĞA

Özümdən kiçiyə əyilirəmsə,
Özgə qapıları ha döyürəmsə,
Yalandan özümü ha öyürəmsə,
Bu stul, bu otaq nəyimə lazım.

Hər fəsil gözümdə qış görünürsə,
Hər addım yolumda daş görünürsə,
Qələmim ucunda yaş görünürsə,
Bu işıq, bu çıraq nəyimə lazım.

Ömür yol gedirsə dağ çıxa-çıxa, -
Arzular, gümanlar çıxırsa yoxa,
Evim uzaq deyil qəbristanlığa,
Bu döşək, bu yataq nəyimə lazım.

## ÜRƏK, MƏNİ RAHAT BURAX

Ağlayana yar-yoldaşsan, -
Üzümdə ələnən yaşsan.
Dərd ilə doğma qardaşsan,
Ürək, məni rahat burax.

Gəmimizin yolu duman...
Vəfa qılmadı bu liman.

Yol ver gedim, uzaq dolan,
Külək, məni rahat burax.

Qaçmaram, sözdən qaçmaram, -
Dedim daha əl açmaram.
Şah oğlu şaham, acmaram,
Çörək, məni rahat burax.

Nə yağış var, nə çisək-çən,
Quruyubdu yaşıl çəmən.
Nə baxırsan bu çəməndən,
Çiçək, məni rahat burax.



## TORPAQ BİZNƏN HESAB ÇƏKİR

Yalanmış, bu sevgi yalan! –
Ölmədi gözləri dolan...
Yadların əlində qalan
Torpaq biznən hesab çəkir.

Biri qəmli, beşi gülən,
Hara getdi dərdi bilən?
Vaxtsız saralıb tökülən
Yarpaq biznən hesab çəkir.

Bilmədik ulduz neçədi, -
Ölüm dirilmək necədi?!
Göz-gözü görməz gecədi,
Çıraq biznən hesab çəkir.

Eniş, yoxuş, qaya, gədik,
Baxır gözümüzə dik-dik.
Gəzdirə bildik... bilmədik? –
Papaq biznən hesab çəkir.

## SEVGİ

Ömrün bahar fəsli də var,
Nə çox alagözlü də var...
Kərəm də var, Əsli də var,
Sevgi – Vətən sevgisidi.

Səcdə qılmağa dur, dayan,
Göz baxıb ürək doymayan,
Bizi ölməyə qoymayan,
Sevgi – Vətən sevgisidi.

Hamının yazısı da var?! –
Qardaşı, bacısı da var.
Qəlb ağrı, acısı da var...
Sevgi – Vətən sevgisidi.

Nəğmədi, şerdi, sözdü,
Külə çevrilməyən közdü.
Biçilsək də, biçilməzdi,
Sevgi – Vətən sevgisidi.

Anam dinəndə – dərd yalan,
Yuxu olur olub-olan.
Anam üçün də and olan,
Sevgi – Vətən sevgisidi.

## «GEDİN DEYİN XAN ÇOBANA»

Körpü qoymadıq gümana, -
Qarışdı sınmaz sınana.
«Gedin deyin Xan Çobana»,
Bu sel o sellərdən deyil.

Duman yaylığını sərib,
Ot yerinə daş göyərib.
Bir deyil, beş deyil qərib, -
Bu el o ellərdən deyil.

Görməyənlər yalan bilər, -
Bu çəməndə olan bilər,
Suya həsrət qalan bilər,
Bu gül o güllərdən deyil.

Dağ-daşı dindirsən, dinər, -
Çətin ki, yuxuya gönə?!
Yollar uman ələ dönər,
Bu əl o əllərdən deyil.

Dözsən, günün il olacaq,
Baxsan, gözlərin dolacaq.
Sevsən odun kül olacaq, -
Bu yer o yerlərdən deyil.
«Gedin deyin Xan Çobana»,
Bu sel o sellərdən deyil.

## TORPAQ EŞİDƏR MƏNİ...

Qayalarla danışdım, -
Küləklər
Sözlərimi apardı.
Mən ağaca dərd dedim, -
Sellənən sular
Ağacı
Yerindən qopardı.
Yollara üz tutdum,
Yollar uzanıb getdi.
Göy üzünə baxdım, -
Ay da, ulduz da itdi,
Bulud üzümə baxdı.
Dedim dəniz dənizdi,
Sirrimi dənizə açdım.
Gördüm dənizsə,
Öz hay-küyündə.
Üz tutdum adamlara,
Adamlar toy-düyündə...
Eh, mən nahaqdan nahaq
Ayaqladım ölkəni!..
Torpağa deyəcəyəm
İstədiyim, axtardığım
Nə varsa,
Torpaq eşidər məni.

## QISQANA-QISQANA

Mən olub-olanı yazdım,
Doğrunu doğruya yozdum, -
Əlimi bir şair dostum
Sıxdı qısqana-qısqana.

Bu yerlərin gözündə yaş, -
Susuz qaldı qarış-qarış.
Həsrəti çəkilən yağış
Yağdı qısqana-qısqana.

Umanların sorağında
Çıxdıq yollar sınağından.
Dostlar yollar qırağından
Baxdı qısqana-qısqana.

Ərisin dağların qarı, -
Günahları yusun barı...
Dağ uçuran çay suları
Axdı qısqana-qısqana.

Dedik, gecə olsun yalan, -
Bir işartı olsun güman.
Günəş bulud arxasından
Çıxdı qısqana-qısqana.

Yaşadıq, gördük vaxt azdı,
Ömrü gümanlardan asdıq.
Şah olan mərdə bəxt yazdı, -
Taxtı qısqana-qısqana.

## ANA TORPAQ

Çölündə, düzündə otun olaram,
Doğma ocağında odun olaram.
Şərəfin, qeyrətin, adın olaram,
Babamın vüqarı, dözümü torpaq!

Ətrini duymuşam beşiyimdə mən,
Dadınla evimdə, eşiyimdəsən.
Dayana bilməsəm keşiyində mən,
Saxlama sinəndə izimi, torpaq!

Sənə əyilibdir çalıb-çapan da,
Səni parçalayıb, alıb-satan da.
Səndən ayrılanda, səni tapanda
Əyilib öpərəm üzünü, torpaq.

Dərdin, kədərin var bu dünya boyda,
Əyilməz olubsan namərdə, yada.
Məni harayına çağırmasan da,
Eşidib gələrəm səsini, torpaq.

Qalaram yolunun, izinin üstə,
Axır baş qoyaram dizinin üstə,
Ölsəm, səpilərsən gözümün üstə,
Çəkərsən üstümə özünü, torpaq.

## BİZİ SAXLAYAN ALLAHDI

Bu yurd həsrət qalıb yaza,
Yollar uzaq, ömür qısa.
Ayır görüm, oğulsansa,
Kimdi doğma, kimdi yadı.

Körpüsü var, keçəni yox,
Qapısı var, açanı yox.
Həsrət sudu, içəni yox,
İçilsə, bu, bir günahdı.

Dərd pozulmur, yazı deyil,
Ha yesək də, ruzu deyil.
Əllərimiz uzun deyil,
Bizi saxlayan Allahdı.

## ATAM GƏLƏCƏK...

Hər axşam yatanda elə bilirəm
Bu gecə yuxuma gələcək atam.
Gözümün içindən gizlətdiklərim
Dərdimi-sərimi biləcək atam.

Yenə dönəcəyəm bir az gec evə,
Gəlib görəcəyəm hələ oyaqdı.
Torpaq soyuqdusa, mənə deyəcək,
Bir az qalın geyin, oğul, soyuqdu.

Görəcək yolumu gözləyir anam,
Payımsa qalıbdı hələ qazanda.

Bağrıma basdığım paltarlarının
Yeri boş qalıbdı «paltarasan»da.

Yenə də bacımı döyüb qardaşım,
Qaçıb gizlənməyə macal axtarır.
Təzədən qaralıb bəyaz saçlarım,
Bu gecə özünə sığal axtarır.

Ay ana, başını yenə uca tut,
Dərdə biganə ol, dərd bilən gəlib.
Açın qapıları, açın taybatay,
Qonağın səsinə səsverən gəlib.

Yığışın başıma, ay əmilərim,
Dərd olar, - bu evdə azalıb qonaq.
Gözünə dəyməsə Yaqut – gəlini,
Yenə də başımda sınacaq çanaq.

Hər axşam yatanda elə bilirəm
Bu gecə yuxuma gələcək atam.
Gözümün içindən gizlətdiklərim
Dərdimi-sərimi biləcək atam.

## MƏN SƏNƏ HƏR ŞEYİ DEMƏDİM, ANA

Sevinci misqalmış baxtın, bilmədim,
Nahaqdan zirvəyə çıxdım, bilmədim.
Bulanıq sularda axdım, bilmədim...
Mənə sənə hər şeyi demədim, ana!

Ömrü uzun imiş hər il qışın da,
Batdım saxta, yalan söz yağışında.
Bir üzü quyuymuş hər alqışın da,
Mən sənə hər şeyi demədim, ana!

Donana od oldum, ol oldu getdi,
Azana yol oldum, yol aldı getdi.
Aylardan, illərdən nə qaldı?.. bitdi, -
Mən sənə hər şeyi demədim, ana!

Əlim açıq oldu, əlim nə qədər! –
Umanlar çoxaldı hər gün, hər səhər.
Gizlicə bu ömrü sürdüm bir təhər,
Mən sənə hər şeyi demədim, ana!

Sözüm yeriyəndə gəzən çox oldu,
Elə ki, önümdə körpü dağıldı,
Biri gözə dəydi, beşi yox oldu,
Mən sənə hər şeyi demədim, ana!

Sirrimi aparsın... küləyə dedim,
Dilsiz daşa dedim, çiçəyə dedim.
Ağrıyır ağrısın, ürəyə dedim,
Mən sənə hər şeyi demədim, ana!

Demədim – saçların eləcə qalsın,
Demədim – gözlərin yuxusuz olsun.
Duymadım, bilirsən gizli nəyim var,
Köksündə dərdimin yüz göynəyi var,
Qocalan anam! –
Ömrü ucalıqda ucalan anam!

## DÜNYA BELƏ DÜNYADI

*Qonşu Orxana*

Salxım söyüd saçlarını düzməmiş...
Tufan qopdu gəmi yola düşməmiş.
Ömür yazdan əllərini üzməmiş
Qışa döndü gülə-gülə, dünyadı.

Bu yolların o üzündə ar qaldı;
Sınmaz getdi, əyilənlər var qaldı.
Güneylərdə, qüzeylərdə qar qaldı,
Biz əridik gilə-gilə, dünyadı.

Yollar boyu köhlənimi çapınca,
Yolu kəsən qayaları çapınca,
Dağlar aşdım bir gümanı tapınca,
Saç ağartdım bilə-bilə, dünyadı.

Yollar görüb çox padşahı, çox xanı, -
Yüksələndə, çək başına qalxanı.
Tanrı dəymir, bəndə yıxır qalxanı, -
Dəyişməyib, dünya belə dünyadı.

Yaxşı ayır, yaxşı tanı yaxşını,
Qaldıracaq dağdan ağır daşını.
Yollar, izlər itirəcək naşını,
Qarışacaq odu külə, dünyadı.

Nahaq yerə əl uzatma hər işə, -
Yuxu olur – sevinc dönür keçmişə, -
Doğma qalır, uzaq düşür təşvişə...
Ömür sürdüm bölə-bölə, dünyadı,
Atam oğlu dünya belə dünyadı.

# VƏTƏN Kİ, DƏYİŞƏN DEYİL

Bu dəniz yaman dəyişib,
Dalğasının səsi yoxdu.
Sahilinin gözü yolda,
Gəlib-gedən kəsi yoxdu.

Bu bağ o bağa bənzəmir,
Gülü tikana qarışıb.
Torpağı quruyub daha,
Kollar gözləyir yağışı.

Bu meşə o meşədimi?
Xəzəli yaman çoxalıb.
Ağacları boynu bükük,
Üstündə duman çoxalıb.

Bu adam belə deyildi, -
Kimdi kiçik, kimdi böyük?
Əkdiyi-biçdiyi qalıb,
Dərddəndi çiynindəki yük.

Gümanlar görünməsə də,
Günahkar duman-çən deyil.
Biz dəyişdik, bölünsə də,
Vətən ki, dəyişən deyil.

## İNSANLARA YAZDIĞIM YAZI

Dərdi-səri duyan yazıq
Gülüb-sevinməyə yasaq...
Günahkarsan, baş açmasaq
Bu dünyanın kələyindən.

Günah olur təlaş, qorxu,
Günahlardan keçməz çoxu.
Günahını su kimi yu,
Kəsən olsa çörəyindən.

Göz yaşına şahiddi üz,
Göz yaşıdı bu çay, dəniz.
Ölüm doğmadı üzbəüz,
Yaddır gəlsə kürəyindən.

Yerin üstündə vəlisən,
Ağıllısan, ya dəlisən.
Dərd sənindi, çəkməlisən
Dəlib keçsə ürəyindən.

Daş olmaqdan daşın, yeri! –
Ovuc deyil yaşın yeri,
Ətək deyil daşın yeri,
Gəl daşı tək ətəyindən.

## SULARDAN KEÇƏ BİLSƏN, GƏL

Ömür gündüzdən keçəcək, -
«Səbr elə», «döz»dən keçəcək
Bu yol dənizdən keçəcək,
Sulardan keçə bilsən, gəl.

Yuxu yox, gerçəkdi olan,
Yüz günahdı bizə qalan.
Yaxamızdan tutub yalan,
Əlindən qaça bilsən, gəl.

Babam hanı, atam hanı,
Arxamca su atan hanı?
Bu həsrətə batan hanı? –
Ayırıb seçə bilsən, gəl.

Yollar gördüm haça-haça,
Sellər təpələrdən uca...
Evlər qaldı uça-uça, -
Bu sirri aça bilsən, gəl.

Ağıllı oldu gözdöyən,
Sevildi dərdə baş əyən.
Ömrü payladıq özgəyə,
Böləndü... haça, bilsən, gəl.

Yurdda qəribdi doğmalar,
Yolları tutub şaxta-qar.
Axtardığım bir qapı var, -
Açmağı uca bilsən, gəl!

## ATAMDAN SONRA

*Anam İpək üçün*

Əllərim uzalı, əlini verməz,
Yaxşı ki, bu dərdi, həsrəti görməz.
Əyilib öpsəm də, yerini verməz,
Bu qara torpağı atamdan sonra.

Ay ana, görünmür köçən qızların –
Hardadır bu dərdi çəkən qızların?
Ayağı kəsilib vəfasızların,
Bilinmir sorağı atamdan sonra.

Düşən işıq idi zülmətə bu ev
Bilmədik yurd olar xiffətə bu ev,
Yaman alışmışdı söhbətə bu ev,
Azalıb qonağı atamdan sonra.

Bir vaxt sındırardı bar ağacları,
Torpağı öpərdi nar ağacları.
İndisə, əyibdi qar ağacları,
Budanmır budağı atamdan sonra.

Günlər ötüşəcək necə, bilmirəm?
Dərd su yerindədi, içə bilmirəm.
Daş-kəsək əlindən keçə bilmirəm
Bu yolu-yolağı atamdan sonra.

Ana, saçlarının hanı qarası?
Bu ömrün həsrətdir qalan yarısı.
İnciyib küsəndə, de kim oxşasın
Balaca Afaqı atamdan sonra.

## BU QAPI

***Bir «dostum»a***

Sən ki, bəy oğlu bəy idin,
Səni kim sındırdı, əydi?
Gördüyüm yuxuydu, nəydi? –
Qarşıma çıxdı bu qapı.

Açılmır «sim-sim»mi deyim,
Düşdüyüm tilsimmi deyim?
«Utanıb ölsün»mü deyim? –
Açılmaz dağdı bu qapı.

Dünyanın nəbzinmi tutdun,
Qismətmi gözünü tutdu?
Təkcə mənimi unutdun,
Kimə acıqdı bu qapı?

Sənə ağrı-acı özgə, -
Qardaş özgə, bacı özgə!..
Əl uzadıb açır özgə, -
Yada açıqdı bu qapı.

Bildim, – olanlar nağıldı...
Günahkar gəldiyim yoldu.
...Utana-utana qaldı,
Arxamca baxdı bu qapı.

Hər dostuma gedim şahdı, -
Nə bilim, bu söz günahdı...
Görəcəksən, bir gün ahdı, -
Özünü yıxdı bu qapı.

## DAŞ ADAM OLA BİLMƏDİM

Bulud gəldi, külək hanı,
Yağış yağdı çiçək hanı?
Günah yazan mələk hanı? –
Daş adam ola bilmədim.

Göz önündə ölüm-olum, -
Daşa döndü sağım, solum.
Çox istədim mən də olum
Daş adam... ola bilmədim.

Nə var danış saxlama, bil,
Sınanmışam, yoxlama bil!
Ya ağla, ya ağlama, bil, -
Daş adam ola bilmədim.

Xəbərsizik yüz yaradan, -
Gecənin bağrın yara dan!
Bəxtimə yazıb yaradan, -
Daş adam ola bilmədim.

***24.09.2012***

## VƏTƏN

Bu ömürdən keçəcəyəm
Yenə səni seçəcəyəm.
And versələr, içəcəyəm
Üzü sənə sarı, Vətən.

Uzaq olsam, qəlb dinəcək, -
Uçub qoynuna enəcək,
Odumdan suya dönəcək
Çöllərinin qarı, Vətən.

Yad olduq şaxta-qarına, -
Körpüsüz sel-sularına...
Cığır olub yollarına
Qovuşmadıq barı, Vətən.

Çəkdiyin dərd silinməzdi,
Namərd üçün görünməzdi...
Həsrətimiz bölünməzdi,
Bölünsən də yarı, Vətən.

Mehinlə saçım daranar,
Külək başıma dolanar.
Təbriz adlı bir yaram var,
Nəfəsinlə sarı, Vətən.

...Bu bağdan çiçək qoparın,
Bu dağdan ətir aparın.
Qəbri üçün Şəhriyarın,
Soysun intizarı, Vətən.

## QƏMƏR XALA, MURAD DAYI VƏ ZALIM MƏLİK

Uşaq idik...
Qonşumuz
Qəmər xala var idi.
Zalım əcəl
Ərini əlindən tez almışdı.
Üç uşaqla qalmışdı.

Uşaqların yanında güldü, gülümsədi o, -
Dərdi gizli saxladı.
Ağlayanda da
Gizli-gizli ağladı.
Gecəsini gündüzə,
Gündüzünü gecəyə qatdı o.
Uşaqları böyütdü -
Arzusuna çatdı o.
Murad dayı da vardı, -
Son tikəsini belə
Qonşu ilə bölərdi.
Hamı onu özünə
Ata-qardaş bilərdi.
Xeyirdə, şərdə yeri
Yuxarı başda idi...
Uşaq idik...
Bir kişi də var idi, -
Adı Məlik.
Gözümüzü açandan
Meyvə bağının
Gözətçisi oldu o.
Yaddaşımızda bax belə qaldı o;
Yerə düşən
Çürük almalara da tamarzı idik...
Uşaqlar da adını
Qoymuşdu «Zalım Məlik».
Bir xoş söz eşitmədik
Dilindən,
Arvad-uşaq da
Zara gəlmişdi əlindən.
...Böyüdük, -
Uşaqlığımız bitdi.
Qəmər xala da öldü,

Murad dayı da getdi.
İndi kəndimizdə
Var çoxlu-çoxlu Qəmərlər,
Muradlar da nə qədər!..
Gün gəldi Məlik kişi də öldü.
Öldü... öldü...

***07.05.2013.***

## QƏRİB ADAM

Bənzəyir torpağa bir az,
Oxşayır yarpağa bir az,
Utana-utana Araz
Tanıyır qərib adamı.

Zülmət səsindən tanıyır,
Yollar üzündən tanıyır,
Torpaq gözündən tanıyır,
Tanıyır qərib adamı.

Dağlar sazağından belə, -
Duman-duvağından belə,
Payız yarpağından belə
Tanıyır qərib adamı.

İkiyə bölünən Araz
Qınayır qərib adamı.
Günlər, aylar saat-saat
Sınayır qərib adamı.

## ANAMIN MƏKTUBU

Anam məktub yazar, ana nəfəsli,
Cümlələr bəzənər «qurban olum»la.
Bir parça kağızlıq məktubu deyil,
Sanki ürəyini o salar yola.

Ən şirin sözləri ayırıb, sanki,
Anam əlləriylə buraya sərmiş.
Deyirəm istəkdən, işə bax, işə,
Ana ürəyi də ikiləşərmiş.

Bir zərfin qoynuna sığan sözləri,
Mənə şirin gələr laylası qədər.
Hər adi sözündə ümid, təsəlli;
Yerini sevincə verər qəm-kədər.

Uşağa dönərəm, bağ-bağçamızda,
Duyaram qızların tanış səsini.
Bir daşla bir anda İnci xalanın,
Vurub sındıraram pəncərəsini.

Babamın ağacın oğurlayaram,
Mən çoban olaram, uşaqlar «qoyun».
Yenə geri qalar qaçanda Çiçək,
Ağacla başına açaram oyun.

Hörüklü qızları tərifləyəndə,
Duyaram fikrində nə tutar anam.
Qonşunun qızından söz-söhbət salar,
Uyumuş gölümə daş atar anam.

Bir parça kağızlıq ana məktubu,
İstəməz nələri yadıma sala!
Anam məktub yazar, ana nəfəsli,
Cümlələr bəzənər «qurban olum»la.

*1973*

## BACILARIM HAQQINDA

Onda yox imişəm, bilmirəm harda,
Baxışlar toxunub, baxışlar dinib.
Bir arzu naminə bir ilk baharda,
Qovuşub iki yol, bir yola dönüb.

Bir qış səhərində ağaranda dan,
Atam ata olub, anamsa ana.
Muştuluqdan ötrü qonşu Gülüstan,
Xəbəri çatdırıb dosta, həyana.

Göz açıb ikinci, üçüncü bacım;
Nənəmin köksünə «üç dağ» çəkilib.
Titrəyib, əlindən düşüb ağacı,
Deyirlər, bir az da beli bükülüb.

Nənəmdən muştuluq istəyən zaman,
Gülüstanın əli uzalı qalıb.
Deyib: - Nə muştuluq daha, ay balam,
Oğluma, gəlnimə qızlar dərd olub.

...İllər elə bil ki, əlini çəkib;
Atamın saçları dağ zirvəsidir.
O günlər nənəmin belini büküb,
İndi ürəklərin xatirəsidir.

Üç evlə calayıb bir evimizi,
«Atama, anama dərd olan qızlar».
Bürünsə kədərə əgər bənizim,
Atamtək, anamtək qəlbləri sızlar.

Nənə, «dayı» olub mənim bir adım,
Məndən pay istəyən indi çoxalıb.
«Oğlum gəldi»lərlə qarşılanardım,
İndi «dayım gəldi» deyən də olub.

Bizdə bir nəğmə var maqnitafonda;
Bir dünyalıq sevinc yaşayır onda.
Nənəm min maraqla hey qulaq asar,
Buludsuz səmatək üzü açılar;
Arifin sədası otağı gəzər:
«- ...Kim deyir, köçəri quşlara bənzər,
Evləri evlərə calar bacılar...»

***1976***

## O GECƏ ATLARI APARDI HƏMZƏ

***Cəbrayıllı qaçqın***
***Firəng xalanın xatirəsinə***

O gecə getmişdik div yuxusuna,
Ömür yetişirdi elə bil sona.
Qeybə çəkilmişdi ulduz da, Ay da,
Səsini içinə çəkmişdi çay da.
Göz-gözü görməyən zülmət gecəydi,
O gecə itlər də ölmüşdü, nəydi?
Qaldı dilsiz atlar, qaldı göz-gözə...
O gecə atları apardı Həmzə.

Keçəndə yolları həyatbəhəyat
Necə möcüzəymiş kimsə görməyib.
Həmzəni tanıyıb, ayağı altda
Yalmana-yalmana itlər hürməyib.
...Qıfıllar sınmışdı, qapılar açıq,
Hamı bir-birinə qarışdı səhər.
Baxıb inanmadıq gözlərimizə,
Adama gəlirdi bomboş tövlələr.
O gecə atları apardı Həmzə.

Analar heyrətdən dondu yerində,
Qızarmış üzləri göz yaşı yudu,
Söz tapa bilmədik danışmaq üçün.
Hamı elə bildi bəlkə yuxudu.
Kim əldə dəyənək, kim əli yalın
Qaçdılar, qaçdılar dərəyə sarı,
Amma sonra bildik yalmanan itlər.
Həmzəyə tanıdıb kəsə yolları.
Bu dərin quyunu kim qazdı bizə?
O gecə atları apardı Həmzə.

O zaman Qıratı aparan günü
Həmzənin dişində şirə qalıbmış.
Qəlbində nə vaxtsa bütün atları
Aparmaq niyyəti yuva salıbmış.
Dedik çin olmayan şirin yuxudu.
İnanıb su aldıq biz ağzımıza.
Ayılıb gördük ki, axırda, qardaş,
Bıçaq dirənibdi boğazımıza.
Hardasan, Xan Eyvaz, ey Dəli Həsən?
Hardadır dəlilər, yolları kəsə?
O gecə atları apardı Həmzə.

## UMURAM

Hər ötən, gedib-gələn
Ola göz yaşı silən...
Necə sadəlövhəm mən, -
Qışda bahar umuram.

Tanrım, baxır bu oğlan, -
Nə vaxt ağaracaq dan?
Bu dünyada hamıdan
Yaxşılıqlar umuram.

Yaşıl kollar qurudu...
Gördüm hər şey yuxudu...
Selə dönən buludu
Qatar-qatar umuram.

## BU YOL NECƏ YOL İMİŞ

Bu yol necə yol imiş? –
Nə tapdımsa, itirdim.
Özümü qayaların
Arasına gətirdim.

Biri azıb dumanda,
Biri yorulub baxır.
Bu yoldumu?.. üstündə
Keçilməz sular axır.

Bir işıq yox, üz tutub
Burdan çıxıb gedəsən.

Qarışıq düşüb belə
Yol göstərən, yol kəsən.

Əl uzatdılar, çəkdik
Yaxamızı qırağa.
Yaman öyrəşdik, Allah,
Gözümüzü yummağa.

Yüz yol içində seçdim
Bu yolu, bu məkanı. –
Mən özüm günahkaram,
Cəzamı verən hanı?..



## ƏLƏNDİK, ƏLƏK BİLMƏDİ

Qurular yandırır yaşı,
Dərd, kədər əritmir daşı,
Yarpaq ağacın göz yaşı,
Yerə düşdü, xəzəl dedik.

Mərdlər qocala bilmədi,
İgid bac ala bilmədi.
Dünya bacara bilmədi,
Biz əyriyə «düzəl» dedik.

Toz qalxdı, külək bilmədi,
Dərd gəldi, ürək bilmədi.
Ələndik, ələk bilmədi,
Ölüm gəldi, əcəl dedik.

## YOLLAR QAYADAN ASILIR

Təkcə bulanan su deyil,
Dərd gəlirsə, qorxu deyil.
Olan işlər yuxu deyil,
Tanrım, tərsinə yozulur.

Gələ-gələ, zaman-zaman
Dedik ayaqsızdı yalan.
Alnıma yazılıb olan,
Yoxsa, yazılan pozulur.

Çox imiş uçurub sökən,
Gözlərini yumub tikən.
Dərddən ölmür dərdi çəkən,
Qəbri qabaqca qazılır.

Çöl-çəmən bürünüb qara,
Əlim soyuq, üzüm qara.
Getmək istəyirəm hara,
Yollar qayadan asılır.

## QALACAQ

Nağılsa, nə vaxt bitəcək,
Yuxusa, nə vaxt ötəcək,
Padşahlar çıxıb gedəcək,
Görən kimə tac qalacaq?

Qəlbə dəyməyən adamlar,
Sözün deməyən adamlar,
Dərdi yeməyən adamlar
Nə yesə də, ac qalacaq.

Mərdə, düzə baş əyənə,
Yolunu yağış döyənə,
Yurd, torpaq, vətən deyənə
Nə vaxt qara saç qalacaq?

Başım gülməyə qarışsa,
Üzümə dəyən yağışsa,
Ürəyim dərdlə barışsa,
Özgəyə möhtac qalacaq.

## BİLMƏDİ

Ömür özü bir tilsimdi,
Bu tilsimdən çıxan kimdi?
Sandıq açarı «sim-çim»di,
Aça bilməyən bilmədi.

Yolu itirdi çoxumuz,
Ərşə qalxıbdı yuxumuz.
Dərd əlindədi yaxamız,
Qaça bilməyən bilmədi.

Qaldıq ömrün yarısında
Dörd divarın arasında.
Allah, varmış harasında
Baca, bilməyən bilmədi.

Yolu, izi seçə-seçə
Azdıq dağdan keçə-keçə.
Torpağı, and içə-içə,
Uca bilməyən bilmədi.

Bu yer üzü bezib ahdan,
Ümid gözləyir sabahdan.
Ürək keçdiyi günahdan
Keçə bilməyən bilmədi.

Qova-qova qorxuları
Suya dedik yuxuları.
Dərd bulandıran suları
İçə bilməyən bilmədi.

Kim soruşdu dərdimizi
Süründürdük dilimizi.
Ağıllıdan dəlimizi
Seçə bilməyən bilmədi.

Demədik, qaldı sözümüz,
Dumanda itdi izimiz.
Həsrəti əkdik özümüz,
Biçə bilməyən bilmədi.

## DUYAN DUYA BİLİR...

Bizi bu ömür-gün aparır hara?
Duman lövbər salıb bu yaylaqlara.
Yolumuz çatanda qayalıqlara,
Oyan oya bilir, oymayansa yox.

Daşı da dindirsən, dərd var dilində, -
Çıxıb gedəcəyəm bəxtin əlindən.
Beləcə ötüşən ömürdən, gündən,
Doyan doya bilir, doymayansa yox.

Namərdi oda çək alışan deyil,
Mərd gəlib namərdə qarışan deyil.
Bu torpaq dərdini danışan deyil,
Duyan duya bilir, duymayansa yox.

Biri bu yollarda küləktək ötən,
Biri səhralarda gül olub bitən...
Ömrünü, gününü uğrunda, Vətən,
Qoyan qoya bilir, qoymayansa yox.

## ÖLÜM, SƏNNƏN QURTARMIŞAM

Azdırdın, azdırdın məni, -
De, kimlər qorxuzdu səni?
Demədin ürək deyəni,
Dilim, sənnən qurtarmışam.

Əlænirsən üzümə də,
Tökülürsən gözümə də.
Qısqanırsan közümə də,
Külüm, sənnən qurtarmışam.

Dərdə əlaçtək gəlmədin,
Gülənlə belə gülmədin.
Məni mənimtək bilmədin,
Günüm, sənnən qurtarmışam.

Ömür gözəldi deyirsən,
Bəlkə düzəldi deyirsən.
Dağ aşıb daşa dəyirsən,
Ünüm, sənnən qurtarmışam.

Tanrı versə də, bu canı,
Qayalar üstə dolanır...
Gəzirsən səndən qaçanı,
Ölüm, sənnən qurtarmışam.

Haça-haça olan sevinc,
Ünyetməzdə qalan sevinç.
Məndən uzaq dolan, seçinc,
Bilim, sənnən qurtarmışam!

## DAHA DUZ ÇEVİRMƏ BAŞIMA MƏNİM

Baxıb inanmırlar yaşıma mənim,
Çatılan alnıma, qaşıma mənim.
Daha duz çevirmə başıma mənim.
Günləri uduzub, çıxıb gəlmişəm.

Gümanlar boylanıb baxsa da belə,
Getdim, məni günlər düşməsin ələ.
Bəlkə ürəyində qalmışam hələ,
Gəlsəm, yolu-izi azıb gəlmişəm.

Cır o yazıları düşsə əlinə, -
Düşmədi yazdığım şeir yerinə.
Hər gecə, hər axşam şeir yerinə,
Özümçün yüz ağı yazıb gəlmişəm.

Gəlmə, sağı, solu külək dağıdar,
Söylər o əriməz daşlar ağı da.
Bacara bilməzsən ağlamağı da,
Özüm öz qəbrimi qazıb gəlmişəm.

# ANAM İPƏK ÜÇÜN

Yolum dərdsə... nə yoldu,
Nahaqq saçını yoldun.
Sən mənə ana oldun,
Məndənsə oğul olmaz.

Əkdim, biçən olmadı, -
Gündüz-gecəm olmadı.
Yuxun da çin olmadı,
Heç belə nağıl olmaz.

Yad deyilsən içimə, -
Baxmadım gün keçinə...
Söz dedim göz içinə,
Oğlundan fağır olmaz.

Sözün, kəlmən mənə taxt...
Söylədin, döz... bu da baxt.
Gün gözlədim ki, nə vaxt,
Göz yaşın axar olmaz,

Saçına baxmaq çətin!..
Dünyayla saxladım kin.
...Gəl boşuna keçir gün,
Ayağın ağır olmaz.

***2002.***

## ÖMÜR ÖTSƏ BU SAYAQ

Oğlun ola bilmədən,
Saçlarıma düşdü dən...
Səndən başqa, ay Vətən,
De, kimim var, nəyim var?

Baxıram bəy... qaravaş...
Bu dünya ürəyidaş.
Nə olsun ki, a qardaş,
Yeməyə çörəyim var.

Yatanı dərd oyatmaz,
Mərdi yolunu atmaz.
... Bu külək mənə batmaz,
Kədərdən köynəyim var.

Babam yatan, a torpaq,
Qoynuna gəlməyim var, -
Nə vaxtsa ölməyim var,
Ömür ötsə bu sayaq,
Olacaq üzümə ağ.

## ANAMLA SÖHBƏT

Hər şeyin sonu var, deyirdin ana,
Gözlədik zülümün sonu olmadı.
«Gözüm baxa-baxa qocalan anam»,
Ha yandım, külümün sonu olmadı.

O vaxt atam vardı-həyanım vardı,
Deyirdim çiçəkdi, güldü bu dünya.

Hörmətin, izzətin sonu var imiş,
Gözüm görə-görə «güldü» bu dünya.

Gümanlar tükənir, arzular uzaq,
Çəkirik dərdini evin-eşiyin.
Sənin laylanı da unudum bəlkə,
Bu dolanbac yollar olub beşiyim.

Gecə də, gündüz də çoxuna açıq, -
Mənim qismətimə bağlı qapılar.
Açar axtardıqca, tapınca, ana,
Bir azdan ömürün sonu tapılar.

Dolanbac yolların sonu bilinmir,
Ya dağa, ya bağa aparır bizi.
Kədərin sonuna çatmaqdan ötrü,
Yollarda qoyuruq ürəyimizi.

Yaxşı günümüzün sonunu gördük,
Bilinmir yolların heç sonu, ana!
Baxıb gözləməyin daha nə xeyri,
Ömürdən o yana yol hanı, ana?

***1999.***

## MƏMMƏD ASLANA

Azarıq çoxunun sözünə baxsaq,
Yanıb kül olarıq gözünə baxsaq?! -
Bilərik gecədi üzünə baxsaq,
Bürünüb qapqara duvağa dünya.

Dağlardan keçirik bar alanadək,
Baxırıq, qüruba qaralanadək.
Çəməni yandırır saralanadək,
Baxmır nə çiçəyə, yarpağa dünya.

Küləyi sovurur, itir izimiz,
Adi sözə dönür daha sözümüz.
Baxırıq, uzağı seçmir gözümuz,
Öyrəşib verdiyin almağa dünya.

Biri yaşasa da, saray-evində,
Bir gün qopa bilir haray evində.
... Nə günəş görünür, nə Ay evimdə,
Döndərib bizləri qonağa dünya.

Nə zalımı bilir, nə dərd dünyanı, -
Çox görür arzunu, qalan gümanı.
Namərdin yolundan biçir tikanı,
Ehtiyac duymayır orağa dünya.

Gör kimin bəxtinə yazır gündüzü,
Güldürə-güldürə yaş edir üzü.
Sayır söz düşəndə günahkar bizi,
Çəkir yaxasını qırağa dünya.

Əlsiz-ayaqsızı nə tamah bilir,
Dinsə, ya qəbahət, ya günah bilir.
«Bəy»i bəy eləyir, «şah»ı şah bilir,
Dönür yollarında çırağa dünya.

***2002.***

## ÇIXIB GEDƏCƏYƏM BU KƏNDDƏN DAHA

Quzeyə yağan qar əriməz-demə!
Yalan ayaq tutub yeriməz, - demə!
Dəyişik düşərmiş yerimiz demə,
Çıxıb gedəcəyəm bu kənddən daha.

«İgid»i yuxusun almağa getdi,
Baş əyən-əyilən qabağa getdi.
Getdi, ayağımın qabığı getdi,
Çıxıb gedəcəyəm bu kənddən daha.

Duydum bü yolların son ucu nəsdi,
Mənası olmayan kəlamlar bəsdi.
Bu yalan gülüşlər, salamlar bəsdi,
Çıxıb gedəcəyəm bu kənddən daha.

Varkən qeyrətimiz, varkən adımız,
Niyə babamıza oxşamadınız?
Bu yaşda anamı qoyummu yalqız?
Çıxıb gedəcəyəm bu kənddən daha.

Qaçmıram önündən xeyrin, şərin...
Hər acı günü də bilmişəm şirin.
Yaxşının, yamanın bilmədik yerin, -
Çıxıb gedəcəyəm bu kənddən daha.

Nə sağım, nə solum vəfa qılmadı,
Qoy gedib özümə dost tutum yadı.
Sınan bir ürəyin tutub inadı, -
Çıxıb gedəcəyəm bu kənddən daha.

Nə sirdaşa inan, nə dosta əyil,
Doğmalar yadlaşır günbəgün, il-il.
Ağzından çıxan söz səninki deiyl, -
Çıxıb gedəcəyəm bu kənddən daha.

Ölməmiş tapılır yüz qəbirqazan,
Kimə əl tutursan, olur yolazan.
Yaxşılıq itirmiş nə tez, nə asan,
Çıxıb gedəcəyəm bu kənddən daha.

Haqq desən, üz tutur qaçmağa hamı,
Dildə əzbər olur nadan «kəlam»ı.
Neynirəm yalançı tərif-ənamı,
Çıxıb gedəcəyəm bu kənddən daha.

Ay məni «sevən»lər, qoy salım yada, -
Doğma sevgisi də hər gün sınaqda...
Gedib baş əyəkmi özgəyə, yada?-
Çıxıb gedəcəyəm bu kənddən daha.

Yaxşılar həmişə elə yaxşıdı,
Biri seçə bilir, yüzü naşıdı.
Satqını yüzünə dərdi daşıdır, -
Çıxıb gedəcəyəm bu kənddən daha.

«Cəhrə xala»ları yol üstündədi,
Bilmir uşaq nədi, bilmir ev nədi...
A qardaş, danışma, sinəm göynədi,
Çıxıb gedəcəyəm bu kənddən daha.

## BEŞ ARŞIN BEZDƏN QAÇIRAM?..

Gözü yaşsa yerin göyün,
Demədik, dərdə baş əyin.
Təkcə gülüb-sevinməyi,
Bacaran üzdən qaçıram.

Başda yer verdik günaha,
Nə üzlə gedək sabaha?
Səbr etməkdən bezdik daha,
«Səbr elə», «döz»dən qaçıram.

Dünyanın göz yaşı yoxsa,
Yer üzünün qışı çoxsa.
Gücün çatan daşı yoxsa,
Bir quru sözdən qaçıram.

Nəyim var üzdən oxunur,
Ay anam-bacım, uzaq dur.
Baxma, qəlbimə toxunur,
Dərd duyan gözdən qaçıram.

Dünyanın uçsa qalası,
Yox deyil «Cəhrə xala»sı.
Az danış, zalım balası,
Yol verin, sizdən qaçıram.

Ağlayan var, gülmə, ölüm,
Vaxt da yoxdu, gəlmə, ölüm.
Məni elə bilmə, ölüm, -
Beş arşın bezdən qaçıram?..

## BU YURD ƏVVƏLKİ YURD DEYİL

Elə bildim günüm xoşdu,
Gördüm ayım, ilim qışdı.
Mərddən uman, əlin boşdu,
Bu mərd əvvəlki mərd deyil.

Gəlib girmişik oyuna,
Ömürsə yetişir sona.
Qurd yoldaş olub qoyuna,
Bu qurd əvvəlki qurd deyil.

İşimiz qalıb Allaha,
Azıb-batmışıq günaha,
Ürəyə sığışmaz daha,
Bu dərd əvvəlki dərd deyil.

Bu ocaq həsrətdir közə,
İndi bu dərdə kim dözə?
«İgid»i səs vermir səsə,
Bu yurd əvvəlki yurd deyil.

*1992*

## DÜNYANI SEVMƏK ÜÇÜN

Dönüb uşaq olasan,
Dərddən uzaq olasan...
Nə üzə ağ olasan,
Dünyanı sevmək üçün.

Dağ aşmağı say asan!
Duman gəlsə susasan.

De, belə yazıb yazan, -
Dünyanı sevmək üçün.

Daşa da gözəldi de,
Yaşa da gözəldi de!
Qışa da gözəldi de,
Dünyanı sevmək üçün.

Gedək düz yola doğru,
Hamı doğrudan doğru.
Ürək bilməyə ağrı,
Dünyanı sevmək üçün.

İl ötə... Baxam yaşa, -
Dönəm ürəyidaşa...
Qorxuram başlaşam,
Dünyanı sevmək üçün.

## MƏKKƏM, MƏDİNƏM DƏ BİRDİ...

Yaman öyrəşdim dözümə,
De, neçə baxım üzünə?
Vətən, deyirdim, gözümə,
Ölüm görünməz, görünməz!

Bir yan bulud, bir yanda çən,
Görünməzdi Göy də, Yer də.
Günəş olsa da, bu yerdən,
Zülmət sürünməz, sürünməz.

Ələk bildiyim xəlbirdi,
Dedim, bir əlac var səbrdi.

Məkkəm, Mədinəm də birdi,
Dinim bölünməz, bölünməz.

Hər gəlib gedən sınandı, -
Sınan kəs, elə sınandı.
Bu duman elə dumandı,
Bir yol bilinməz, bilinməz.

Həkəri çayı hardadı? –
Görən suları qəm dadır?!
Daşları bölən inadı...
Yaşı silinməz, silinməz.

Xəbər verin o dağlara,
Buluddan geyməsin qara...
Haqq odu əridər, qara
Üzü bürünməz, bürünməz!

## KÖRPÜSÜ HANI BU ÇAYIN

Dağdan, dərədən danışdıq,
Deyib... qaynayıb-qarışdıq.
Yollar ki, qayadan aşdı,
Gördüm hamı yoldaş deyil.

Nə çəkirik fələk bildi, -
Kimlər kimdi? ələk bildi.
Çiynimizdə mələk bildi,
Hər ağlayan qardaş deyil.

Ömrü-günü vara-vara,
Baxdıq uzaqlardan qara.
Getmədik üzü dağlara, -
Gözümüzdəki yaş deyil?!

Körpüsü hanı bu çayın?
Sel yuyub o tay, bu tayı.
Başdaşımı axtarmayın,
Qəbrim bir deyil, beş deyil.

Üzdə ağrı-acı gördüm,
Uzaqda əlacı gördüm.
Gözlərimi açıb gördüm,
Sevinc hər şeydən baş deyil.

Bilmədik əkən nə əkir,
Duymadıq torpaq nə çəkir.
Başımızın üstündəki,
Gəzən bulud da boş deyil...
Başdaşımı axtarmayın,
Qəbrim bir deyil, beş deyil.

## GÜNDÜZ UNUDURAM DEDİKLƏRİMİ

Gecələr deyirəm, gündüz nə görsəm,
Yumub gözlərimi ötsəm yaxşıdı.
Nə qədər dostlarım yad olub mənə,
Dilimə yiyəlik etsəm yaxşıdı.

Gündüz unuduram dediklərimi,
Gözümdən yayınmır hər olub –olan.

Dilim ürəyimin sözünə baxmır,
Düzə düz deyirəm, yalana yalan.

Görürəm, yalandan üzə gülənlər,
Əyləşib çoxundan yuxarı başda, -
Günəşli günlərdə mərdə dönənlər,
Yağışlı günlərdə ürəyidaşdı...

Yalandan gülənin, ağlayanın da,
Yolu qayalıqdan, dağdan uzaqdı.
Dilim də, sözüm də başıma bəla,
Mənimsə yollarım şaxta-sazaqdı.

Elin gözlərinə tərəzi dedik,
Nizamını pozduq biz bilə-bilə.
Səbirsiz adamlar çox şey itirib,
Bəlkə əlacımız dözümdü belə.

## ƏLLƏRİM UZUN DEYİLSƏ

Yolum sazaqla döyülsə,
Gedib namərdə əyilsəm...
Əllərim uzun deyilsə,
Çörək, məni bağışlama!

Dadına yetər olmasam,
Səsləsən, dünər olmasam.
Yağışa dönər olmasam,
Çiçək, məni bağışlama!

Bu ocağa enə bilsən, -
Odunu söndürə bilsən...
Yolumdan döndərə bilsən,
Külək, məni bağışlama!

Gümanı dardan asdırsam,
Yolçunu yolda azdırsam.
Haqqı nahaqqa basdırsam,
Ürək, məni bağışlama!

## ANA TORPAQ

Yeridilər, keçilmədin,
Böldülər də, kiçilmədin.
Bu imiş bəxtin, qismətin,
Əldən-ələ ötən torpaq?!

Süfrən, çörək... düşdü yada, -
Yedi dost da, yedi yad da.
Nə bilək «dost» nə inadda?!
Ay çörəyi itən torpaq!

Günün, ayın sınaqdadır,
Gah sevincdir, gah qəm dadır...
Getsəm, demə uzaqdadır,
Ay qəlbimdə bitən torpaq,
Vətən-torpaq!

# YÜKSƏLƏ-YÜKSƏLƏ

Bəzən dərdi-səri unuduruq biz,
Uz tutub gedirik üzü yuxarı.
Bizə qənim olur əməllərimiz.
Yağdırır yollara yağışı, qarı.

Boyumuz uzanır, əlimizsə yox,
Yaxınlar, doğmalar uzaqda qalır.
Bilmirik dünyanın intizarı çox,
Analar, bacılar soraqda qalır.

Bir az sözümüzə yiyə durmuruq,
Sonra danışmağa üzümüz olmur.
Yüksələ-yüksələ başımız göyə,
Çox şeyi görməyə gözümüz olmur.

Bir az şirin olur hələ yerimiz,
Sözümüzə qarşı söz deyən olmur.
Ucala-ucala kiçilirik biz,
Kiçilib-görürük biz deyən olmur.

Yuxarı qalxmağın yıxılmağı var,
Yıxılan təzədən yerinə düşməz.
Yüksəkdə ürəyin sıxılmağı var,
Torpaq sevməyənin əlinə düşməz.

Göyün də, yerin də yerini bilsək,
Ayağımız altdan qaçmaz bu torpaq.
Yüksəyə qalxanlar yerini bilsə,
Gümana əlini açmaz bu torpaq.

Yüksələ-yüksələ gərək biləsən,
Acı ola bilər yuxarı dadı.
Yüksələ-yüksələ görə biləsən,
Tanrı bəndələri aşağıdadı.

## SINSA, SINMAYANDAN BAC ALAN ADAM

Əriyib yollardan axsa yağan qar,
Ağ yollar üstündə yoxsa yağan qar...
Yağanda dağına baxsa yağan qar,
Mən belə dünyadan küsmərəm daha.

Külək meh yerinə əsib dolana,
Rahatca-rahatca çiçək boylana.
Sevinc ünvanına doğru yollana,
Mən belə dünyadan küsmərəm daha.

Söz gəzən adamlar ağız güdməyə,
Şirinlik xətrinə yalan bitməyə,
Yaxşılıq arada batıb itməyə,
Mən belə dünyadan küsmərəm daha.

Haqqın kəndirini kəsməyə yalan,
Gözümüz önündə gəzməyə yalan.
Əlləri gümandan üzməyə yalan,
Mən belə dünyadan küsmərəm daha.

Əvvəlki adamsa, ucalan adam,
Sınsa, sınmayandan bac alan adam.
«Heyif» söyləməsə qocalan adam,
Mən belə dünyadan küsmərəm daha.

Şairin dilində doğru söz olsa,
Sözü soyuq qəlbdə qalan köz olsa.
Əyilməz şairlər! Əyilməz olsa,
Mən belə dünyadan küsmərəm daha.

## ANAMIN SEVGİSİ

Getdim uzaqlara, -
Daşları gördüm.
Qayıtdım,
Üzlərdə yaşları gördüm.
Gördüm,
Çox şeyi gördüm...
Namərd də dayandı önümdə,
Dərd də.
Baxırdı, dərd baxırdı
Üzü bəri...
Elə bil yatmışdım,
Oyandım.
Uzandı arxamca anamın əlləri.
Yeridim... Yeridim...
Qarışdım bulanan sulara, -
Dolanan sulara.
Nə bilim,
Mən hara, belə su hara?
Sazağa dönürdü dünyanın yelləri,
Uzandı arxamca anamın əlləri.
Yiyəlik etmədim
Dilimə, -
Yanmadım ömrümə-günümə,
Qocaldı... qocaldı anam.
Uzatdım əllərimi anama sarı,

Çatmadı.
Könlümə yatmadı
Qısa əllərim.
Əllərimin yanında,
Nə yaman uzunmuş
Əllərin, ay ana!
Uzat əllərini,
Oxşasın saçımı,
Unudum ağrımı, acımı...
Uzat əllərini,
Nə yaman uzunmuş
Əllərin, -
Qabarlı əllərin,
Hara getdim... hara getdim,
Ana, göründü yerin.
Gördüm ki,
Sənsiz bu dünyada nəyim var axı, -
Sənsiz səsli çaylar, küləklər ağı,
Sənsiz saçıma ələnəntək,
Qar yağır yoluma...
Ay ana, ay ana, qoy girim qoynuna,
Yad olsun ağrılar,
Acılar yoluma.

## YAŞAMAQ

Evin-eşiyin ola,
Çörəyin ola...
Hələ yaşamaq deyil.
Hər şeyi görmək də,
Yaxşını-yamanı bilmək də,
Bu ömrü sürmək də.

Hələ yaşamaq deyil.
...Kişilər gözlərinin
işığını,
veriblər ki,
Vətən zülmət olmasın.
Kişilər qollarını
veriblər ki,
Vətən qolsuz qalmasın...
Alışa-alışa
Çırağa dönüblər.
Bölünən torpağın
Dərdi azalsın deyə,
Torpağa dönüblər.
Boylarından
Uzun olub əlləri,
Daşıyıblar
Dərddən belə
Nələri, nələri...
Kişilər belə yaşayıb,
Çiynində, dərd daşıyıb, -
Mərd daşıyıb.

## ANAM İPƏK İLƏ SÖHBƏTİMDƏN BİR-İKİ KƏLMƏ

Görünür deyəsən sevincin sonu...
Üzündə yazılıb dərdimin sanı.
Bu qara torpağın vəfası hanı?!
Qoy baxım üzünə doyunca, ana.

Sonu gör nə imiş o toy-düyünün,
Açılmır yolların düşən düyünü.

Fələk özü yazan bu ömür-günü,
Elədi mənimçün oyuncaq, ana.

Danış, sözlərindən qoy doyum barı.
Nəfəsin əritsin ələnən qarı...
Gümüş saçlarını oxşayım barı,
Bu arzu-istəyim soyunca, ana.

Bu yollar dolanbac, bu yollar əyri,
Açılmaza döndü hər günün sehri.
Bu dua, bu filan daha nə xeyri,
Nə dinək, nə də ki, əl açaq, ana.

Hər gün yuxu imiş, yozan olmadı,
Yazılan yazıldı, pozan olmadı.
Bir nəğmə var idi, ozan olmadı,
Dinləyəm yerimdə doyunca, ana.
Bu ömrün, bu günün vəfası hanı? –
Qoy baxım üzünə doyunca, ana!

***2002.***

## GÖRƏSƏN BU QIŞIN XƏBƏRİ VARMI?

Yaşaya bilmədim ömrü özümə,
Günlər yağış olub dəydi üzümə...
Ağrıyan ürək də baxmır sözümə,
Bu ömrün, bu yaşın xəbəri varmı.

Köçür durnaları, köçür uzağa,
Seçilmir qarası, qarışıb ağa. –

Bu yazıq torpağı çəkir sınağa,
Bu dağın, bu daşın xəbəri varmı?

Dupduru sular da selə qarışır,
Yanıb odlanan da külə qarışır.
Qurunun oduna elə qarışır, -
Kül olur... Bu yaşın xəbəri varmı?

Yolların üstündə demə güman var,
Gəzib aramağa hələ zaman var. –
Arxada şaxta var, öndə boran var,
Görəsən bu qışın xəbəri varmı?

O ötən günləri bu gün gəl, unut,
Bacarsan başını indi uca tut.
Quruyur babamdan qalan qara tut,
Bacının, qardaşın xəbəri varmı?

## SALAM AY VƏTƏN, AY VƏTƏN

İndi necə deyim bəyik?-
Dərd danışır qaya gədik.
Neçə dəfə bölük-bölük
Olan, ay Vətən, ay Vətən!

Od olmadıq o çağında,
Külə döndük ocağında.
Dərdin qoymur qucağında,
Qalam, ay Vətən, ay Vətən!

Qova bilmədik bu çəni,
Bürüdü tutdu sinəni.
Ola bilmədim mən sənin,
Balan, ay Vətən ay Vətən!

Çörəyini yedimsə də,
Hər gün «Anam» dedimsə də.
Üzüm yoxdur deyəm sənə,
Salam, ay Vətən, ay Vətən!

## ÖMÜR SÜRMƏK NƏDİR, BİLDİM

Vaxt yeridi vaxt üstünə,
Qar ələdi baxt üstümə.
Oturardım taxt üstündə,
Mən qızılı dəmir bildim.

Şöhrət üçün yol varmadım,
Bir kimsəyə yalvarmadım.
Nahaqq üçün qal varmadım,
Ucadadı səbr, bildim.

Qurulub dərddən alaçıq,
Keç, gecələ alnıaçıq.
Biz qalmasaq da, qalacaq,
Hörmət, izzət, qədir, bildim.

Məndə günah gəzmə, oğlan,
Yerdə qalmaz nahaqq, yalan.
Boşunadı mənsəb, filan...
Məhşər günü gəlir, bildim.

Dinən günahkar da oldu,
Görən kəs lal-kar oldu.
Nə oldu, aşkarda oldu, -
Ömür sürmək nədir, bildim.

## DÜŞMÜŞÜK ŞEİRİN DALINCA...

Ölüm dünyanın azımı? –
Dar ağacı yol uzunu.
Tanrı yazdığı yazını,
Nə bilək bəndə pozacaq.

Bu şəhər Hələb şəhəri,
Bacar, bu şəhərdə yeri.
Cəlladın görünür yeri,
Gəlsə də, mərdi asacaq.

Yarımadıq biz bu bağa, -
Dönmüşük quru budağa.
Dözürük çəkilən dağa,
Namərd yüz yerə yozacaq.

Söykəndik rahat balınca,
Dərdi yemədik doyunca.
Düşmüşük şeirin dalınca,
Mələklər bunu yazacaq.

# DÖYÜR AĞACLARI AĞACDƏLƏNLƏR

Dilinin altında sözünü saxla,
Üzünə açılsın meşin qapılar.
Biri xoşlansa da, bir-iki sözdən,
Sözü böyütməyə beşi tapılar.

Daş qoya bilməsən dilinin altda,
Yerisən daş dəyər ayaqlarına.
Dünyanın işləri belədi, qardaş,
Yüzü yol gözləyər, biri barınar.

Bu dəyirmanın da daşı dəyişib,
Buğda əvəzinə üyüdür bizi.
Dinib kiçilirik, dinməsək çoxu,
Zəhmətsiz-filansız böyüdür bizi.

Dünyanın üzünə bozar, ya ağ ol,
Onsuz da bu dünya düzələn deyil.
Az tut ətəyindən doğrunun, düzün,
Yalanlar usanıb üzülən deyil.

Yeri «böyüklər»in getdiyi səmtə,
Yüyürüb küləyə özünü yorma.
Dünyanın dumanı, çəni var, belə,
Uzanan yollarda gözünü yorma.

Sənə qalmayıbdı dar ağacları,
Alma ağacı var, nar ağacı var.
Qılıncdan keçdilər igid ərənlər,
Dərdin nə dərmanı, nə əlacı var.

Saxla sözlərini, küləyə vermə,
Sözü ötürürlər bu «başbilənlər».
Nə olsun əlçatmaz yurd yerlərində,
Döyür ağacları ağacdələnlər.

## ONSUZ DA MƏLƏKLƏR GÖZƏ GÖRÜNMÜR

Nə var ürəyimdə açıb söylədim,
Dolandım başına, dostun, tanışın.
Əlimi uzatdım əlaçanlara,
İsdandım altında, qarın-yağışın.

Dolandım başına bu göyün, yerin,
Gördüm göy buludlu, yer qalmaqaldı.
Dolandım başına nə var dünyada,
Elə bu dolanmaq özümə qaldı.

Sevdim bu torpağın gecəsini də,
Gərildi üzümə qaranlıqları.
Məni üzə gülən bəyaz yolları,
Apardı qayaya, dənizə sarı.

Ay ana, sözünü küləyə verdim,
Deyirdin, «əriyən bizə görünmür.
İblislər dayanır qənşərimizdə,
Onsuz da mələklər gözə görünmür».

... Dur aç qapımızı, ay Afaq qızım,
Bu mənəm şübhələr boğmasın səni.
Çağırın, ananmın başına dönüm, -
Bezdirdi bu olub-olanlar məni.

## SU DURULMUR, İÇİB GEDƏM

Hamı mələk duvağında,
Üzü qaradı ağın da.
Beşi çulun sorağında,
Beşi çulunu qoruyur.

Ha çək dərdini, ahını,
Torpaq çəkmir tamahını.
Dünya yüz-yüz padşahını,
Yoxsa, qulunu qoruyur?

Su durulmur, içib gedəm,
Duman getmir, keçib gedəm.
Qoymur məni köçüb gedəm,
Ölüm yolumu qoruyur.

## BƏNZƏMƏZ DAHA

***Atamın xatirəsinə***

Doğma ev yollara boylanar bu yaz,
Acı xatirəyə döndü bir muraz.
Günəşin nuru da azalıb bir az,
Yer yerə, göy göyə bənzəməz daha.

Ocağı dəyişib, odu dəyişib,
Bu evin doğması, yadı dəyişib.
Yediyin çörəyin dadı dəyişib,
Çörək o çörəyə bənzəməz daha.

Bu evi isitməz nə qardaş, bacı,
Gümanlar görünmür, ona əl açım.
Neynirəm daraya ağaran saçı,
Külək o küləyə bənzəməz daha.

Güllü pəncərəni döyəclər külək,
Qaçar o balaca qız əvvəlkitək.
Yaman qocalıbdı anamız İpək,
Təzədən ipəyə bənzəməz daha.

Ulduzlar gecəyə qatar ömrünü,
İlahi, bu bəxti qaytar! Ömürmü? –
Yaşada bilmədi ata ömrünü,
Ürək o ürəyə bənzəməz daha.

## YAXŞI Kİ, DÜNYANIN YAXŞILARI VAR

Yolların üstünü qar-boran alar, -
Nə kiçik bilinər, nə böyük olar.
Bizim çiynimizdə hər iş yük olar,
Yaxşı ki, dünyanın yaxşıları var.

Bulanan sularda boğular adam,
Dumanın içində yox olar adam.
Əl tutan olmasa, yıxılar adam,
Yaxşı ki, dünyanın yaxşıları var.

Namərdlər nə yaxşı, nə də mərd bilər,
Dinib danışanda, nə də hədd bilər.
Beşi də bilməsə, biri dərd bilər,
Yaxşı ki, dünyanın yaxşıları var.

Söz var öz gücüylə əridər qarı,
Əzər yolu-izi kəsən daşları.
Sevinc yaşı olar bu göz yaşları,
Yaxşı ki, dünyanın yaxşıları var.

Qədrini bilməsək bu yerin-göyün,
Dərdini çəkərik hər ötən günün.

Sevinc də gətirməz olan toy-düyün,
Yaxşı ki, dünyanın yaxşıları var.

Süzülər fikrimdə hər olub-olan –
Bu gecə ötərmi, açılarmı dan?..
Dayan, ürəyimin ağrısı, dayan,
Yaxşı ki, dünyanın yaxşıları var.

## KİMİN ODU, KİMİN KÜLÜ OLACAQ

Bu torpağın harda qalıb meşəsi,
Hanı yaşıl ağacların nəşəsi?
Kül olsa da, ərənlərin peşəsi
Bu ocaqda alışmaqdı, biləsən.

Kimin odu, kimin külü qalacaq,
Kim doğmadı... yaxşı bilir bu ocaq.
Yanmayanlar yolun hardan salacaq?
Boş-boşuna danışmaqdı biləsən.

Mərd ölsə də, illər sürər sürünməz,
Dərdi çəkər, üzü dərdə bürünməz.
Gün keçirmək çoxlarına bilinməz,
Mənim üçün dağ aşmaqdı, biləsən.

Qoymaz məni yaşamağa yüz günah, -
Sevinc gələr, gözləyirik hər sabah...
Düzələsi deyil, çəkəm yüz gün ah,
Demə əlac barışmaqdı!.. biləsən.

Yol gedirik, ha ələnir qar-dolu,
Elə bilmə itirmişəm mən yolu.
Bu dağlardan axan suyun son yolu,
Dənizlərə qarışmaqdı, biləsən.

## GİLEYLƏNMƏ DAHA BƏXTDƏN, AY ÖMÜR!..

*(Nəvəm Zeynəb və Zəhra üçün)*

Bir arzunun arxasınca süründük,
Yollar uzaq, əlçatmayan göründü.
İllər ötdü, gün sevincə büründü,
Göy üzündə güldü ulduz, Ay, ömür!

Sular ilə danışdığım gün vardı, -
O ötüşən gün də, ay da yad oldu.
Elə bildim uzaqlara apardı,
Yuxuları bu sel-sular, çay, ömür!

Nahaq yerə gileyləndim mən, demə,
Çəkilərmiş yoldan boran, çən demə.
Yazıb imiş Tanrı bəxtə, sən demə
İki çiçək, iki gözəl pay, ömür!

Daha hər gün gətirir yaz səhəri,
Bu od ocaq yaxın qoymaz qəhəri,
Uşaq səsli, qışqırıqlı günləri,
Saat-saat ömür-gündən say, ömür!

Hökmü varmış hər saatın, anın da,
Çıxır acı günün, ayın canından,
Nəvələrin səs-küyünün yanında
Yalan imiş yüz-yüz düyün, toy, ömür!

...Nağıl desəm, Zeynəbimə, Zəhrama,
Qışqırırlar, «göydən düşsün dörd alma,
Nənəm və biz, axı çatmaz babama...»
Gileylənmə daha bəxtdən, ay ömür!

# MƏNSİZ YAŞAMAĞI ÖYRƏDİM SƏNƏ

## MƏNSİZ YAŞAMAĞI ÖYRƏDİM SƏNƏ

Bir az dinən daşın dilini öyrən,
Bir az göz yaşının sirrini öyrən.
Bir za da kədərin yerini öyrən,
Dərdi daşımağı öyrədim sənə.

Qaldı uzaqlarda, ünyetməzdə yaz,
Qalan ömür-günü qar-sazağa yaz.
Yolların çovğunu, dumanında az,
Qaya-dağ aşmağı öyrədim sənə.

Bir gümandan ötrü yollar seçimdə, -
Ulduzlar yox olsun bulud köçündə.
Uzun gecələrdə, zülmət içində,
Azıb dolaşmağı öyrədim sənə.

Bu ömür yollara göz dikməkdisə,
Axırı arzudan əl çəkməkdisə.
Beləcə yaşamaq bir küsməkdisə,
Bəlkə barışmağı öyrədim sənə?

Çox şeyi demədik, qaldı gizlicə,
Yollar uzaq düşdü buz əriyincə.
Gedim uzaqlara, gedim bir gecə,
Mənsiz yaşamağı öyrədim sənə.

## DAHA GECƏLƏR DƏ GÖZÜMDƏN DÜŞÜB...

Kaş ki sözlərimə inanmayaydın,
Bir yalan biləydin doğru arzunu.
Əlçatmaz, ünyetməz gümana belə,
Əlimi açmazdım ömrüm uzunu.

Bəlkə nahaqq yerə ürək sirrimi,
Xahişsiz, filansız açmışam mən də...
Vəsfinə yazdığım şeirlərimi,
Oxuyub kiməsə, öyünürsən də.

Gecənin gözündə əriyən kimdi? –
Bu qismət soyuqluq üzündən düşüb.
Ay da doğma idi, ulduz da doğma,
Daha gecələr də gözümdən düşüb.

Neçə yaxın idik gözlə qaş kimi,
Neçə uzaq düşdük göy üzü qədər.
Duman da biz olduq, qaya-dağ da biz,
Uzanan yolları qınadıq... hədər!

Yolların üstünə yağan qar kimi,
Ələnir üstümə süallar indi.
Yüz-yüz sorğuların çavabı bumu? –
Hə... biri var idi, biri yox idi...

***29.08.2013.***

## SƏNİ UNUTMAĞA MƏNDƏN GÖZLƏMƏ

Saxlaya bilmədi çən-duman ömru, -
Başqa yol tutmağı məndən gözləmə.
Aramızda qalan güman da itsə,
Səni unutmağı məndən gözləmə!

Ayları ötürdüm, günü gözlədim, -
Tale yazı yazdı... susdun niyə sən? –
Qaldıq sorğu-sual məngənəsində, -
Nekroloq yazdınmı bu sevgiyə sən?

Yazdım günahlara... yazdım bəlkə də, -
Baharı gözlədim bu qış ömrümə.
Günlərin, ayların soyuqluğunu,
Təzədən gətirdi yağış ömrümə.

Doğru de, heç məndən xəbərin varım? –
Ağrıyır... ağrıyan ürək təzədən.
Nə olsun ocaq da, od da qalıbdı, -
Külümü sovurur külək təzədən.

Mən belə demədim... gələk üz-üzə, -
Olub-olanlar da günaha dönə?!
Bir güman girinci qala bu ömür,
Dönəsən nağıla, röyaya yenə.

Saxlaya bilmədi çən – duman ömrü, -
Başqa yol – yolağı məndən gözləmə.
Aramızda qalan güman da itsə, -
Səni unutmağı məndən gözləmə!

***03.04.2013.***

# BİRİNİ BİLİRSƏN, BİRİNİSƏ YOX

Gecələr açılmaz qıfılbənd olub, -
Zülmətin sorğusu, sualları çox.
Vaxt-zaman əlində qaldım gileyli...
Birinin bilirsən, birinisə yox.

Ömrü bölə-bölə sürdüm, nə xeyri?!
Umanlarsa hələ giley-güzarda.
Yaşaya bilmədim ömrü özümə, -
Üzdüm əllərimi ötən bahardan.

Keçilməz dağları aşmaq hədərsə,
Gedim o yuxuya dönüm təzədən!
Döysün yollarımı qar da, yağış da,
Düşsün qayalara yönüm təzədən!

Məni tanımağa üzül... üzülmə...
Dərd-sərin əlindən göyərən daşam.
Oxuyub yazdığım şeirlərimi,
Nahaqq deməmisən «...gözəl olmuşam!»

Tələsdim... günaha yazıldı bu da, -
Deyədə bilmirəm «ürəyimdən çıx!»
Bu da bəxt yazısı... mən vaxt girinci, -
Birini bilirsən, birinisə yox!

***10.06.2013.***

## AĞLIMA GƏLMƏZDİ

Sarı yarpaqlar tək xatirələr də,
Düşür yaddaşımdan itir birbəbir.
Günəşli gündüzlər uzaqdan uzaq,
Payızdan o yana yol hara gedir.

Ağlıma gəlməzdi, keçdiyim yollar,
Bir göz qırpımında qarlı qış ola.
Gecələr uzana bu yollar kimi,
Günlər saat-saat qəlbidaş ola.

Sən ömrü itirdin biganəlikdə,
Mənsə səhvləri bağışlamaqda.
İndi nə desən də, yerinə düşməz!
Nə xeyri, söz açma daha bu haqda.

Aylarla, illərlə qalan sirrləri,
Dağlara, daşlara pıçıldamışam.
Daha bu yollarda özünü yorma,
İndi mən deyimmi, ürəyidaşam?

Nə bildin, kövrəyəm əvvəlki kimi,
Sözümün üstündə dura bilmirəm.
Qalan ömür-gün də qıfılbənd ola,
Yenə bir ürəyi qıra bilmirəm.

Ömrünə ağ yollar yazılan adam,
İndi dağ aşmağı öyrətdim sənə.
Aylarla, illərlə uzaq olduğun,
Dərdi daşımağı öyrətim sənə.

***27.12.2013.***

# SƏNƏ ÜRƏYİMİ VERDİM

Sənə ürəyimi verdim, -
Gözüm görə-görə.
Yol uzanmasın.
Yorulub-yorulub
Yol usanmasın.
Sənə ürəyimi verdim, -
Gecələr uzandı
Yollar uzanan kimi,
Qırılmaza döndü
Qaranlığın tilsimi...
Yeridim...
Yeridim...
Gəmisiz, limansız
Dənizi tapdım.
Dalğası daşları,
Qayaları çapdı...
Sazağı iliyə işlədi.
Ərinməz oldu
Qalan qar.
Şaxtaya
Döndü olanlar.
Günəşli günlər uzaq düşdü, -
Gözlərim
Gözləməyə öyrəşdi.
Sənə ürəyimi verdim, -
Demədim,
Sənsizliyi daşısın,
Ağrıya-ağrıya
Yaşasın.

## CAVABSIZ MƏKTUBLAR

Özüm də nə vaxtsa, cavabsız qoydum,
Payızı, qışı da bahara qədər.
Olub-olanların burulğanında,
Yollar da uzandı gör hara qədər.

Gecələr də sual, gündüz də sual,
Cavabsız nə varsa, baxtıma düşüb.
Sözümə biganə ol, ya da olma...
Küsməyin küsməyən vaxtıma düşüb.

Nə olsun bir ömür ibadət elə,
Az da olsa, qəlbin savabsız qalıb.
Sirri açılmayan qismətimizin,
Günləri, ayları cavabsız qalıb.

Uzun gecələrin ömrü nə qədər?!
Suallar əlində itib-batmışıq.
Qar yağış əlində mənzil başına,
Deyəsən, xəbərsiz gəlib çatmışıq.

Ən yaxşı cavabdır sorğu-sualım,
Cavabsız qoysan da bu məktubları.
Ömrümü-günümü verdim mən sənə,
Oxusan yarımçıq oxuma barı.

***17.03.2013.***

## DESƏM DƏ...

Bu ömrə ömür-gün demək olmadı, -
Buludları qovan külək olmadı...
Bir körpü qurmuşdum, gərək olmadı, -
Sellənir, sellənir... çay, çıxıb gedim.

Vəsfinə yazdığım şeirlərimi,
Oxusan, bilərsən itirdin kimi.
Ayları, illəri hədiyyə kimi,
Elədim ömrünə pay, çıxıb gedim.

Hanı ömür-günün yaşıl köynəyi?-
Sinəmdə əlçatmaz arzu göynəyi...
Əsir başım üstə payız küləyi,
Deyəsən qurulur «toy», çıxıb gedim.

Mən kimi qınayım, bu qismətə bax, -
Zülməti keçilməz, dumanı sıx-sıx...
Demişdim «qəlbimdən getməyə yol yox!»
Mənə inanmadın, qoy çıxıb gedim.

Bu da bu ürəyin bir xasiyyəti, -
Yad bilə bilmədi dərdi, xiffəti.
Getmək, unutmaq da çətindən çətin! –
Desəm də, «günləri say, çıxıb gedim».

***07.07.2013.***

## ƏS KÜLƏK, HƏLƏ DƏ MƏN DEYƏN DEYİL

Gözlədim, gözlədim... bahar da qışsa,
Çiçək əvəzinə göyərən daşsa.
Bir qara saçlı da ürəyidaşsa,
O ürək hələ də mən deyən deyil!

Tapdımsa, əlçatmaz güman yuxuda, -
Bu dərdin mənimsə azı, çoxu da...
Gerçəyə döndüsə, röya – yuxu da,
Bu gerçək hələ də mən deyən deyil.

Dedim, daha yollar çisək – çən olmaz,
Nə bilim, son ucu bizəcən olmaz...
Göyərən otlar da dizəcən olmaz, -
Biçənək hələ də mən deyən deyil!

İtirdim ayımı – ilimi, bildim, -
Özümü özümün qənimi bildim.
Sovurdun... sovurdun... külümü, bildim, -
Əs külək! Hələ də mən deyən deyil.

Gözlədim, gözlədim... bahar da qışsa,
Çiçək əvəzinə göyərən daşsa.
Bir qara saçlı da ürəyidaşsa,
O ürək hələ də mən deyən deyil!

***16.03.2013.***

## QAYIDIB GƏLSƏM DƏ...

Yarımçıq taxt qurdum... dağıla görüm!
Təzədən sorğuya, suala dönüm?..
Qayıdıb gəlsəm də... nağıla dönüm,
Sevincin yolu heç gerçək deyilmiş!

Göy üzü qaraldı hər axşam-səhər, -
Yağan yağış idi, yoxsa ki, qəhər?
Çəmən gözü yaşlı... gülünə qədər, -
Çiçək də elə bil çiçək deyilmiş?!

Mənim getməyimi yüz yerə yozma,
İşıqgələn yolu gümandan asma!
Günahlar içində azdım... sən azma! –
Yediyim çörək də çörək deyilmiş!

Nələr itirmişəm... gəzdim hər gecə, -
Bu sirri özümlə böldüm gizlicə.
Dağlardan, daşlardan dönüb gəlincə, -
Gördüm küləklər də külək deyilmiş?

Uzaqlıq ömrümə kəsildi qənim...
Qaldı məndən uzaq yelkənsiz gəmim.
Dedim ki, dayanar... dözdü ürəyim, -
Ürək də əvvəlki ürək deyilmiş?!

***26.04.2013.***

## EH... SƏNİ UNUTMAQ HEÇ MÜMKÜN DEYİL

Bilmədim heç nə vaxt üz-üzə gəldik, -
Özü bəxtinimi yazdı bu ömür?!
Bir qəfil küləyin burulğanında,
Bu dərdi çəkməyə azdı bu ömür.

Bir yolun-çığırın yolçusu olduq,
Gördüm sənsizlik var mənzil başında.
Sağa da yeridim, sola da baxdım,
Səsini eşitdim dilsiz daşın da.

Günlər də, aylar da illərə döndü...
Çox sorğu-suallar yolumu kəsdi.
Döydü yollarımı yağış da, qar da, -
Nə imiş illərin bəxtimə qəsdi?

Hər axşam, hər səhər öz səhvlərim,
Qurdu çox imtahan, qurdu çox sınaq.
Uzanan gecələr, açılmaz sabah,
Ömrümə pay oldu... çıxdım üzüağ...

Ay hər gün həsrətdən bənizi yaşlı,
Sən niyə dəyişdin... ürəyidaşsan?!
Mənim günahıma haqq-hesabdımı? –
Əlçatmaz gümanla bağrıbadaşsan.

... Niyə gileyləndim, niyə bilmirəm? –
Desəm də «qəlbimdən köç» mümkün deyil!
«Ünut, məni unut» dediyin yalan! –
Eh... səni unutmaq heç mümkün deyil!

*05.03.2013.*

## BİLİRSƏNMİ HEÇ

Tale yazı yazdı, bir saray qurdum...
Ağlıma gəlməzdi uca bu saray.
Tapıb itirdiyim gümana bir də,
Aça əllərini, aça bu saray.

Haqqın var deməyə «günahkar» mənə, -
Bəlkə ələ düşməz bir də bu bahar.
Yağır yağış kimi giley – güzar da, -
«Özümdən özümə şikayətim var!»

Çox şeyi demədim, dedim bilirsən, -
Hər sözüm, hər sirrim bəllidir sənə.
Ağlıma gəlmədi bildiklərimiz,
Təzədən sorğuya – suala dönə.

Daha gözlərimə yuxu da yaddı,
Açam qalan sirri barı bir gecə.
Buna gecədənmi bir qisas deyim?!
Ümidlər əsiri oldum gizlicə.

Ömürdən bilmirəm hər ötən günü, -
Beləcə yaşadım... bilirsənmi heç?
Ayılıb gördüm ki, ömrün qışına,
Qalıbdır bir addım, bilirsənmi heç?

***23.06.2013.***

# SƏN ELƏ BİLMƏ Kİ...

Bu bahar bənzəmir başqa bahara, -
Yağış bu yolları yudu... ha yudu...
Gözüm görə-görə olub-olanı,
Gerçək də, elə bil hələ yuxudu.

Bahardan o yana yol yox!.. deyirdim,
Hələ uzaq imiş mənzil başı da.
Sən elə bilmə ki, unudulubdur,
O əlçatmaz güman, o göz yaşı da?!

Əridi yolların qarı, buzu da, -
Axan sel-sulardan bacar, keç indi.
Mən həmin adamam, sən dəyişsən də,
Girdiyin ürəkdən bacar, köç indii?!

Yenə də gerçəyə nağıl deyirsən?! –
Sən elə bilmə ki, bitdi bu nağıl.
Külümü sovurdu əsən küləyi, -
Sən elə bilmə ki, ötdü bu nağıl.

Dumanlar çəkildi... üz-üzə durduq, -
Gizli nələr varsa, qaldı gizlicə.
Haqlısan... gerçəyə nağıl desən də, -
Yollar qovuşdumu buz əriyincə?!

***26.03.2013.***

# AYLARI İTİRDİK

Röyalar gerçəyə dönür deyəsən, -
Daha demək olmur, özgəyəm, yadam.
Nə vaxtsa, hardasa, dediyim yalan! –
«Sən başqa adamsan, mən başqa adam».

Daha olanlara nağıldı demə! –
Gəl mənim ömrümə yaz bu nağılı.
Mənə bir gerçəkdi... inan, inanma –
Yüz yerə, min yerə yoz bu nağılı.

Uzun gecələr də şirin olarmış, -
Günlərin gözündə yuxusu qalıb.
O yağan yağışın, o qar-sazağın,
Demə urəyimdə qorxusu qalıb!

Mən də sənin kimi röyamı deyim,
Necə nağıl deyim olub-olana?
Ayları itirdik... bahar da ötsə,
Qalmaz güman yeri ondan o yana.

Günlər saat-saat qurğuşun yükü, -
Dərd daşımaq ucuz, sevinmək baha!
Payız da sovuşdu, qış da ötüşdü...
Gərək deyiləmsə, gedimmi daha?

Bu necə qismətdi... bu bahar çağı,
Sözümdə, kəlməmdə giley, qalmışam.
Oxusan yazdığım şeirlərimi,
Deyərsən «nə qədər gözəl olmuşam!»

***12.04.2013.***

## GÜNLƏRİ SAYMAQDAN VAXTIM HARDADI

Şaxtanın-sazağın içindən çıxıb,
Dedim güman yeri bu bahardadı.
Deyimmi gözləmə?.. Gələ bilmirəm, -
Günləri saymaqdan vaxtım hardadı?!

Niyə biganəsən dediklərimə? –
Kəlməmi, sözümü apardı külək.
İtirdik arada qalan gümanı,
Paltardan qırılıb düşən düymətək.

Sənsizlik əyləşib padşah yerində,
Bir ömür əmrinə müntəzir kimi...
Sən sus, mən də susum... daş adam olaq,
İndi adlandıraq günahkar kimi?

Mənə bir yol göstər, - unutmaq yolu,
Olub-olanları unudub gedim?!
...Dayan, ay gəmiçi, məni də gözlə,
Bəlkə o sahilə üz tutub gedim.

Şaxtanın-sazağın içindən çıxıb,
Dedim güman yeri bu bahardadı.
Deyimmi gözləmə?. Gələ bilmirəm, -
Günləri saymaqdan vaxtım hardadı?!

***2013***

# BEŞ-ALTI MİSRAYA BAŞIM QARIŞDI

Məni göy üzü də aldatdı yaman...
Baxıb öyünürdüm ulduzlarıyla.
Gözüm görə-görə addımbaaddım
Döydü yollarımı yağış-qarıyla.

İtirdim bu bəxtə düşən yolları, -
İşıqgələn hara, mən hara?.. gördüm.
Beş-altı misraya başım qarışdı,
Ömür həsrət qalıb bahara gördüm.

Bir gerçək istəyin şirinliyində
Güman da əlçatmaz, uzaq olarmış.
Beş-altı misralıq bir şeir kimi
Beş-altı misralıq sevgi də varmış!

Ay məndən illərlə şeir uman kəs,
Nə olsun, sirr olan sözlərim çoxdu.
Yazılıb, oxunub... o şeir bitib,
Daha yazılmayan misrası yoxdu.

Biganə-biganə oxuyacaqsan,
Bilmədim, hər sözü, sətri yazanda.
Əlinə yazdığım şeirlər düşsə,
Daha istəmirəm oxuyasan da.

Şaxta da, sazaq da araya düşdü,
Yaxandan yapışdım, dağ aşaq, ömür!
Günləri, ayları küləyə verdim,
Uzat əllərini, barışaq, ömür!

***16.01.2014.***

## BİR PAYIZ GÜNÜ

Səsim qulağından asılıb qalar,
Divardakı şəklim saralıb qalar,
Bu evə bir həsrət qısılıb qalar,
Əlin mənə çatmaz bir payız günü.

Vermə sözlərimi küləyə, vermə, -
Doğruya yoz barı bir-iki kəlmə.
Üz tutub getdiyin sahilə gəlmə,
Ürəyinə yatmaz bir payız günü.

Mənim duyduğumu duydun tərsinə,
Bu haqqın önündə düşdün tilsimə.
Mənsiz yuxuları sulara demə,
Bildiyin kimi yoz bir payız günü.

Yarpaqlar sazağa alışmaz belə...
Yollar bir-birinə qarışmaz belə.
O düzlər, dərələr danışmaz belə, -
Nə axtar, nə də gəz bir payız günü.

Hər şeyi bilirsən, daha nə deyim...
Gəlib günahlara bəlkə baş əyim.
Qalar ünyetməzdə məni görməyin, -
Döz, mənsizliyə döz, bir payız günü.

Bürüdü çən-çisək, duman günləri,
Ağrılı-acılı viran günləri.
Ömrümdən üzülüb qalan günləri,
Verdim, ömrünə yaz bir payız günü.

## MƏNİM AXIRIMA ÇIXACAQ ŞEİR

Biri qəlbi duyan, beşi qəlbidaş,
Dinirəm, yoluma hey ələnir daş.
Dilimə yiyəlik etmirəm, qardaş,
Mənim axırıma çıxacaq şeir.

Günəşdən soraq yox, yaddı bu bahar! –
Görən, əriyərmi sonacan bu qar?
Axır yollarımda bulanan sular, -
Məni bu sularda boğacaq şeir.

Yazıram, kimisi özünə yozur,
Yazmıram ürəyim günaha yazır...
Çıxıb uzaqlara gedim?.. mən hazır!
...Boylanıb arxamca baxacaq şeir. –

Təkcə sən qınama, təkcə sən məni,
Öz sevdam ömrümə kəsildi qənim!
Oxusan, sonra kim ovudar səni? –
Gözündən yaş olub axacaq şeir.
Mənim axırıma çıxacaq şeir!

## SƏN ELƏ BİLİRSƏN SEVMİRƏM SƏNİ

Çəkilib gözümdən gecə yuxusu,
Bu çay da gözümdə adi axan su.
Dayanıb qarşımda həsrət qorxusu,
Ay tutub üzünə dumanı, çəni,
Sən elə bilirsən sevmirəm səni.

Hər şey qərib kimi, itib yaraşıq,
Gecəylə gündüzün yeri dolaşıq.
Yaxşı da, yaman da düşüb qarışıq,
Qəriblik bürüyüb çölü, çəməni;
Sən elə bilirsən sevmirəm səni.

Şübhələr hər şeydən yamandır, yaman!
İtir, bu hissləri varsa da güman!
Sənə deyilənlər yalandır, yalan!
Danış, əvvəlki tək danışdır məni;
Sən elə bilirsən sevmirəm səni.

Səsləsən, səsinə qarışacağam,
Bu gecə hirsimdən alışacağam.
Küssən, səndən əvvəl barışacağam,
Mənə çox görsən də bircə kəlməni;
Sən elə bilirsən sevmirəm səni.

Mənə yad görünür həyət, baca da,
Dur gəziş bir azca həyət-bacada.
Başına yığışsın qardaş, bacı da,
Unut bir andaca olub-keçəni, -
Sən elə bilirsən sevmirəm səni.

## BARIŞMAĞA GƏLMİSƏN

İtib-gedib, o gəncliyin izi yox,
O ocağın külü qalıb, gözü yox.
Dayanıbsan nə lal-dinməz sözü yox,
Təzədənmi alışmağa gəlmisən?
Bilirəm ki, barışmağa gəlmisən.

Ömrün-günün, hay-harayın itirdik,
Özümüzü haralara gətirdik.
Bir sevdanı xatirəylə bitirdik,
Bu sevdaya qarışmağa gəlmisən? –
Bilirəm ki, barışmağa gəlmisən.

Qəbahətin ömür deyil, yaş deyil,
Anlayıbsan güman yeri boş deyil,
Nə gec duydun mənim qəlbim daş deyil.
Bildiyini soruşmağa gəlmisən?
Bilirəm ki, barışmağa gəlmisən.

Bu sevdanın həsrətində yanasan!
Mənə çətin, sənə isə yol asan.
Duyan olsa sənə deyər yol azan,
Günahkartək yanaşmağa gəlmisən,
Bilirəm ki, barışmağa gəlmisən.

Biləmmədik ömrümüzün sirrini,
Nə mən bildim, nə də sən öz yerini.
Xoşbəxt etdik sən də, mən də birini.
Mənə çox sirr danışmağa gəlmisən,
Bilirəm ki, barışmağa gəlmisən.

***27 sentyabr, 1997***

## QAYITMA BİR DAHA BİZ KEÇƏN YERƏ

Qayıtma bir daha biz keçən yerə,
Demə ki, o yerlər unudub bizi.
Eşqim səpələnib çiçəkliklərə,
O gecə açanda ürəyimizi.

Cığır sinəsində dörd ayaq izi,
Lal sanma bu yerdə torpağı, daşı.
Sənin dodağından qopan hər sözü,
Saxlar çiçək-çiçək çəmən yaddaşı.

Gəlsən, ayaq bassan, həmin yollara,
Görərsən vüsala ümid odlanıb.
Demə ki, uymuşam mən xəyallara,
Mənim ürəyimə damıb, düz damıb.

...Bir özgə məhəbbət qəlbində yaşar,
Heç məhəl qoymazsan yağışa, qara,
Bir şirin söhbətə başın qarışar,
Özündən də xəbərsiz gələrsən ora.

Ağlayar səmada bir cəngə bulud,
Könülsüz-könülsüz məni anarsan.
Təzə məhəbbətin yad görünər, yad,
Kim isə «gəl» deyər, sən dayanarsan.

Bir yad səs duyular pıçıltılarda,
Heyrətdən axan çay donar, dayanar.
Səsimiz duyular xışıltılarda,
Yarpaqlar sapsarı rəngə boyanar.

Əlini əlində isindirən kəs,
Yarpağın dilini duyandı bəlkə?
Ümidi, gümanı dağıdan bir hiss,
Onun ürəyində oyandı bəlkə.

Sanarsan bu yerin gülü, çiçəyi,
Məndən danışacaq bircə əsimdə.
Bura ümid dolu gələn ürəyin,
Sıxılar şübhələr məngənəsində.

Çəkinə-çəkinə baxarsan yana,
Üz tutub qaçarsan utandığından.
Birinin könlü də düşər hicrana,
Düşər qayalara səs dodağından.

Onun yuxusuna bu anlar gələr,
Hər gecə bu yerə yollanar, axı.
Elə bil dünyanı ona verərlər,
Mənimtək görəndə sənli bir yuxu.

Qayıtma bir daha biz keçən yerə,
Xatirəm qəlbində düzülər o gün.
Kimsə duyar bunu, bəhanələrə,
Bir daha yer qalmaz açılar düyün,
Amandır, qayıtma biz keçən yerə,
Əllərin əllərdən üzülər o gün.

*21 mart, 1976*

## İKİ QATAR

Ürəyin sözü var, niyə susur dil? –
Mən nədən başlayım oxşasın səni.
Təkcə minəcəyim bu qatar deyil,
Sevgi qatarı da gözləyir məni.

Qatar fit verəntək güləcək hicran,
Yenə üzüləcək əlindən əlim.
Bu qatara bilet adi kağızdan,
Sevgi qatarına?..
Bilmirəm, gülüm!

Susmayaq qəm olsun qoy çilik-çilik,
Qəlbin sevdasını dil ilə açaq.
Bir vüsallıq yola yeddi hərflik,
Sözüm mənim üçün bilet olacaq.

Vağzal səkisində durub adamlar,
Təkərlər qəlbimtək indi vuracaq.
Bizi ayırsa da bu gün bu qatar,
İkinci qatarsa qovuşduracaq.

***1974***

## AY QARA SAÇ QIZ
***Ömür-gün yoldaşım Yaqut üçün***

O güllü pəncərə, o doğma küçə...
Olub keçənləri unudaq necə?
Yollara, izlərə baxıb gizlicə
Nurunu səpirdi Ay qara saç qız.

O aylı gecələr daha yuxulu,
Arzular deyəsən bizi unudur.
Qara saçımızı yağışlar yudu.
Ağardı, ağardı, ay qara saç qız.

Atamız, anamız quran toy hanı?
Babamı oynadıb yoran toy hanı?
Həsrətin qəsdinə duran toy hanı?
Tale bizə qurdu toy, qara saç qız.

Saxlaya bilmədi çən, duman ömrü,
Həsrətə, kədərə göz yuman ömrü.
Tanrıdan özünə pay uman ömrü
Elədik illərə pay, qara saç qız.

Nə zaman qocaldı anam, bilmədim,
Yolları bürüdü duman, bilmədim.
Bu yurdun oduna yana bilmədim,
Qoy gedim uzağa, qoy, qara saç qız.

Göyərən arzular döndü xəzələ,
Anama dərd olduq biz billə-bilə.
Dediyim yuxunu axtarır hələ
Doğma yurddan axan çay, qara saç qız.

Bilmədik, kim dedi bizə bəxtəvər,
Qapının ağzını aldı şaxta-qar.
Bize lə bilirdik hələ vaxta var...
İndisə, günləri say, qara saç qız.

## NƏYİMİ SEVİRDİN, AY QARA SAÇLI

Arzular, ümidlər uzaq bir ada,
Çatmaz bu adaya daha səs, səda.
Olanlar bir yana, heç yuxuna da
Gəlməzdi belə gün, ay qara saçlı,
Nəyimi sevirdin, ay qara saçlı?

Sən dərdin biləni, mənə qara-qabaq,
Sükutun əlindən de, hara qaçaq?
Bu daşlı yollara sən məndən qabaq
Yüyürdün, yüyürdün, ay qara saçlı,
Nəyimi sevirdin, ay qara saçlı?

Yolların günahı sıxar qəlbimi,
Yollar bizdən sonra aldadar kimi?
Üzünü yol azan gəmilər kimi
Dumana çevirdin, ay qara saçlı,
Nəyimi sevirdin, ay qara saçlı?

Var imiş arzunun daşa dönməyi,
Bu ömrün, bu günün qışa dönməyi,
Gözündə gümanın yaşa dönməyi.
Yuxudu toy-düyün, ay qara saçlı,
Nəyimi sevirdin, ay qara saçlı?

Ot basan cığırım, izim ki yoxdu,
Odum var, kül olan közüm ki yoxdu.
Gülüşə bürünən üzüm ki, yoxdu,
Bilirdin, bilirdin, ay qara saçlı,
Nəyimi sevirdin, ay qara saçlı?

## NƏ İSTƏYİR

Hələ yollar uzaqdısa,
Bu yollara qar yağdısa,
Doğma ocaq soyuqdusa,
Şaxta-ayaz nə istəyir?

Yaşıl bahar bizdən uzaq,
Ha uzanan yola çıxaq...
İnanmırsan, saçıma bax, -
Daha payız nə istəyir?

Şirin yuxu – ayım, ilim,
Arzu – uzaq, ilim-ilim.
Ürəyim üstədi əlim,
Qara saç qız nə istəyir?

Sən yurd oldun aha, ürək,
Kin saxlama daha, ürək.
Göz yum bu günaha, ürək,
Bir şer yaz «nə istəyir?».

## YADINA GƏLİRMİ

Yadına gəlirmi o gün? –
Xoş nəğməydi bu ömür-gün.
Duyub bunu, sən öyündün, -
Yandım baxışının altda.

Ay ötüşdü, il ötüşdü,
Gözlədiyim yaz yetişdi.

Göyün yaylığı sürüşdü,
Qaldıq yağışının altda.

Nə biləydik belə gün var,
Açılmayan bir düyün var.
Günəşlə yuyulan yollar
Qala göz yaşının altda.

Bu yazı belə bilməzdim, -
Buludları əlçim-əlçim.
Yoldan, izdən necə keçim? –
Dərd bitir daşının altda.



## İKİMİZ

***Ömür-gün yoldaşıma***

Ömür adlı çəmənimiz saraldı...
Bu çəməndə nə itirdik, nə qaldı?
Dərd çəkirdim anam yaman qocaldı,
Gəlib düşdük bu kəməndə ikimiz.

İllər ötdü köhlənini çaparaq,
Gəlməmişdik xatirələr aparaq.
İndi şirin yuxularda taparıq
Özümüzü bu çəməndə ikimiz.

Bir də gördük göyün üzü qarışdı,
Üzümüzdə göz yaşıdı, yağışdı?
Sarı otlar əlimizə dolaşdı
Arzulardan əl çəkəndə ikimiz.

Ömür gedir, bir azdan yaş əllidi...
Dərd çəkənə çoxu deyir dəlidi.
Yolumuz da, izimiz də bəllidi,
Yol azmadıq duman-çəndə ikimiz.

Heç demədik gəlib keçər həyat da,
Ömürdəndi keçən gün də, saat da...
Afaq çəkmir gözlərini saatdan
İndi evə gecikəndə ikimiz.

*1999*



## ONSUZ DA SƏN MƏNİ TAPMAYACAQSAN

Mənə inanmırdın, mən deyən oldu,
Yollar duman döyən, çən döyən oldu.
Dönmədin, yollar da «dön» deyən oldu,
Onsuz da sən məni tapmayacaqsan.

Sənə yad kimidir doğma şəhər də,
Ürəyin sıxılır bu küçələrdə.
Məni gəzəcəksən axşam, səhər də,
Onsuz da sən məni tapmayacaqsan.

Baxan yox, neyləsin yazıq pəncərə,
Şaxtada, ayazda açıq pəncərə.
Sənə acıq verir, acıq pəncərə...
Onsuz da sən məni tapmayacaqsan.

Xatirəm ömrünə yazılı qalıb,
Ürəyin gümandan asılı qalıb.
Çiçəklər kollara qısılı qalıb, -
Onsuz da sən məni tapmayacaqsan.

Kimə deyəcəksən bu dərdi-səri? –
Daha gəlin köçüb rəfiqələrin.
Beləcə oturub açsan səhəri,
Onsuz da sən məni tapmayacaqsan.

Bu necə taledi, bu necə yazı?
Çatıb ömrümüzün sarı payızı.
Döysən, qapımızı açacaq qızım,
Onsuz da sən məni tapmayacaqsan.

## BİZİM YERLƏRİN PAYIZI

Mən piyada, güman atlı...
Sevincimə kədər qatdı, -
Bir də gördüm gəlib çatdı
Bizim yerlərin payızı.

Payız verər toydan soraq,
Bu payızsa toydan uzaq.
Göz yaşları yarpaq-yarpaq...
Bizim yerlərin payızı.

Gözlərimi yaş elədi,
Günü, ayı qış elədi.
Səni qəlbi daş elədi
Bizm yerlərin payızı.

Bu gölün aynası hanı,
Aynada sonası hanı,
Əllərin xınası hanı,
Bizim yerlərin payızı?

Dərd bilməyən dərdi bilməz,
Saçlarını daha hörməz.
İtiribdi, səni görməz
Bizim yerlərin payızı.

*1996*

## ÖMÜR BURA QƏDƏR İMİŞ...

Dayan, əzmə bu çəməni,
Yollar bura qədər imiş.
Unut məni, bilim ki, qoy,
Ömür hara qədər imiş.

Qucaqlayır duman yeri,
Bacarırsan, güman, yeri!
Bilmədi bəlkə dan yeri
Axtardığım səhər imiş.

Nə axtardım, nə tapmışam,
«Nə yoğurdum, nə yapmışam?!»
İnanmaza inanmışam...
Çox şey gəldi-gedər imiş.

Bil ki, yazılıb günaha, -
Dərd gedir üzü sabaha.
Ürəyimdən çıx get daha,
Qalmağın bir qəhər imiş.

Bir ulduzlu gecə üçün
Gün gözlədim, olmadı çin.
Bu ürəkdən gəlib keçən
O ürəkçün hədər imiş.

Dayan, əzmə bu çəməni,
Yollar bura qədər imiş.
Unut məni, bilim ki, qoy
Ömür hara qədər imiş.

## BU QIŞIN ÖMRÜ DƏ YAMAN UZANDI

Yağıbdı yollara dizəcən qarı, -
Arzu yollarından bizəcən qarı.
Əlləri ümiddən üzəcək qarı,
Bu qışın ömrü də yaman uzandı.

Gecəli, gündüzlü şaxta, sazaqdı,
Gözləri yol çəkir ümid nə vaxtdı.
Arzu yaxındısa, güman uzaqdı, -
Bu qışın ömrü də yaman uzandı.

Qarışıq düşübdü dərəsi, düzü,
Buzla örpəklənib suların üzü.
Yolları görünmür apara bizi,
Bu qışın ömrü də yaman uzandı.

Yer üzü yuxusuz, torpaq oyaqdı,
Oduna yandığım ocaq soyuqdu...
Bir qara saçlının xəbəri yoxdu
Bu qışın ömrü də yaman uzandı.

Bu qarın altında daş çiçəkləyir,
Bu ürək illərə «qayıt, dön» deyir.
Saçıma düşən qar əriyən deyil, -
Bu qışın ömrü də yaman uzandı.

Soyuq adamların soyuq baxışı
Üzümə ələyir soyuq yağışı.
Deyəsən ömrümüz gətirib qışı...
Bu qışın ömrü də yaman uzandı.

## AYI, İLİ VERDİM SƏNƏ

Daşları dindirdim, dindi, -
Yadsan bu ocağa indi.
Bilmədin kül olan kimdi?!
O ocaq soyub, gedirəm.

Yol elədim hədər-hədər,
Sonunda boylandı qəhər,
Göydə son ulduza qədər
Nə varsa... sayıb gedirəm.

Bölünsə də ömür yarı,
Qoy xəbərin olsun barı, -
Sən qurduğun dörd divarı
Uçurub, oyub gedirəm.

Ümidlər büründü çənə,
Gəzmə nahaqq, dedim sənə.
Ayı, ili verdim sənə, -
Gəl apar, qoyub gedirəm.

## YAĞAN YAĞIŞ YOLLARINI DÖYDÜMÜ

***Ömür-gün yoldaşım Yaquta.***

Enən duman saçlarına dəydimi?
Yağan yağış yollarını döydümü?
Yaşıl çəmən saralıbmı, göydümü? –
Bu yuxudu, ya nağıldı, bilmirəm.

Kim qınadı o qurulan düyünü,
O günlərin nə izi var, nə ünü.
Bir arzuya o qurulan körpünü,
Sel apardı, ya dağıldı, bilmirəm.

O sevincin uçurlarmış qalası, -
Xatirələr qəniməttək qalası!
Gözə gəldi ömür-günün bu yazı, -
Arxamızca kim baxırdı, bilmirəm.

Boylanırdı gün sağımda, solumda,
Yapışmışdı göy biçənək qolumdan.
Kim döndərdi ümidləri yolundan,
Qaya dindi, dağ çağırdı, bilmirəm.

Qısqandılar bu ocağın közünə,
Kül sovuran bu küləyin sözü nə?
Elə dəydi qış sazağı üzümə, -
Torpaq üstə nə yağırdı, bilmirəm.

## GÖRDÜM YAŞAMAĞIN YOLU BAŞQADI

Qalan izlərə də qısqancam belə, -
Keçdiyim yolları yuyub gedirəm.
Yalvarış, təbəssüm aldatmaz məni,
Daha gözlərimi yumub gedirəm.

Ürəyim üz tutub gedən yolların
Yüyürdüm... son ucu dağa sığındı.
Beləcə, həsrətin ağırlığından
Aramızda qalan körpü də sındı.

«Ölərəm uğrunda» dediyim yalan!..
Hələlik bu ömür gərəkdir mənə.
Gözümdən yollara ələnən yağış
Yaşayıb bilim ki, nə əkdi mənə?!

Daha mənim ilə oynamaq olmaz!
Acıdı o şirin xatirələr də.
...Nə çoxdu yaşayan, nə çoxdu «ölən»
O qoyub getdiyim böyük şəhərdə.

Sən məndən yalvarış, filan gözləmə,
Gördüm yaşamağın yolu başqadı.
Qəlbimdən ən ağır daştək asılan
Bir acı həsrətin, yeri başdadı.

Qalan izlərə də qısqancam belə, -
Keçdiyim yolları yuyub gedirəm.
O gülüş, təbəssüm aldatmaz məni,
Daha gözlərimi yumub gedirəm.

## GÖRÜNMƏZ GÜMANA UYMAQ ÇƏTİNDİR

Gözümün önündə ötüşdü gecə, -
Gümansız günləri keçirdim necə?!
İslandı bənizim səndən gizlicə,
Yuxusuz gözümü sildim, yaşadım.

Vədəsiz yetişən qışı qınadım,
Yolumun üstündə daşı qınadım.
Saçımı ağardan yaşı qınadım, -
Ömrümü ömrünlə böldüm, yaşadım.

Görünməz gümana uymaq çətindi,
Gözləri yollarda qoymaq çətindi,
Gələsi kədəri duymaq çətindi...
Sənin ürəyini bildim, yaşadım.

Tapıldı yolunu azanlar belə,
Haqq sözü yüz yerə yozanlar belə,
Ayağın altını qazanlar belə,
Gəldim harayına, gəldim, yaşadım.

Dağ aşdım... nə dedim, nə də danışdım,
Ağrına, acına gəlib qarışdım,
Sənsiz yuxuları çaya danışdım, -
Yadların yanında güldüm, yaşadım.
Ömrümü ömrünlə böldüm, yaşadım.

# TANIMAZ BU ŞƏHƏR SƏNİ

Qayıtma demişdim sənə!
Daha uzaq, yad ol mənə...
Küləyi dəydi üzünə, -
Şəhər səni tanıdımı?

Ay üzündə yağış olan,
Yolumda qaya, daş olan,
Mənlə bağrıbadaş olan,
Kədər səni tanıdımı?

Gördünmü tanış kimsəni? –
Dəyişib gəlib-gedəni.
Bu gecə həmin gecəmi?..
Səhər səni tanıdımı?

Tanımaz bu şəhər səni,
Tanımaz.
Uzaqdan gələn qonağı kimi.
Əriyən deyilmiş
Bu küçələrin kini.
Mən də dəyişmişəm.
Dəyişmişəm, -
Daha gözlərimi yuman deyiləm,
Daşların önündə –
Gedib əyiləm,
Elə yummuşam ovcumu,
Əllərim
Açılmaz gümana bir də,
Düşəsi deyiləm
Dumana bir də.
Qayıtma demişdim!

İlləri sürməyə
Ömür qalmayıb.
Qalan günlərin
Bəlkə də
Barmaqla
Sayılar sayı...
Şəhər səni tanıdımı?..
Tanımaz bu şəhər səni.
Küçə-küçə,
Səki-səki
Kədər səni tanıdımı?



## MƏNİ KÖVRƏLTMƏZ DAHA

Yollar olub keçilməz,
Dağları var kiçilməz,
Gələn-gedən seçilməz,
Məni kövrəltməz daha.

Pəncərəni döyür qar,
Çöldə soyuq, şaxta var?!
Qara bürünən yollar
Məni kövrəltməz daha.

Əlin gümandan uzaq,
Ol günahsız, üzüağ.
Günləri say bu sayaq...
Məni kövrəltməz daha.

Yağsa ağ yağış, yağsa,
Getdiyin yollar haqsa...

Dəniz gözümə baxsa,
Məni kövrəltməz daha.

Limansız sahildəyəm,
Sanma qapını döyəm.
Döyməsəm, ya da döysəm,
Məni kövrəltməz daha.

## SÖZ VERMİŞDİM...

Söz vermişdim: -
Sizin küçədən
Keçməyəcəyəm daha!
Göydəki ulduzları səhərədək
Ayırıb
Seçməyəcəyəm daha.
Üstümə
Ələnən yağış
Kövrəltməyəcək məni.
Söz vermişdim, -
Yuxu biləcəyəm olub-ötəni...
Qışın soyuğu
Bir də
İliyimə işləməyəcək, -
Nə ayağıma
Daş dəyəcək,
Nə də
Küləklər
Yolumu döyəcək.
...Söz verdiyimi
nə bilim unudacağam, -
Qayıdanda

Sizin küçədən qayıdacağam.
Yağacaq üstümə
Təzədən qar da, yağış da...
Bir güman girinci qoyacaq məni
bir qəlbi daş da...

## MƏNDƏN XƏBƏRİN OLDUMU

Yadındamı
O axşam?
Sənə zəng eləmişdim...
«- Unut məni, unut hər şeyi» -
Deyib
Asmışdım dəstəyi.
...Dönürdüm evə sarı,
açılmaq istəmirdi
metro stansiyasının
qapıları...
Qatarın səsi
Deşirdi qulaqlarımı.
Hər gün
Endiyim pilləkənlər
Tanımırdı ayaqlarımı...
Ayaqlarım da ağır idi, ağır.
Gedirdim üzü küləyə, -
Çıxmaq istədim küçəyə,
Eskalator da işləmirdi, -
Elə bil mənimlə
Var imiş kini.
Gözlərimin içinə baxırdı
Tavandan
Asılan yazılar – sual kimi.

...O gecə pəncərəmi
səhərədək külək döydü.
Çaşıb qonşu Muradın
Qapısını döydüyüm sayaq.
Doğma ev də
Üzümə ağ idi, ağ!
Yadındamı o axşam?
Sənə zəng eləmişdim, -
«Unut məni, unut hər şeyi» -
deyib
asmışdım dəstəyi.
Doğru de,
Gözlərin doldumu?
Eh... məndən xəbərin oldumu?

## NƏ YAMAN ÇƏTİNMİŞ MƏNİ TANIMAQ

Mənə dəyən sazaq batmadı belə,
Əllərim bahara çatmadı belə,
Bu vəfasız ömrü atmadım belə,
Sən məni tanıya bilmədin hələ.

Adam yaxında da olurmuş uzaq,
Günahkar mənəmsə, kimdi üzüağ?
Nə yaman çətinmiş məni tanımaq?!
Sən məni tanıya bilmədin hələ.

Seçildi sevinci bölünən, bölən,
Bir güman uğrunda ölməyən, ölən,
Özgələr, yadlarmış qədrimi bilən,
Sən məni tanıya bilmədin hələ.

Göylər buludunu sıxdı üzümə,
Yağdı ağ yağışlar, yağdı üzümə.
Ulduzlar tanış tək baxdı üzümə,
Sən məni tanıya bilmədin hələ.

Günləri köksümdə daşımağım var,
Olub-olanlara qarışmağım var.
Küsmək əlimdəsə, barışmağım var...
Səni məni tanıya bilmədin hələ.

Dinmədim, ürəyi daşdı dedilər,
Dindim, ürəyini açdı dedilər.
Kövrəldim, gözləri yaşdı dedilər, -
Sən məni tanıya bilmədin hələ.

Duymaz, duya bilən baş da tanındı,
Ağac da tanındı, daş da tanındı.
Günlərin gözündə yaş da tanındı,
Sən məni tanıya bilmədin hələ.

Görünməzə dönüb bu ağrı-acım,
Bu bəxtə təzədən bəlkə əl açım?
Qaldı uzaqlarda o qara saçım,
Sən məni tanıya bilmədin hələ.

Su axdı qoşulub su ilə axdım,
Buludlar ağladı, gözümü sıxdım.
Bu mənim ömürüm, bu mənim baxtım, -
Sən məni tanıya bilmədin hələ.

Daha atama da çatmır əllərim,
Anamın gününə kəsildim qənim.
Susdum, sarışın qız duymasın qəmi,
Sən məni tanıya bilmədin hələ.

***2002***

## APAR ŞƏKLİNİ

Dolan, olanlardan uzaqda dolan! –
Unudub hər şeyi, bu ev, bu dalan...
Görüb tanımazsan divarda qalan
Sənin gözlərinə baxar şəklini.

Günləri yuxudur ötən baharın,
Göylər başımıza ələyir qarı.
Bəlkə də utanar gümüş saçların,
O qara saçlının qopar şəklini.

Tərsinə fırlanmaz ötüşən zaman,
Sovrulan kül kimi tapılmaz güman.
Şəklin asılıbmı sizin divardan?
Apar asmaq üçün, apar şəklini.

## MƏN SƏNİN ADINI YOLLARA, DAŞLARA, DAĞLARA YAZAYDIM GƏRƏK

Mən sənin adını
Yollara yazmadım, -
Yağışlar yuya,
Baxam həsrət-həsrət
Sellənən suya...
Mən sənin adını
Daşlara
Yazmadım, -
Daşlar göyərə,
Sinəm göynəyə, -
Sına inadım.

Mən sənin adını
Dağlara
Yazmadım, -
Yağa o dağlara
Qar qalaq-qalaq,
Ola sənin üçün
Keçilməz sınaq.
Mən sənin adını
Ürəyimə yazdım,
Yazdım!.. Yazdım!..
Süründü arxanca
Ürəyim.
Gecəli, gündüzlü
Süründü... süründü...
Gümansa
Əlçatmaz göründü.
İndi hansı yolla
Qayıdaq geri?
Ürək, gəl yeri! –
Qınama bu Göyü, Yeri.
Eh! Ürək!.. Ürək!..
Məni aldatdı ürək.
...Mən sənin adını
Yollara,
Daşlara,
Dağlara yazaydım gərək!

## HEÇ BİLMƏDİK YAĞAN QARDI, YAĞIŞDI...

Bürünmüşdü ömür haya-haraya,
Nə qəm vardı, gəlib girə araya.
Əlimizi ha uzadaq, arayaq,
Muraz qaldı o çağında bu evin.

Bu ev bizə şirin nağıl danışdı, -
Heç bilmədik yağan qardı, yağışdı?!
Günlər ötdü... başımızsa qarışdı
Xoş sözlərə qucağında bu evin.

Nə biləydik gələn günün dərdi var,
Keçilməzdi, aşmaq olmur dərd-divar.
Üzümüzə ha gərilir dörd divar,
Bir qapı yox bucağında bu evin.

Pəncərəni günəş öpməz təzədən,
Günlər, aylar elə ötməz təzədən.
Bitən çiçək daha bitməz təzədən
Nə solunda, nə sağında bu evin.

Uzaq oldu işıq, səhər... nə varsa,
Qismət-dərddən yaşa qədər, nə varsa.
Külə döndü daşa qədər nə varsa,
Kim yanacaq ocağında bu evin?

## YALANÇI BAHARDAN ƏL ÇƏKİB GEDƏK

Arzunun yolları düyün, tapmaca...
Bu sirri, düyünü indi kim aça?!
De, kimə qalacaq bu həyət-baca?
Belə suallardan əl çəkib gedək.

Qar altda üşüdük, ya donduq, bəsdi,
Ağrıya-acıya göz yumduq, bəsdi.
Taledən, ömürdən pay umduq, bəsdi,
Nahaq intizardan əl çəkib gedək.

Duyduq – dünyanın da iki üzü var, -
Qara saçımızda qarın izi var.
Qışın da deyəsən, bizdə gözü var,
Daha bu yollardan əl çəkib gedək.

Bu evin-eşiyin hanı yuxusu, -
Günlərin, ayların dərdsə çoxusu...
Duymayan nə bilir ürək ağrısı,
Bu azar-bezardan əl çəkib gedək.

Buluddan qurulub günəşin çətri,
Gülün nəfəsi yox, çiçəyin ətri.
Ötürmə dediyim beş-altı sətri,
Yalançı bahardan əl çəkib gedək.

# UZAQ YOLLAR QARA XƏTTDİ

Uzaq yollar qara xəttdi,
Çəkilib yazı yerinə.
Bir-iki şeir yazmışdım,
Qoymadın yazı yerinə.

Səndən uzaq olan kəslər
Gəlib isinir istimə.
Səni uzağa göndərdim,
Qayıdıb gəldin üstümə.

Yağış altda qala-qala
Qara xətt sola bilmədi...
Hamı kimi heç olmasa,
Şahidim ola bilmədin.

Yolçuyam, bu sevda yüküm, -
Qəddimi əydi, gedirəm!
Sən dəymədin ki... qəlbimə
Öz sevdam dəydi, gedirəm.

Uzaq yollar qara xəttdi,
Çəkildi yazı yerinə!
Bir-iki şeir yazmışdım,
Qoymadın yazı yerinə.

## GƏLMƏ

Gəlmə, olanları unudum... çaşıb
Nöqtənin yerinə vergül qoyuram.
Bu gün ürəyimdə ölən sevginin
Məzarı üstünə əklil qoyuram.

Sənə doğma yollar özgələşibdi,
Üstündə sübhədək dayanmısanmı?
Ulduz saya-saya, aya baxmaqla
Gecənin rənginə boyanmısanmı?

Sular saxlasa da şəklini bu gün,
Bizimsə divarda boş mismar qalıb.
Bu bahar qüzeydə nə var... əridi,
Hələ ürəyində şaxta-qar qalıb.

Ömrü yelə verdik, arzu-murazın
Yolları üstündən qara xətt çəkək.
Sənin yolun başqa, mənimki başqa,
Gəlmə, aramızdan daha sədd çəkək.

Dağ üstdən, daş üstdən yol eləmişəm,
Bax belə sevdaya yol tapmaq çətin.
Gündüzü çevirdin qaranlıqlara,
Necə qayıdasan üzü ağ... çətin.

Gəlmə, olanları unudum... çaşıb
Nöqtənin yerinə vergül qoyuram.
Bu gün ürəyimdə ölən sevginin
Məzarı üstünə əklil qoyuram.

## AYIM İMİŞ, İLİM İMİŞ GECƏLƏR

Bu ömür gün yazılıbmış beləmi?
Öyrəşibsən sən gündüzə, eləmi?
Unut mənim sənə çatmaz əlimi,
Ulduz saymaq ölüm imiş gecələr.

Aylar keçir, illər ötür, yol yarı...
Kimsə görməz bu uzanan yolları.
Göz önündə görməz edən yolları
Zülmət deyil, külüm imiş gecələr.

Gün aradıq - çiçək olan, yaz olan,
Ürək oldu bir gümandan asılan.
Bu taleyə, bu qismətə yazılan
Ayım imiş, ilim imiş gecələr.

Sən duymadın bu dadını həsrətin;
Nə biləsən ya asandı, ya çətin.
Şirin yuxu gözlərinin qisməti,
Mənim üçün zülüm imiş gecələr.

Ay ürəyim, yaxın bildin sən kimi?!
Apaydındı olub-olan gün kimi.
Sən günahsız, mən günahkar.. səhvimi
Özüm çəkən günüm imiş gecələr.

## VAXTIM HARDADI

Mənə olan oldu öz ucbatımdan, -
Özüm bilə-bilə düşdüm atımdan.
Sevinc adlı nə var çıxıb yadımdan,
Gəzəsi deyiləm bəxtim hardadı?!

Dağlar da, daşlar da batıb günaha, -
O qədər qar yağıb tanınmaz daha.
Mən ki, öyünürdüm padşaham, şaham,
Soruşan olmadı taxtım hardadı.

Yuxu bil, nağıl bil olub-keçəni,
Pozma yuxusunu rahat gecənin.
Qayıtsan, indi kim qarşılar səni,
Qarlı dağ aşıram, vaxtım hardadı.

***2001***

## ÜRƏK ƏHDƏ KƏNİZDİ

Yüksəkdə tutdun kimi,
Unudubsanmı kini?
Axtarma öz şəklini,
Gözümdə yaşlar yuyub.

Günahlar ulduz sanı,
Tanı, özünü tanı.
O cığır, o iz hanı?
Yuyub, yağışlar yuyub.

Dəniz həmin dənizdi...
Ürək əhdə kənizdi.
Bax, yollar nə təmizdi,
Yuyub, baxışlar yuyub.

Daha günlər sac deyil,
Qayıtmaq əlac deyil.
Saçlarım o saç deyil,
Yuyub, yağan qar yuyub...
Bax, yollar nə təmizdi,
Yuyub, baxışlar yuyub.



## SƏNİ SEVMƏYİM DƏ ÜZÜMƏ AĞDIR

Bu külək əsməyə başlayıb belə
Nə varsa, yerindən qopacaqdır.
Hələ aramızda qalan güman var,
Onu da qoparıb aparacaqdır.

Buludlar çəkilib yaman tarıma,
Ağ yağış ələnir ağ yollarıma.
Kollar da dolaşır ayaqlarıma,
Səni sevməyim də üzümə ağdır.

Üzünə demədim, sındın sınaqda, -
Olanlar yuxutək qaldı uzaqda.
Kimə gərək imiş belə sınaq da?
Eh! Sən nə biləsən günlər bir dağdır, -
Səni sevməyim də üzümə ağdır.

## GÖZ YUMMARAM GÜNAHA

Daha dəyişmişəm mən, -
Yuxu oldu ömür-gün...
Elə bilmə yol-izdən
Baxışımı asıram.

Nə səni səsləyirəm,
Nə səni izləyirəm.
Nə bir zəng gözləyirəm,
Nə bir şeir yazıram.

Sözə baxmıram daha,
Göz yummuram günaha...
Əl yerim var sabaha, -
Öz qəbrimi qazıram...

## BU OCAĞI EŞƏLƏMƏ, ALIŞMAZ

Nələr oldu, bir qisməti döndərən,
Ağ yollara şaxta-qarı göndərən?
Bu ocağı əlləriylə söndürən,
Bu ocağı eşələmə, alışmaz.

İtib gedir yaddaşımdan olanlar, -
Aramızda elə bilmə güman var.
Üzərində yeridiyin o yollar
Sona çatıb, bu yollara qarışmaz.

Elə əsdi soyuq olan bu külək,
Ağac sındı... nə gül qaldı, nə çiçək.
Qiyamətin günündə də bu ürək
Elə sınıb, o ürəklə barışmaz.

# YAMAN KÖVRƏLİRƏM BU SAHİLDƏ MƏN

Yadıma ən yaxın dost-tanış düşür,
Qumların üstünə düşür, yaş düşür...
Könlümə dünyadan yır-yığış düşür, -
Yaman kövrəlirəm bu sahildə mən.

Qağayı olmağa hanı qüdrətim? –
Suları çaşdırır quşun qeyrəti...
Baxıram... uzaqlıq çətinmiş, çətin,
Yaman kövrəlirəm bu sahildə mən.

Günahı bu sular yuyarmı görən,
Daşları lal-dinməz qoyarmı görən,
Mənim bu günümü duyarmı görən? –
Yaman kövrəlirəm bu sahildə mən.

Qorxuram göy sular soruşa səni,
Tuta yüz suala, sorğuya məni.
Yaza günahıma olub-keçəni...
Yaman kövrəlirəm bu sahildə mən.

Baxıram, bilinmir sonu dənizin,
Dumandan biçilib donu dənizin?
Yağış gözlərinə qonur dənizin,
Yaman kövrəlirəm bu sahildə mən.

Sən ki, bu sahildən uzaqsan, uzaq, -
Baxım bu sulara necə üzü ağ?!
Bu sahilə gəlmək sınaqdı, sınaq! –
Yaman kövrəlirəm bu sahildə mən.

# BU, BELƏ DÜNYADI...

## YALANDAN ŞAHIQ DEYİRİK
*Göyçaylı dostum Lətiflə söhbət*

Sel yuyur solu, sağı da,
Bu dərdi kimlər dağıda?!
Oturmuruq aşağıda,
Sonra qonağıq deyirik.

Tikan bitən yol da bizik,
Kəsdirilən qol da bizik.
Nəfsimizə qul da bizik,
Yalandan şahıq deyirik.

Baxıb gözləri dolanın,
Kimdi başına dolanan?
Özümüz deyən yalanın,
Üzünə ağıq, deyirik.

Qismət də yazmaq bilirik,
Düzü də yozmaq bilirik.
Qəbir də qazmaq bilirik,
Sonda torpağıq deyirik.

Bəxti döndərə-döndərə,
Mərdi endirə-endirə,
İşıq söndürə-söndürə,
Yanan çırağıq deyirik.

İgid kimdi, ərən kimdi,
Qalan kimdi, ölən kimdi?
Qismətini bölən kimdi? –
Hələ uşağıq deyirik.

***2003***

## BU BELƏ DÜNYADI

*Dostum, həkim-rəssam*
*İlyas Əzimova*

Gözümüz yoldadı, qurulmur mizan,
Ələnmir ələkdən yolunu azan.
Bu belə dünyadı, var quyuqazan,
Düşməz bu quyuya bu həkim İlyas.

Yollar, körpülər var, keçən tapılmaz,
Həsrəti əkən var, biçən tapılmaz.
Bu belə dünyadı, içən tapılmaz,
Ha ol susuzlara su, həkim İlyas.

Suların üstünü duman alırsa,
Gəmimiz yol azıb yolda qalırsa,
Dərdi çəkməyimiz günah olursa,
Gedək, - bu «günah»ı yu, həkim İlyas!

Dünyanın işləri dolaşıq düşüb,
Yalanı, doğrusu qarışıq düşüb...
Boşsa dar ağacı, çağır, ay kişi,
Gəlsin ya Əfrahim, ya həkim İlyas.

## YOLUM DÜŞÜB MƏZARLIQDAN

Anama oxşayan dağlar,
Baxar yola ağlar-ağlar.
Bizə çiçəyindən saxlar, -
Susan göz yaşım, hardasan?

Əsir külək sözlü-sözlü,
Baxır çiçək sözlü-sözlü,
Ağrı, ürək, sözlü-sözlü...
Danışan daşım, hardasan?

Dizə çıxan bu qar nədi? –
Bu qış yaman aşıb həddi.
Mənimlə gedən gəlmədi, -
Bacım, qardaşım, hardasan?

Bu yurd həmin yurddu görən? –
Bu doğmadı, yaddı görən?
Varsa, gəlsin atlı görən...
İtən yaddaşım, hardasan?

Bu tərəfdə bir səs yoxdu,
Ot basan yolda iz yoxdu.
Bu quyuda nəfəs yoxdu, -
Ay yol yoldaşım, hardasan?

Çox gözlədim ağara dan,
Məni yola çıxara dan...
Yolum düşüb məzarlıqdan
Bomboz başdaşım, hardasan?

## SAĞOLLAŞAQ

Yolları uçuran qar var, yağış var,
Bir mələk yanında min qəlbidaş var.
Mənimlə dərd adlı bağrıbadaş var,
Sevinc, ver əlini, ver, sağollaşaq.

Umduğum ürəklər daş olub, gedim,
Yol çəkən – o gözlər yaş olub, gedim.
Köçən durnalara qoşulub gedim,
Dumana bürünən Yer, sağollaşaq.

Keçmədik, sulara dayaz dediksə,
Yolları kəsibdi ayaz dediksə,
Uzaqdan-uzağa Araz dediksə,
Uzat əllərini, Kür, sağollaşaq.

Ömrü başdan-başa qış deməmişdik,
Yolçu ol, qayadan aş deməmişdik.
Yeri yağış yuyar, yaş deməmişdik,
Dünya, bu yaylığı sər, sağollaşaq.

Yollar körpüsü yox, qalıb gözləyir,
Göz yuma bilməyən qürub gözləyir.
Dünya dar ağacı qurub gözləyir,
Ömür, köhlənini sür, sağollaşaq.

## GETDİYİM YOLLARA GÖZ DİKMƏ...

Getdiyim yollara göz dikmə, dostum,
Köynəyin ütülü, üstün tərtəmiz.
Mən dəliqanlıyam, üzü qarayam,
Qoy qalsın səninsə üzün tərtəmiz.

Qoy sənə desinlər yaxşı adamdı,
Yer də göstərsinlər yuxarı başda.
Al ilə, qall ilə işin olmasın,
Dövrəndə fırlansın qul-qaravaş da.

Danışıb pis olma, dinmə yaxşı ol,
Üzünü yan elə, çox şeyi görmə.
Hər günüm bir aydır, hər ayım bir il,
Sənsə ömür-günü beləcə sürmə.

Kiminə çox görüb Tanrı bu səbri,
Dözümdə qaya ol, dözümdə daş ol.
«Hə» deyənə «hə» de, «yox» deyənə «yox»,
Nə üzdə kədər ol, nə üzdə yaş ol.

Mən yandım, adıma mərdmi dedilər?
Boğuldum tənələr içində, dostum.
«Kişi»lər dərdini içində çəkər,
Mən çəkə bilmədim içimdə, dostum.

## DAĞ AŞDIM DOST GÖRƏ-GÖRƏ

***«Dost məni görmədi...»***
***Akif Səməd***

Haqq dediyim sözdən ötrü,
Mərd dediyim kəsdən ötrü,
Yaş isladan üzdən ötrü
Dağ aşdım dost görə-görə.

«Baş kəsdilər» gülə-gülə,
Yoldaş oldum bu dərd ilə...
Küləklər sovuran külə
Qarışdım dost görə-görə.

Qəlbidaşmış günlər, aylar,
Ötüşmədi hay-harayla.
Məni sındıran dünyayla,
Barışdım dost görə-görə.

## DAYANAN DEYİLMİŞ YAĞAN BU YAĞIŞ

Qar döydü, sel yudu, yurd bildiyimi,
Çən gəldi, itirdim mərd bildiyimi.
Sevinc bilən oldu dərd bildiyimi...
Çox şeyi bilmək də günahmış demə.

Dərdini çəkənə «gen»di bu torpaq...
Üzümü tutduğum yöndü bu torpaq.
İslanan yaylığa döndü bu torpaq,
Bu yaşı silmək də günahmış demə.

Dayanan deyilmiş yağan bu yağış,
İslana-islana bu günə alış!
Su kəsib yolları qarışbaqarış,
Haraya getmək də günahmış demə.

Ürək duya-duya, göz görə-görə,
Gedib çatmaq olmur doğru, düz yerə.
Bölünür, bölünür ömür yüz yerə,
Qocalıb ölmək də günahmış demə.

## GÜNEYLƏR SAXLAYIR QUZEYTƏK QARI

Deyirdim, ay qardaş, daha nə dərdim,
Dostlarımın sayı ulduz qədərdi.
Nə bilək, dost varmış – qəlbə qəhərdi,
Yalan sözlərə də inanan olduq.

Dostun şah olanı çörəyi bildi,
Sarsılan ürəyi, ürəyi bildi.
Bildi, sinəmizin göynəyi bildi, -
Hər səhər, hər axşam sınanan olduq.

Saldıq bu doğruya, bu haqqa meyli,
Ayıra bilmədik bu düz, bu əyri.
İş-işdən keçəndən sonra nə xeyri,
Günahlar önündə oyanan olduq.

Donub – üşüyənə ocağa döndük,
Sükut bezdirənə qonağa döndük.
Yolu itirənə çırağa döndük,
Söz-sözü çəkəndə qınanan olduq.

Güneylər saxlayır quzeytək qarı,
Yağır üstümüzə dərd yağışları...
Ayıldıq, ötüşən ömür-gün yarı,
Dostların uğrunda ha yanan olduq.

Gəzdik yol uzunu dost deyə-deyə,
Keçilməz sularda döndük körpüyə.
Əlimizdən tutdu keçə bilməyən,
Özümüz yollara boylanan olduq.

## YERİYİRSƏN YOL DAŞ OLUR – YOL AĞI...

Yeriyirsən yol daş olur – yol ağı,
Kim göstərsin bizə bu yol-yolağı?!
Harda qaldı gümanların sorağı? –
Soruşummu, soruşmayım, bilmirəm.

Göy yarpaqlar susuz-susuz qovrulur...
Ay ərənlər, harda qalıb o qürur? –
Yananların külü göyə sovrulur,
Alışımmı, alışmayım, bilmirəm.

Suvarmağa su daşınır xəlbirlə,
Bağrıbadaş olmuşuq bu səbrlə.
Dərdi seçib, bizi əyən ömürlə,
Barışımmı, barışmayım, bilmirəm.

Çiynimizdə qonan mələk qalırmı?
Əllərində, dünya, ələk qalırmı?
Axan sellər yurda gərək olurmu?
Qarışımmı, qarışmayım, bilmirəm.

Biz görmüşük elə dayaq kişilər,
Yurd dərdindən yatmaz, oyaq kişilər.
Ağız güdür arvadsayaq kişilər,
Danışımmı, danışmayım, bilmirəm.

## QARIŞACAQSAN TÜSTÜMƏ...

Nə yeriyirsən üstümə,
Get dağın, daşın üstünə.
Qarışacaqsan tüstümə,
Sənnən çox çəkmişəm, a dərd.

Naşısan, hələ naşısan,
Hansı üzlərin yaşısan?!
Bil, kimin yol-yoldaşısan,
Bil, kimdi sənə nabələd.

Axtar, kim uzaqdı yasa,
Gör kim gedir üzü yaza.
Yiyə duranın olmasa,
Qalıb, yenə qalıbdı mərd.

## KÜLƏK YOL AXTARIR KÜLÜMƏ SARI

Hər günün bir üzü ölümə sarı,
Külək yol axtarır külümə sarı.
Yadlar əl uzadır əlimə sarı,
Məni öz dostlarım yandırır bir az.

Ələnir üzünə şeh Əfrahimin,
Doğması tək gəzir ah Əfrahimi.
Mən ki, şah bilirdim, şah Əfrahimi,
Onu da bu yollar sındırır bir az.

Doğmalar kül gəzir... köz mənim deyil?
Elə bil islanan üz mənim deyil.
Sözüm daşa dəyir, söz mənim deyil?!
Uzağı, özgəni qandırır bir az.

Torpağı isladan yaş da ötəndi,
Üstümə ələnən daş da ötəndi.
Şaxtalı, boranlı qış da ötəndi,
Məni soyuq üzlər dondurur bir az.

***2003***

## BİR-İKİ ŞEİR YAZDIM...

Bir-iki şeir yazdım...
Yazdım, -
Qəbrimi qazdım. –
Qazdılar ayağımın altını,
Yatıb yuxuda da görmədim
Dünyanın atını.

Qaya çıxdı qarşıma,
İtirdim
Ömür-günün
İstəyi-muradını.
Eh... Məndən
Nə ölən olmaz,
Nə də at minən,
Nə də ki, bu ömrün
Qədrini bilən.
...Əl uzatdım açmağa,
Dəmirdənmiş qapılar.
Günləri saya-saya
Dedim bəlkə açılar...
Dilim başıma bəla,
Günüm başıma bəla.
Əl uzatdım dəstəyə
Telefon daşa döndü.
O tərəfdə
Dəstəyi götürən kəs
Nə danışdı, nə dindi...
Ay umduğum adamlar,
Sizi nə gec tanıdım.
Daha nə ürəyimi,
Nə də yiyəlik etmədiyim –
Dilimi qınadım
Bir-iki şeir yazdım...
Yazdım, -
Qəbrimi qazdım.

## ÖLƏN DOSTLUQ

*Bir nəfərlə günahları ucbatından*
*dostluğuma son qoymaq*
*qərarına gəldim.*

O gün
Göyün üzünü
Qara bulud almışdı, -
Yağış yağırdı...
Yollar, cığırlar... hamı
Elə bil
Bizə baxırdı.
Çiynimizdə bir tabut
Dolaşırdıq şəhəri,
Səkibəsəki,
Küçəbəküçə.
Arxamızca
Boylanırdı olub-olan.
Önündə
Mən gedirdim bu tabutun.
Yox idi gözü dolan,
Tabutların
Ən ağırı idi o tabut.
Günlər, aylar, illər
İçindəydi o tabutun
Yağış yağırdı...
Yuyurdu bu şəhəri, -
Yuyurdu səki-səki,
Yuyurdu küçə-küçə.
Yuyurdu ki,
Unudum...
Sellənən yağışıyla
Elə hay-haray saldı

Başımın üstə bulud, -
Dostluğu dəfn etdiyim
Məzarı da unutdum.
Bircə o yadımdadı, -
Tabutların
Ən ağırı idi o tabut.

## ELƏ BİL HEÇ NƏ OLMAMIŞDI

Qəhər boğurdu məni
Bir haqqın
Ucbatından.
Elə bil yıxılmışdım
Göyün
Yeddinci qatından.
Bir dostum gəldi, -
Danışdı
İtəndən, ötəndən,
Olandan, qalandan,
Danışdı...
Lap evinin sirrinə qədər.
Soruşmadı heç, -
Niyə dinmirsən,
Nədir bu qəhər?
Getdi...
Deyim düzünü
Bir qulağımdan alıb
O birisindən ötürdüm
O kişinin hər sözünü.
Bir dostum gəldi,
Üzündən oxunurdu

Çəkdiyim qəhər.
Elə bil hər şeyi
Bilirdi yerbəyer.
Susdu,
Mənim kimi
Nə dindi, nə danışdı.
Unutdum olanları,
Unutdum hər şeyi...
Elə bil heç nə olmamışdı.

## YAXŞILIQ ETDİYİM ADAM

Ağ yolun ömrü az imiş,
Sonu şaxta-ayaz imiş...
Bir üzü tanınmaz imiş,
Yaxşılıq etdiyim adam.

Çörəyimi yeyib getdi,
«Heç yemədim» deyib getdi.
Mən sınmazı əyib getdi,
Yaxşılıq etdiyim adam.

Qəlbi yumşaq gördü məni,
Özümə güldürdü məni.
Öldürdü, öldürdü məni,
Yaxşılıq etdiyim adam.

# ƏLİNİ TUTMAĞA ƏL UMMA MƏNDƏN

Duman-çən içində boğulur adam, -
Bilmirsən doğmayam, yoxsa ki, yadam...
Qayalar içində yol axtarıram,
Sinəmdə ağrıyan ürəkdən ötrü.

Taxt-tacdı, saraydı bu səbr mənə,
Dözürəm, qazılır yüz qəbir mənə.
Yanmağı öyrədb bu ömür mənə,
Qorxuram, kül olaq küləkdən ötrü.

Həsrətdir birisi suya – bir qaşıq,
Bu haqqın önündə qara bir daşıq.
Yüz şeytan əlində qul – qaravaşıq,
Ölürəm bir-iki mələkdən ötrü.

Sulara söyləndi yüz-yüz yuxular, -
Gözlədik doğruya, haqqa yozula.
Körpülər uçurur sellənən sular,
Axmır nə çəməndən, çiçəkdən ötrü.

Azarsan yollarda, dayan, ay gedən! –
Bir soraq da yoxdu işıqgələndən.
Əlini tutmağa əl umma məndən,
Əllərim daş gəzir çörəkdən ötrü.

# HEÇ BİLMƏZDİM...

Su verirsən, səhra tikan bitirir,
Biri bilir, beşi çörək itirir,
Danışırsan, sonu əzab gətirir, -
Bu günahlar çox çətin ki, pozula.

Doğru, düzsə yazılanlar – yerbəyer! –
Payın tapar söz yiyəsi, geyirlər...
Heç bilməzdim, bu yazdığım şeirlər
Səhv kimi, günah kimi yozula.

Dərdi sutək udum-udum içənin,
Ömrü, günü qayalarda keçənin,
Yüz-yüz yoldan bircə yolu seçənin
Ömür boyu gözü yoldan asıla.

...Göz yaşlarım içimdədi, biləsən,
Əlin çatmaz o yaşları siləsən.
Öləndə də, adam kimi öləsən, -
Ya savaba, ya günaha yazıla.

# GÜNƏŞİN ÜZÜNƏ QÜRUB AÇIQDI

Gecəli—gündüzlü küləklər əsir,
Yolçunu yolların şaxtası kəsir
Göz-gözü görməyən duman tələsmir,
Böl ömrü, bir kimsə heç görən deyil.

Çəkilmir göylərin bulud örpəyi,
Görən taparıqmı itən istəyi?

Susuz, yola baxan gülü, çiçəyi
Sellənən yağış da güldürən deyil.

Hər gün ayağımız yüz daşa dəydi,
Sınmayan sınmadı, sınanı əydi...
Baxıb görürsən ki, bəy oğlu bəydi, -
Çəkər dağ yükünü, bildirən deyil.

Günəşin üzünə qürub açıqdı, -
Hər günün, gündüzün sonuna çıxdı.
Adamı öldürən adam nə çoxdu! –
Məni bu əzrail öldürən deyil.



## DAHA BİLDİM NƏSƏN, ÖLÜM

Ömür açılmaz oyundu,
Yaşıl donunu soyundu.
Toyumdu, mənim toyumdu,
Gəlmək üçün bəzən, ölüm.

Arzu dərdsə, nə həvəsdi? –
Belə uzaqlıq əbəsdi.
Tut yaxamdan, daha bəsdi,
Ay uzaqda gəzən ölüm!

İşin yoxdu «işbilən»lə, -
Qılınc altdan əyilənlə.
Haqq gələndə, bilə-bilə,
Yolu, izi kəsən ölüm.

Nə çəkmişik, çəkəmməzsən,
Hər yola göz dikəmməzsən.
Körpü uçub, keçəmməzsən,
Daha bildim nəsən, ölüm.

## KİMİ DİNDİRƏSƏN

Gəl bu dəlini dindirmə,
Nə varsa,
Nə görsə, düz deyəcək.
Sonra da söz yiyəsi
Gəlib qapını döyəcək.

Gəl bu ağıllını dindirmə, -
Ağıllının sözünü
Ələkdən keçirərlər,
«Bu düzdü»,
«Bu yalandı» deyib seçərlər.
Yozarlar yüz yerə, -
Və çox vaxt da
Hər şey bitər...
Kimi dindirəsən
Tanrıya da xoş gedə?

## MƏNDƏN OLMAZ QƏM ELƏYƏN

Dərd üzümüzə ağ oldu,
Peşəmiz inanmaq oldu.
Külə qədər yanmaq oldu,
Kərəmi Kərəm eləyən.

Hanı çölün, çiçək bitən, -
Qar ələdi olub-ötən.
Mən deyiləm, sənsən, Vətən,
Qələmi qələm eləyən.

Birisi umur, ha umur,
Birisi gözünü, yumur.
Göz yaşımı silib-yumur
Bənizimi nəm eləyən.

Özünə inanc tapasan,
Yaxşılıq - qazanc tapasan
Hər qəmə əlac tapasan, -
Məndən olmaz qəm eləyən.

## BU GECƏ BELƏ GECƏDİ

Bu gecə belə gecədi, -
Daş-divarlara
Etməsə də əsər,
Çılpaq budaqları
Döyür küləklər...
Döyəcək səhərə qədər.
Qorxaq uşaqlar kimi
Kolların arasına
Sığınıb qalan
Güllər, çiçəklər
Gözləyir ki,
Bu gecə bitər –
Bu külək ötər...
Sabah güllər
Dərilib
Kiməsə hədiyyə – pay olacaq.
Yaşıl kollarınsa
Gözü dolacaq.
Bunu nə daş-divar biləcək,
Nə də o gül-çiçək

Dərilənədək.
Bu gecə belə gecədi, -
Eh!..
Saat da işləmir,
Heç olmasa
Biləsən saat neçədi –
Gör ömür necədi?!
Bu gecə belə gecədi...

## ŞAİRLƏR ÖLÜMÜN ÜZÜNƏ AĞDI

Gələndə bəxtinə yazılar qəbri,
Gecəli-gündüzlü qazılar qəbri.
Gözləri yollardan asılar qəbrin,
Min il gözləsə də, şairlər sağdı,
Şairlər ölümün üzünə ağdı.

Şeirə əyri, yalan şikarsa, ovsa,
Sevinc əvəzinə dərd haqq-hesabsa,
Ömür möcüzəylə dolu kitabsa,
Şeir yazılmayan gün ağ vərəqdi.
Şairlər ölümün üzünə ağdı.

Şeir namərd üçün şaxtadı, kəsər,
Mərdə dərd aparan küləkdi, əsər.
Şairlər ölümü çıraqla gəzər,
Bu daşlı, kəsəkli yollar uzaqdı,
Şairlər ölümün üzünə ağdı.

Sözüylə qaraldar ağaran saçı,
Anaya oğuldu, qardaşa bacı.

Şairlər padşahdı, şersə tacı,
Sözdən, sətirlərdən qurular taxtı,
Şairlər ölümün üzünə ağdı.

Hamıya isinər, bənzəyən olmaz,
Ərköyün olsa da, küsəyən olmaz.
Bəlası – dilinə «döz» deyən olmaz,
Haqqı axtarsa da, haqdan soraqdı,
Şairlər ölümün üzünə ağdı.

Sözü gözümüzdə yaşa dönməsə, -
Daşlar çiçəkləyən daşa dönməsə,
Bahara, payıza, qışa dönməsə,
Şair də hamıtək demək qonaqdı,
Şairlər ölümün üzünə ağdı.



## ŞAİRLƏR DİLİNƏ YİYƏLİK ETMİR

***Birisi bir şair dostum haqda deyirdi: «O, dilinə yiyəlik etmir. Gərək zamanın nəbzini tutasan».***

Gedirik, arzular, ümidlər sual,
Günaha, gümana bürünüb bu yol.
Ay günahı olan, ehtiyatlı ol,
Şairlər dilinə yiyəlik etmir.

Bilir günahları mələkdən qabaq,
Şairlər dərd yeyir çörəkdən qabaq
Duyan ürəkdisə, ürəkdən qabaq
Şairlər dilinə yiyəlik etmir.

Varsa bu dünyada hələ taxt acı,
Əyriyə şirindir, düzə taxt acı.
Mərdi axtaran yox, mərddən taxt qaçır, -
Şairlər dilinə yiyəlik etmir.

Diliylə özünə qurub tələ də,
Dərisi soyulub bir vaxt Hələbdə
Özü öz qəbrini qazır hələ də,
Şairlər dilinə yiyəlik etmir.

Sən hami deyilsən, dərdi udasan,
Sən həkim deyilsən, nəbz tutasan.
Yaddaşsız deyilsən, dərd unudasan...
Şairlər dilinə yiyəlik etmir.

Nadanlar bilmədi yerini, qardaş
Oxuma hər kəsə şerini, qardaş
Sən dərdə salıbsan birini, qardaş, -
«Şairlər dilinə yiyəlik etmir».

Dünya, əgər haqsan, bu nahaqq nədir? –
Günahkar qalıbdı, günahsız gedir.
Şairlər qəlbinə yiyəlik edir,
Şairlər dilinə yiyəlik etmir.

## DEDİLƏR

Susdum, susdum... dözəmmədim,
Dərdli qaldı, mən qəm yedim.
Nə var ürəyimdə dedim,
Ay başı qallı dedilər.

Əyildi əyilməz işim, -
Yuxuya döndü keçmişim...
Baxdı göz-gözə yüz «kişi», -
Oynayaq yallı, dedilər.

Deyilənə qulaq asdım, -
Yalanı da düzə yozdum.
Oturub şerimi yazdım,
Mənə ağıllı dedilər.

## SELLƏR APARDI

Qınadıq, günahkar bildik Arazı,
Ərimir hələ də yolların buzu.
Yuxuya dönübdü ömrün yarısı,
Aylara bölündü, illər apardı.

Gününə bu ömür, tale acımır
Gözləri yol çəkən qardaş-bacımın.
Oxşaya-oxşaya qara saçımı
Küləklər apardı, yellər apardı.

Aldandıq küləyin sərinliyinə,
Göz yumduq suların dərinliyinə.
İnandıq dillərin şirinliyinə,
İstəyi, muradı dillər apardı.

Babamız başını qoyan torpağı,
Anamız səsini duyan torpağı.
Bizim göz yaşımız yuyan torpağı
Özgələr apardı – ellər apardı.

Biz qurban olmamış boyuna, Vətən,
Bizi də çəkdilər oyuna, Vətən.
Dedik damla olaq suyuna, Vətən,
Qarışdıq sulara, sellər apardı.

## GÖZ YAŞI YUXU OLACAQ

Ay yol gedən, yol haçadı,
Arzu, istək tapmacadı.
Gümanlar əl ağacıdı,
Söykən, səbr elə, səbr elə.

«Mərdlər» namərdə əl açır,
Doğmalar doğmadan qaçır.
Bu evin divarı uçur,
Tikən, səbr elə, səbr elə.

Daşsa ayağıma dəyən,
Tikanmış özünü öyən.
Nə çoxmuş üz tutub deyən:
«- Tikan, səbr elə, səbr elə».

Qoruyan qorudu necə,
Çəpərdən kim idi keçən?
Zəmini biçdilər gecə,
Əkən, səbr elə, səbr elə.

Varı, yoxu gəzir ər-əl, -
Qayıt, bu torpağa əyil.
Özülü sökülən deyil! –
Gələn, səbr elə, səbr elə.

Haqq başı ağır olacaq...
Ağlayan yağı olacaq.
Göz yaşı yuxu olacaq,
Gülən, səbr elə, səbr elə.

Bizsiz açammır səhəri
Bu yurdun kəndi, şəhəri.
Ay bu dərdi, bu kədəri
Bilən, səbr elə, səbr elə.

## AXTARIR



Şerim, ayır dost, düşməni,
Duyanlara çatdır məni...
Üzdə tərifləyir səni,
Arxada nöqsan axtarır.

Barmağını et bal-şəkər,
Sorub yenə deyir zəhər.
Bilir ki, boğacaq qəhər,
Tutmağa saman axtarır.

Ağlasaq, göz yaşı hazır,
Tullamağa daşı hazır.
Bişirib öz aşı hazır,
Tökməyə soğan axtarır.

Ömrü-günü olub yarı,
Dərdi qovur mərdə sarı.
Üz tutub namərdə sarı
Qaçmağa imkan axtarır.

Çox qapılar döyüb qalıb,
Dərd belini əyib qalıb,
Başı daşa dəyib qalıb,
Hələ də güman axtarır.

Unudubdu Allahını,
Çaylar yumaz günahını.
Nə gözləyir sabahını?
İndisə iman axtarır.

## İKİ KİŞİ

Birinin
Abrı-həyası,
Arı vardı.
Kəsdilər-asdılar,
Diriykən
Qəbrini qazdılar.

* * *

Birinin
Varı vardı.
Yalan sözünü də
Doğruya yozdular.
Mədhinə
Şeir də yazdılar.

## VAXTINDA GƏLMƏDİN, ÖLÜM

Ömrü böldüm aya, ilə,
Dərdsə baxır gülə-gülə.
Görə-görə, bilə-bilə
Üzümə gülmədin, ölüm.

Yatdım, girəsən yuxuma,
Qoymadın məni yaxına.
Əlim çatmadı yaxana,
Bildin, ya bilmədin, ölüm?

Mən həmin adam deyiləm,
Çətin ki, sənə əyiləm.
Açmaram qapım döyülə,
Vaxtında gəlmədin, ölüm.

## BİLƏN YOXMU

Biri gözü yaşlı, ürək,
Birisində daşdı ürək...
Bilən yoxmu, öldürəcək
Axırda Allah adamı?

Biri həsrətdən əriyər,
Biri göz yumar əyriyə.
İki yerə, görən, niyə,
Ayırdı Allah adamı?

Gündüzü günəşdən uzaq,
Gecəsi axtarır çıraq.

Ağı qara, qarası ağ, -
Unutdum, Allah, adımı.

Gözlədilər, gəlmədik heç,
Əridilər, bilmədik heç.
Olsa, bəlkə ölmərik heç
Beş-altı Allah adamı.

## YUXUSA...

Bu torpaq haraydan yatan deyilsə,
Dərdin qürubu yox, batan deyilsə,
Əlim harayıma çatan deyilsə,
Beləmi yazmışdın, ay yazı yazan?

Bu bəxtə, qismətə günah yazan biz,
Arzunu havadan, göydən asan biz.
Hər gün özümüzə quyu qazan biz,
Vaxtını itirmə, ay quyu qazan.

Quyunun çölündə hələ əsirik,
Quyunun çölündə ölüm gəzirik.
Quyunun çölündə kəndir kəsirik.
Yol gedir hələ də yolunu azan.

Kəndir kəsənlərə boyun əyən var,
Dinib danışana yağı deyən var.
Gözümüz görənə yuxu deyən var,
Yuxusa, qoy gəlsin yuxumu yozan.

Rast gələ bilmədik yolu bilənə,
Üz tutub yeridik işıqgələnə.

Divlərə yurd imiş işıqgələn də,
Bu yollar uzaqdan göründü asan.

Dərdim günahımın əvəzidisə,
Əlimin özümə qərəzidisə,
El gözü hamıya tərəzidisə,
Tanrım, qurulacaq bəs nə vaxt mizan?

Kəsdik kəndirləri, kəsdik xəlvəti,
Tapmadıq bu yurdda Məlikməmmədi.
Taleyə, ömürə zalım həsrəti
Yazanımız varsa, de, hanı pozan?



## ÖLMƏYƏ ÜZÜN OLA

Yananı yanan kimi,
Yalanı yalan kimi,
Olanı olan kimi
Görməyə gözün ola.

Başını dik tutmağa,
Dərdi unutdurmağa,
Bu anamız torpağa
Əyilən dizin ola.

Yolçu yolun azansa,
Azıb – ömür qazansa,
Belə yaşamaqdansa,
Ölməyə üzün ola.

## YOLLAR

Dünya, ümiddən, gümandan
Əlimi üzdü yolların.
Mərd üçün əyri-üyrüdü.
Namərdə düzdü yolların.

Bir yol seçdi bu ömür-gün, -
Düşübsə də, düyün-düyün.
Kiminə bir, kimi üçün
Bir deyil, yüzdü yolların.

Yuxu oldu ayım, ilim...
Yolların bir ucu ölüm.
Qorxan itdi ilim-ilim,
Kim dedi, bezdi yolların?

Yolçu olduq axşam, səhər...
Yol azanın ömrü hədər.
Olumdan ölümə qədər
Bizimlə gəzdi yolların.

Ömür dediyimiz yarı,
Dedim, gedək haqqa sarı, -
Sinəsinə şaxta-qarı,
Daş-kəsək düzdü yolların.

## SINAĞA ÇƏKİR

*Bir dostumun xatirəsinə*

Bu nə qismət imiş cavan yaşında...
Şəklini kim çəkib bu başdaşında? –
Danışır, dili var qara daşın da,
Qəlbi daş olanı sınağa çəkir.

Uzanır görüşəm, boş qalır əlim, -
Heykələm, donmuşam, söz tutmur dilim.
Tanrının bir ömrə yazdığı ölüm
Doğrunu, yalanı sınağa çəkir.

Sənli xatirəni yumaz yağışlar,
Çətin unudanı tanrı bağışlar.
Baxır başdaşından tanış baxışlar,
Gözləri dolanı sınağa çəkir.

Baxan xatirədir, gözlərin deyil,
Əlimizdə nə var... taleyə əyil.
Vallah, bu nə gediş, nə ölüm deyil,
Bu yurdda qalanı sınağa çəkir.

Doğmanın qədrini bilmədik nahaqq,
Axır yapışacaq yaxamızdan haqq.
Bizdən çox bilirmiş bu qara torpaq,
Saçını yolanı sınağa çəkir.
Şəklini kim çəkib bu başdaşında? –
Danışır, dili var qara daşın da,
Qəlbi daş olanı sınağa çəkir.

## BİLMƏDİ

Fələyin qurduğu oyundan keçdim, -
Daşları uçuran suyundan keçdim.
Ömrün harayından-hayından keçdim,
Doğmalar yaxınam, yadam, bilmədi.

Dumana bürünən nə yoldu görən,
Üstündə nə haray, nə qaldı görən?
O yanan ocaqda nə qaldı görən? –
Baxanlar kül oldum, odam, bilmədi.

Namərd qənşərində kiriyər ölüm,
Gedib uzaqlarda əriyər ölüm.
Bizim üstümüzə yeriyən ölüm
Dərdlə üz-üzəyəm, şadam, bilmədi.

Gələndə sanırdıq behişdi ömür,
Tutub yaxamızdan didişdi ömür.
Mərd üçün dağ aşmaq vərdişdi, ömür,
Nə ölüm, nə də ki, edam bilmədi.

Bu gəliş, bu gediş qismətdi, baxtdı, -
Beləcə yaşamaq nahaqdı, haqdı?
Cismimiz torpaqdan yoğrulan vaxtı
Günlər belə ola, Adəm bilmədi.

## BİR YAN QAYALIQDI, BİR YAN DƏNİZDİ...

Birini mərd bildik, keçdi papaqdan,
Biri candan keçdi, biri torpaqdan.
Dinən də, susan da çıxdı sınaqdan.
Yaxşını ha seçək, xeyiri yoxdu.

Arzular, murazlar gümanda itir,
Başımız üstündən dumandı, ötür.
Bir yandan kəsilir, bir yandan bitir,
Dərd-səri ha biçək, xeyiri yoxdu.

Biri padşahdısa, beşi kənizdi, -
Bir yan qayalıqdı, bir yan dənizdi.
Enişdi, yoxuşdu, cığırdı, izdi...
Ol tikan, ya çiçək, xeyiri yoxdu.

Ulduzsuz gecələr ümidə bənddi...
Görünən alaçıq, yoxsa ki, kənddi?
Ağrıdan-acıdan qurulan bəndi
Keçməyək, ya keçək, xeyiri yoxdu.

Dilimi ya acı, ya bal elədim: -
Çoxu qəlb oxşadı, mən «qal» elədim.
Qalan ömür-günü halal elədim,
Ay ürək, gəl gedək, xeyiri yoxdu.

## YANANDAN ÖTRÜ...

Bu nə hay-həşirdi, nə qalmaqaldı? –
Göy üzünü bulud, yeri çən aldı.
Böldülər, gecələr yaxşıya qaldı,
Gündüz yaranıbmış yamandan ötrü.

Ay hanı, ulduz yox, zülmətdi bu yer,
Unudan nə bilir qeyrətdi bu yer.
Doğmalar içində qürbətdi bu yer
Əriyəndən ötrü, yanandan ötrü.

Böhtandan, yalandan keçib yeridik,
Dərdi udum-udum içib yeridik,
Keçilməz yolları keçib yeridik
Beləmi dövrandan, zamandan ötrü?

Ocaqlar içində qalanan ürək,
İndi o günləri dolan, an, ürək.
Arzu yollarına boylanan ürək
Həsrətdi quruca gümandan ötrü.

Dərdi duymayana baldı bu dünya, -
Dumansız, çiskinsiz yoldu bu dünya.
Şaxtadı, ayazdı, qardı bu dünya
Dinib danışandan, qanandan ötrü.

## BAHARDAN UCAYMIŞ PAYIZIN YERİ

Yad kimi qısqandı ömür-gün mənə,
Açılmaza döndü çox düyün mənə.
Gümana, ümidə əyilim yenə? –
Həsrətə bürünən ev – ocaq oldu.

Bahardan ucaymış payızın yeri,
Qaldı uzaqlarda murazın yeri.
Xəzana bürünüb, indi, gəl, yeri! –
Günlər saat-saat sınanmaq oldu.

Çoxuna acıdım, yüz acı gördüm,
Ömür günə, aya əl açır, gördüm.
Dözməyi hər şeyin əlacı gördüm, -
Bir tərəf dənizsə, bir yan dağ oldu.

Çəmən o çəməndi, deyib öyündüm,
Doğma qapıları döyüb, öyündüm.
Yollar əyilməzi əyib öyündü,
Əlacım özümü qınamaq oldu.

Bilmədik, taleh də inadındadır...
Dünyanı sevməyən yolu başqadır.
Sevinci tapmağın, sonu qəm dadır,
Yazılan yazı da üzə ağ oldu.

Əyriyə əyilən düzü də gördüm,
Nahaqqa üz tutan üzü də gördüm,
Kül olub sovrulan közü də gördüm,
Yanmaq belədisə, nə yanmaq oldu?

Sular görünmədi dumanda, çəndə,
Küləklər əlində sındı yelkən də.
Gözlədik, gəlmədi gələn gəmi də, -
Peşəmiz limanda dayanmaq oldu.

Çiçək, ləçəyində nəm nədir belə?
Ağac, yarpağında qəm nədir belə?
Torpaq, bu kədəri gətirmə dilə, -
Bu nə bağça oldu, bu nə bağ oldu?

...Barı bircə dəfə oxu şerimi, -
Ömrümə kəsilən yağı şerimi.
İtirib uduzduq qismət yerini,
Yolumuz, izimiz qarlı dağ oldu.

Mən belə bilməzdim bu taxtı belə,
Yenə qınamadım bu baxtı belə,
Özümə şah dedim mən bilə-bilə, -
Səhvim – günahlarım bir sınaq oldu.

## ÜZ TUTDUM GÖYLƏRƏ, BULUDU GÖRDÜM

Mənim göz yaşıma ayaq tutan yox,
İslana dizəcən, qala bu yolda.
Bezənlər tapılsa sazaqdan belə,
Qala hisslərimi, qala bu yolda.

Torpağı səslədim, boş yurdu gördüm,
Babamdan qalan tut qurudu, gördüm.
Üz tutdum göylərə, buludu gördüm, -
İşığı tapmazsan qara – bu yolda.

Başımın üstündə sazaqlar əsər...
Bu yurd yiyəsini divarlar gəzər.
Uzatma əlini, şaxtası kəsər,
Batarsan yağışa, qara bu yolda.

Hanı, ağ çiçəyin ləçəyi, hanı?
Yollara göz dikən çiçəyi hanı?
Gümüşsaç anamın gülməyi hanı?
Üz tutub gedəsən hara bu yoldan?

Sonu gör nə imiş bu doğma yurdun, -
Əcəb saray qurdum, əcəb taxt qurdum!
Hay-haraylı ömrü necə unudum? –
İndi gəl arzudan barı bu yoldu.



## ÇIXIB GEDİM UZAQLARA

Bu yurdda düşüb köçhaköç,
Sular dərin, bacarsan keç.
Qış ağlıma gəlməzdi heç,
Gəlib düşdük şaxta-qara.

Bu yollar daşdı, keçmişəm,
Qayadan aşdı, keçmişəm.
Bəlkə yuxudu keçmişim,
Gəlib çıxdıq hardan hara.

Evimdə qonaq olmuşam,
Gülməyə «yasaq» olmuşam.
Yaxında uzaq olmuşam,
Çıxıb gedim uzaqlara.

## DEDİK, BELƏ OLAR

Əlimizdə qardaş payı,
Saydıq günü, saydıq ayı.
Aramızdan Araz çayı
Axdı, dedik, belə olar.

Çəkilməz dumanda qaldıq
Gəmisiz limanda qaldıq.
Arzular gümanda qaldı,
Bəxtdi, dedik, belə olar.

«Dost»u dost tək saya-saya,
Çağrılmamış getdik haya.
Yuxarıdan aşağıya
Baxdı, dedik, belə olar.

## GÜNAHSIZI QANA ÇƏKMƏ

Yol yoxdu daha barışa, -
Ocaq külünə qarışar.
Tanrı ömür verdi... yaşa!
Gəl bu ömrü sona çəkmə.

Ağladıq... görən olmasın,
Bu sirri bilən olmasın.
Öldük ki, ölən olmasın,
Yaxşını yamana çəkmə.

Əyilib qəddi torpağın,
Sərhəddi – səddi torpağın,
Günahı nədi torpağın? –
Günahsızı qana çəkmə.

## MƏN ELƏ BİLİRDİM...

Küləyə verdilər dediklərimi,
Yalana yozdular gördüklərimi.
Tanrı da ha alır verdiklərini,
Mən elə bilirdim şah yerindəyəm.

Külək başım üstə duman gətirir,
Su verdiyim torpaq tikan bitirir.
Məni gəzən ölüm yolu itirir, -
Uzaqda deyiləm, bax, yerimdəyəm.

Qaralma, qaralma, göy üzü belə,
Qaçar uzaqlara kim billə-bilə?!
Başımın üstünə yağ gilə-gilə,
Bulud, gözlərini sıx, yerimdəyəm.

## KAŞ ƏLLƏRİN ÇATMAYAYDI ƏLİMƏ

O gün
Əllərini uzatdın mənə, -
«Sağ ol» da dedim sənə.
Mən səni
Dünyanın ən mərdi bildim.
Qartək
Əriyərmiş hər dərdi, bildim.
Ötdü qarlı günlər,
Yağışlı günlər,
Yol keçdim, dağ aşdım...
Səninlə rastlaşdım,
Üzümə dedin
Elədiyin yaxşılığı.

Üstümə ələnən sözlərin
Mənim üçün
Deyilən ağıydı, ağı.
Duymadın qəlbimdən
Keçəni, -
Səndən danışdığım
Gündüzü, gecəni
Kaş əllərin o gün
Çatmayaydı əlimə.
Ötməz olaydı
O qarlı, yağışlı günlər
Yol gedəydim ölümə!
Qınadım
Özümü dönə-dönə, -
Kaş əllərin
Çatmayaydı heç mənə.

## AXTARMA

Önümdə düz təpələnir,
Su keçirəm, ləpələnir
Yollarıma səpələnir,
Sən uzaqda daş axtarma.

Yanmaq da dönüb müşkülə, -
Kim yanır, kim dönür külə?
Qurular yansa da belə,
Özü yanan yaş axtarma.

Dərdi kim duyandı belə,
Səsə kim oyandı belə?..
Yaşı kim yuyandı belə,
Eh! Silinən yaş axtarma.

## SƏN YAXŞILIĞI ELƏ

«Haqqı baş ağır olar», -
Haqsızlıq nağıl olar,
Düz yollar... axır olar, -
Sən yaxşılığı elə.

Gülə çevrilər tikan,
Düzələr əyri olan.
Dönər yolunu azan,
Sən yaxşılığı elə.

Duymayan yüz qəlbidar
Nə olsun ki, unudar,
Üstümüzdə Tanrı var! –
Sən yaxşılığı elə.

## NAHAQ GÖZLƏRİMDƏN YAŞ GİLƏLƏNDİ...

Sağımda yalançı, solumda satqın,
Dumana büründüm, görmədim, Allah.
Hörmət də, sevgi də – bir alqı-satqı,
Üzümə güldülər... gülmədim, Allah!

Ağıllı, ağılsız başı da gördüm,
Bir kövrək, yüz qəlbidaşı da gördüm.
Gözlərdə yalançı yaşı da gördüm,
Yenə də özümə gəlmədim, Allah.

Yadların yanında var imiş qədrim,
Daşdan yoğrulubmuş, daş imiş səbrim.

Hər səhər, hər axşam qazıldı qəbrim,
Gözüm görə-görə bilmədim, Allah.

Elə özümkülər baxıb sevindi, -
Belə doğmaları indi sev, indi.
Nahaqq gözlərimdən yaş giləlendi,
Nahaqq göz yaşımı silmədim, Allah.

Ürəyim aldandı yalançı himə...
Hər sözü danışdım, söylədim kimə?!
...Ömrümə yazılmış imkanmış demə,
Torpaq aralandı, ölmədim, Allah!



## BU ŞƏHƏR BİZİMÇÜN QƏRİB YER DEYİL

*Göyçaylı dostum Cavanşirin*
*anası Şirmayı xalaya*

Elə ki, doğmalar qəlbimə dəyir,
Deyirəm, ay ürək, get, dosta əyil.
Bu şəhər bizimçün qərib yer deyil,
Dostlar ulduz sayda, Şirmayı xala.

Dost-tanış güləndə, gülürük, sevin,
Bizi səsləsələr gəlirik, sevin,
Yaxşını, yamanı bilirik, sevin,
Belə hay-harayda, Şirmayı xala.

Yer üzündə kürsü, filan... gəzmədik,
Duman olub, yolu, izi kəsmədik.
Ağrılı-acılı gündən küsmədik,
Bəxtə düşən paydı, Şirmayı xala.

Hər söz sala bilməz araya düyün, -
Biz burda, sən isə Göyçayda öyün.
Qəlbim Camal üçün, Cavanşir üçün,
Taxt-tacdı, sarayda Şirmayı xala.

Demə ömür keçir, illər qanadlı,
Dərd bizi tapsa da, bizsə inadlı.
Yurdda bir oğlun var, - Əfrahim adlı
Darıxma Göyçayda, Şirmayı xala.
Bu şəhər bizimçün qərib yer deyil,
Dostlar ulduz sayda, Şirmayı xala.



## YUXU VƏ GERÇƏK

Nə vaxt yuxularıma
Girəcək nar ağacı, -
Çıxacaq cəsədimdən
Çəkdiyim ağrı-acı.

Nə vaxt yuxularıma
Gələcək ürəyimi
Dinləyib qulaq asan.
Ya da inanılası
Bir-iki yaxşı adam.

Çəngəl-bıçaq qoymuşam
Yastığımın altına.
Dünya dəyişə bəlkə, -
Minəm kəhər atıma.

Gedib yuxularımı
Danışam axan suya.
Heyrətdən axa-axa
Yerində dona su da.
Eh... qorxuram sürüşəm,
Boğulub qalam suda.

## MƏNƏMMİ BU GÜZGÜDƏKİ

Döz ağrıma, bu dünyadan
Anam, incimə, incimə.
Bəlkə alın yazısıdı, -
Ala bilmədim dincimi...

Güzgünü yan elə məndən,
Mənəmmi bu güzgüdəki?
Gözüm görən üzüm deyil,
Ürəyimdi üzümdəki.

Günüm külə dönübdüsə,
Mən ömür gəzən deyiləm.
Anam, söz demə heç kimə,
Kimsəni gəzən deyiləm.

Olanlar qurğuşun yükü, -
Çiynimdədi, çəkəm gərək!
Yollarımı kəsə bilməz
Nə qar-yağış, nə də külək.
Bəlkə alın yazısıdı...
Öz çiynimdə çəkəm gərək.

# BU ŞƏHƏR DƏYİŞİB...

Bu şəhər dəyişib, tanımaq olmur, -
Dəyişib evbəev, küçəbəküçə.
Qalıb ulduzları buludlar altda,
Gəzdiyim yollartək uzanıb gecə.

Yaman başqalaşıb vağzalları da, -
Gözləmək adamın özünə qalır.
Axır səkilərdə bulanan sular,
Dupduru sularsa gözümə qalır.

Yaşıl ağacları döyür küləklər,
Küçələr yarpağın köçünə baxır.
Kimi əyri-əyri, kimi lal-dinməz,
Adamın gözünün içinə baxır.

Yağır yağışları hayla-harayla,
Bəlkə də çox şeyi unutmaq üçün.
Yağışı isladan paltarımızı
Gündüzü gəzirik qurutmaq üçün.

Tələsib, evimə çıxıb gəlirəm,
Özgətək boylanır boş qalan yataq.
Çəkmir gözlərini çəkmir üzümdən
Dolan külqabı və tüstülü otaq.

## GÖRDÜYÜMÜ DEDİM, ŞƏHƏR

Dedim, görüm dənizini,
Küçə-küçə bənizini.
Dostlarımın dost üzünü...
Kənddə həsrət yedim, şəhər.

Gəldim, sərdən uzaq olum, -
Nəfəsimi rahat alım.
Demədim ki, azıb qalım,
Dumanında itim, şəhər!

Doğma küçə... doğma o yer...
Yarı sevinc, yarı qəhər, -
Yada düşdü xatirələr, -
Qoy tamaşa edim, şəhər.

Sağı, solu döydü külək,
Doğmalar yad... hara gedək?
Hardasan, kənd, anam İpək?..
Bir az qəribsədim, şəhər.

Dost var ürəyi – qar, gördüm, -
Vəfasızları var, gördüm.
Açılmaz qapılar gördüm,
Rahat burax, gedim, şəhər.

Başqalaşıb döngə, dalan...
Əlçatmazmış burda güman.
Dənizinin üstü duman, -
Görməyəmi gəldim, şəhər?

Yalan işə düzmü deyim? –
Ürəyimə dözmü deyim?
Özgə deyən sözmü deyim? –
Gördüyümü dedim, şəhər.

## İNANMAQ OLMUR

Bilib unuduruq qonağıq, qonaq, -
Bəndə günahından dərd qalaq-qalaq.
O qədər yalana öyrəşib qulaq,
Sözüm düzünə də inanmaq olmur.

Nahaqq haqdan öndə... başdadır yeri,
Bu torpaq üstündə indi qal diri.
Kəsdiyi çörəiy unudur biri,
Adamın yüzünə inanmaq olmur.

Duyana bu dünya sacdı, qovrulur, -
Yanmayan göyərir, yanan kül olur.
Yanırıq – külümüz göyə sovrulur,
Ocağın özünə inanmaq olmur.

# BİZİM QİSMƏTİMİZ
# BELƏ ÖMÜRDÜ

# İŞ YERİMDƏN YOLUNU SALMA

Deyirsən, dünya
Şirindən-şirin.
Sevinci daşır
Bu göyün, yeriin...
Deyirsən, payız da,
Bahar da gözəl,
Yağan yağış da,
Qar da gözəl.
Ayın işığı uzanan
Əldir...
Sənin üçün hər
Şey gözəldir!
...İş yerimdə
Gözəl nə varsa
Çıxır yadımdan.
Nağıla dönür
Hər olub-olan, -
Biri deyir
Ağrıyır ürək.
Biri söyləyir
Keçmir boğazımdan
Yediyim çörək.
Birisi deyir
Yata bilmirəm, -
Necə alışım dərd unutmağa.
Birisi deyir
Dur yoxla, həkim,
Ağrı-acılı
Bu son qonağı...
Evə gəlincə
Ayaqlarımdan daş asılır.

Bir də görürəm
Səhər açılır.
Beləcə ötür
Ömürdən hər gün.
Bu da dünyanın
Qurduğu «toy-düyün»!
...İş yerimdən yolunu salma!
Bəlkə səninçün
Dediklərim nağıldı, nağıl; -
Yadına düşər
Düşən üç alma...
Nəyinə gərək o nağıl, o alma.



## MƏNİ APARMADIN

***Ömür-gün yoldaşım Yaquta***

Görən pozularmı yazılan yazı,
Gələrmi bir daha o yurdun yazı?
Məni aparmadın, a zalım qızı,
Gedib o yerləri görüb qayıdım.

Bu dünya neylədi Sarı-Yaxşını,
Üstünə ələdi qarı Yaxşının.
Barı o aşığın, barı Yaxşının
Qəbri haradadı, bilib qayıdım.

Bizdən dönübdümü üzü dağların?
Görən yol çəkirmi gözü dağların?
Şeirimi xalıtək sizin dağların
Ayağı altına sərib qayıdım.

Duymadıq, bilmədik olub-olanı, -
Doğmalar qəribtək yurdda dolanır,
Barı təsəllimlə Firəng xalanın
Gözünün yaşını silib qayıdım.

Günəş əyilincə, axşam gəlincə,
Baxardım dağlara göz dincəlincə.
Qayalar özünə biləydim necə
Suları hörüktək hörüb, qayıdım.

Dumana bürünüm, yolları seçim,
Həkəri çayının suyundan keçim.
Sizin çiçəklərdən bir-iki əlçim
Görməyənlər üçün dərib qayıdım.

Görən pozularmı yazılan yazı,
Gələrmi bir daha o yurdun yazı?
Niyə aparmadın, a zalım qızı? –
Sizin o yerləri görüb qayıdım.

## BU ŞƏHƏR

***Dostum Cavanşir Həmidovla söhbətimdən***

Varmadım işlərin əyri-düzünə,
İnandım çoxunun şirin sözünə.
Gecəsi bənzədi göyün üzünə, -
Sandım kəhkəşanda, təkdi bu şəhər.

Dedim düzü düzdü, dedim ağı ağ,
Çörək kəsdiklərim dayaqdı, dayaq.
Necə sadəlövhü çəkdiyi sayaq
Məni də qoynuna çəkdi bu şəhər.

Gecəli-gündüzlü umdu dostlarım...
Çağırdım, gözünü yumdu dostlarım.
Gözümdə sınmazdı, sındı dostlarım,
Dərdi küçə-küçə əkdi bu şəhər.

Kimə inanasan, deyəsən sirri,
Doğrunun, əyrinin bilinmir yeri.
Gələndə yüyürdün, ayağım, yeri,
Çiynimin üstündə yükdü bu şəhər.

Bu yerlər dumanmış, duman gəlirəm,
Çək gözünü yoldan, sonam, gəlirəm.
Sözünə baxmadım, anam, gəlirəm,
Daşı ətəyimdən tökdü bu şəhər.



## DUR GEDƏK

***Rafiq Vəlizadəyə***

Mərd olduq, görünmədik,
Dərd olduq, bilinmədik,
Yaş olduq, silinmədik
Üzümüzdən, dur, gedək.

Kədərin, intizarın
Boynumuzda qolları.
Həsrət çəkən yolların
Həsrətini qır, gedək.

Gördüyünü deyən yox,
Gözlərini döyən çox.
Bəyinə baş əyən çox,
Nə danış, nə sor, gedək.

Bəndələr məclis qurub,
Başda baş əyən durub...
Göyün üzü tutulub,
Yağar yağış-qar, gedək.

## AKİF SƏMƏDƏ

Çoxumuza daşdan çıxırsa çörək,
Gedək, ömrün başqa üzünü görək.
Bizdən nə istəyir ağrıyan ürək, -
Deyəsən, qurulur toy, Akif Səməd.

Gəzir üstümüzdə dolan buludlar, -
Yağır başımıza, yağır yağış-qar.
Daha bu sahildə de, nəyimiz var? –
Görünmür ulduzlar, Ay, Akif Səməd.

Gəminin yolları olsa da uzaq,
Qalan günlərimiz olsun üzü ağ.
Bir təhər yaşayar bu arvad-uşaq,
Gedək bu sahildən, ay Akif Səməd.

Quruyur ağaclar... görkəmi yoxdu,
Düşən yarpaqların heç nəmi yoxdu.
Yelkənli, yelkənsiz bir gəmi yoxdu?!
Düşə bəxtimizə pay, Akif Səməd.

***2001***

## ATAMIN XATİRƏSİNƏ

İnana bilmədim mən bu ölümə,
Dərd olan xəbərsiz bu gəlişi nə?
Uzanan yollartək, daha əlimə
Bircə ötən gün də çatası deyil.

Külək oxşasa da saçıma qədər...
Yağışla, sel ilə yuyulmaz qəhər.
Uzanıb gecələr... başqadı səhər, -
Bu dünya könlümə yatası deyil.

Nahaqq bel bağladıq bu ömür-günə, -
Əlləri çatmadı arzu-düyünə...
Erkin də, Emin də baxır şəklinə, -
Duyulan bir həsrət ötəsi deyil.

Yolların əriməz şaxta-qarı nə?
Qışdan betər olan bu baharı nə?
Gedirəm, daş dəyir ayaqlarıma,
Bu daşlı yollar da bitəsi deyil.

Gəzir həyət-baca doğma bir səsi, -
Yaddır daş-divara bahar nəfəsi.
Bir ata sevgisi – torpaq sevgisi,
Qəlbimdən silinib gedəsi deyil.

# BU KƏNDİN ADAMI BELƏ DEYİLDİ

Bu kəndin adamı belə deyildi, -
Ayırmaq çətindi ağı qaradan.
Əyildi dümbədüz yollar, əyildi,
Beləmi yazmışdı bizi yaradan.

Hanı o xoş günlər, o muştuluqçu? –
Uyuyur uzaqda Gülüstan xala.
Hanı Dərgah kişi, kəhər atını
Çapa kənd yolunda, çapa dördnala.

Ağamalı dayı görünə gözə,
Yandıra siqaret əllərimizi...
Bu kəndin böyüyü, kiçiyi kimdi? –
Qarışıq salmışıq öz yerimizi.

Yerişi, duruşu nəsihət idi
Mənim Bəbir babam, Balabəy dayım.
Böldülər, böldülər el-oba ilə
Ömür günlərinə yazılan payı.

Bəlkə hamı bilmir babalarımız
Evbəev bu elin gərəyi idi ...
Çətinə düşəntək baxıb görürsən
Nökər oğlu nökər, bəy oğlu bəydi.

Bizi imtahana çəkdi bu dünya,
Gör dərdi çəkən kim, sevinc tapan kim.
Torpağın altında yatır ərənlər,
Üstündə atını indi çapan kim.

Anam bişirdiyi isti çörəyin
Beşi bizim idi, beşi qonşunun.
Kim saldı görəsən çəpəri dəbə,
İtdi şirinliyi kişi qonşunun.

Bu kəndin səsini duya bilməyən
Bu elə hay-harayda varı axtarır.
Sel yuyub aparıb əkilənləri,
Yatan yuxusunda barı axtarır.

Bulud arxasınca bulud gətirir,
Açılmaz görünür gecəsi belə.
Sağında, solunda tikan bitirir
O doğma cığırı, küçəsi belə.



## ÜRƏYİ ALDATMAQ OLMUR

***Malik Abbasov və Rafiq Yusifliyə***

Axtarırıqsa gümanı,
Çəkilmir qəmin dumanı.
Həkim, yığışdır dərmanı,
Ürəyi aldamaq olmur.

Göy biçənəklər yuxudu,
Salxım söyüdlər qurudu...
Bu payızın işi budur,
Küləyi aldatmaq olmur.

Çəmən dönüb ah yerinə,
Darayan yox meh yerinə.
Yaş ələnir şeh yerinə,
Çiçəyi aldatmaq olmur.

Ömür tilsim, arzu düyün,
Açsan nə din, nə də öyün.
Bircə gün qazanmaq üçün,
Fələyi aldatmaq olmur.

Axtarırıqsa gümanı,
Çəiklmir qəmin dumanı.
Həkim, yığışdır dərmanı,
Ürəyi aldatmaq olmur.

***İyun, 1999***



## XƏBƏRİN VARMI

***Qızım Afaqa***

Şəhər səni çəkdi bizdən uzağı,
Tanrrı bəndələri çəkir sınağa.
Qar-yağış ələnir doğma ocağa,
Bu yurdun halından xəbərin varmı?

Gecə pərdəsini çəkir baxıram,
Günəş dan yerini sökür, baxıram.
Çaşıb gözlərimi dikib baxıram...
O məktəb yolundan xəbərin varmı?

Biri ömür tapır, qoy deyim sənə,
Birinin ömürü bürünür çənə.
Baxıram əlacsız qocalır nənən,
Bu olub-olandan xəbərin varmı?

Tanrı belə yazıb bu ömür-günü,
Bir azca ərisin həsrətin kini.

Asmışam divardan gülən şəklini, -
Gözləri dolandan xəbərin varmı?

Baxıram, daş-divar bir az pərişan,
Bacar ev-eşiyin bu halına yan!
Boylanır yollara, səni soruşan,
Yasəmən kolundan xəbərin varmı?

Gəlsən yaşılaşar biçənək belə,
Qupquru yarpaqlar, ot-çiçək belə...
Döyür yolu – izi bu külək belə,
Çəiklməz dumandan xəbərin varmı?



## ÜRƏK DEYƏ BİLMƏYƏN SÖZ

Ümid gözləyən xəstələr,
Baxar gözümün içinə.
Ürəyim dərdi yaş elər,
Sıxar gözümün içinə.

Mənə yanma, ay baxan kəs,
Gözlərimi yumum ki, döz!
Ürək deyə bilməyən söz,
Çıxar gözümün içinə.

Çəkilməzdi hələ duman,
Əlçatmazdı hələ güman...
Dünya, nə vaxt baxacaqsan
Axır, gözümün içinə.

## SƏN DOĞULAN GÜN

*Qızım Afaqa*

Yuxumu dediyim çay bu çay imiş,
Sularda görünən Ay bu Ay imiş.
Tanrıdan pay umdum, pay bu pay imiş,
Dünyayla barışdım sən doğulan gün.

Həsrətin torpağa dəydi kürəyi,
Bir pay gətiribdi tale küləyi.
Üzünü isladan anam İpəyin,
Yaş deyil, yağışdı sən doğulan gün.

Xatirələr mənə nələr danışdı...
Daha saçım bəyaz, alnım qırışdı.
Sorağımda qaldı dost da, tanış da,
Bu evə yığışdım sən doğulan gün.

Gəlsin muştuluqçu, payı qalan var,
Bu gündən bu yana «dayı» olan var.
Baxışım xalı tək sərilən yollar,
Nağılmı danışdı sən doğulan gün.

Atam oğul dedi sarışın qıza,
Bu yurdda yer yoxdu daha payıza.
Göydən ay boylandı, ulduz ulduza,
Təzədən qarışdı sən doğulan gün.

Hardasa ağlasa, gülsə bir uşaq,
Səni axtararam Afaq, ay Afaq.
Oduna yandığım bu od, bu ocaq,
Təzədən alışdı sən doğulan gün.

## ŞAİR VAQİF İBRAHİMİN XATİRƏSİNƏ

Sahildəki
bir daşın
üstüdə
əyləşmişdi,
Şair Vaqif İbrahim,
Balıq tuturdu,
Allah bu necə işdi? –
Birdə gördü
tilovuna
Balıq əvəzinə
şeir düşdü...
düşdü....
Sanırdı
şeirlərin
təkcə dili var,
Yuxusuna da girməzdi
şeirlərin əli var.
Şeir əlinə bel aldı,
Başladı quyu qazmağa...
qazmağa....
Vaqif İbrahimsə
getdi çox-çox uzağa,
Quyu boş qaldı.

## QIZIM YALAN DANIŞIR

Qızıma nə alıram,
Hamısını bəyənir.
- Ayaqqabı, corab da
Ata, qənəşəngdir, - deyir,

Yaman xoşuma gəlir
Dovşanın qulaqları,
Tülkünsə quyruğu.
Ata, əgər yatmasam,
Sən aldığın kuklanın
Gözünə getməz yuxu.
- Bibini çox sevirsən,
Qızım, yoxsa, əmini?
- Bibim yaxşı bibimdir,
Çox sevirəm əmimi.
- Atanı çox sevirsən,
Qızım, yoxsa ananı?
Utanma, söylə düzü.
- Ata, hər ikinizi, -
Deyir, bir az qımışır,
Anasını çox sevir,
Qoy mənə toxunmasın,
Qızım yalan danışır.

## TƏLƏBƏ ÖMRÜMLƏ AYRILIQ

Sevincimlə
İslanmış bu son günlərin
Üstünə
bir az kədər çilənib.
Kövrəlmiş duyğularım
Küçə-küçə
Şəhərə səpələnib.
Gedirəm –
Yeddi il qabaq
Həsrətinə
büründüyün şəhərdən,
Ayrılıram

Yuxusuz səhərlərdən.
Özümlə aparıram
Bu şəhərin küçələrini,
Bərli-bəzəkli gecələrini,
Qonşu pəncərədən baxan –
adını bilmədiyim bir gözəli,
İradəni, Səxavəti, Naili...
Özümlə aparıram.
Sevimli müəllimlərimin
sözünü, söhbətini,
arzuzusunu, muradını
Təzədən yaşatmağa
neçə-neçə insan həyatını.
Gedirəm.
Əlini gözünün üstünə qoyub
gözləri yol çəkən kəndə,
Ümidini sənə, mənə, ona dikən kəndə,
Gecə-gündüz
Gözümün yuxusunu,
Ürəyimin rahatlığını
Sökən kəndə.
Nə qədər dostum var
o qədər mən varam.
Məni aparacaqlar getsələr hara.
Haçan bura qayıtsam
Rastalaşacağam
Bir gözəldən ötrü
Gecələrində qalan yuxularımla,
Pərən-pərən duyğularımla.
Küçələrinin sinəsinə döşənmiş izimlə....
Görüşüb öpüşəcəyəm
Əziz dost kimi
yeddi illik özümlə.

***1978***

## ...KƏNDİMİZƏ QAYITMIŞDIM
*28 yaşlı əmim oğlu vəfat etmişdi*

Həyət qapımızıdan girçək içəri,
Əllər hərarətlə sıxdı əlimi.
Əlindən əsanı tullayıb nənəm,
Boynuma sarıldı sarmaşıq kimi.

Adamlar, bənizlər başqalaşıbdır,
Gördüm bənizlərdə gülüşlər başqa.
Bir az da bükülüb babamın beli,
Ayaqlar süst gəzir, yerişlər başqa.

İstədi mənimlə görüşə əmim,
Titrədi yarpaqtək əli... dayandı.
Anamın gözündə bahar buludu,
Dözməyib gözündən yaş damlalandı.

Ata, üzündəki süni gülüş nə?!
Söyləyin bəs əmim niyə sozalıb?
Duymuşam, ay ana, gizli saxlama,
Mənimlə görüşən əllər azalıb.

Əliboş gəlsəydim gülüb deyərdi:
«Alıbmış, aldığın yolda salıbdır»...
Əliboş gəlmişəm, o şirin dilin,
Şirin zarafatı harda qalıbdır.

Yoxsa, əmim oğlu bir bulud idi,
Qovub uzaqlara apardı külək.
Yoxsa, yarpaq idi yaşıl budaqda,
Xəzələ döndərib qopardı külək.

Bəlkə bir insanlıq çoxalsın torpaq,
Ölüm bir ömürü yetirdi sona.
İşə bax, nə haqqla bir parça torpaq,
Bir dünya arzunu aldı qoynuna?!

***Cəlilabad,***
***24 yanvar 1973***

## HARDASAN, AY AFAQ...

*Qızım Afaq anam İpəklə*
*Kərbəla ziyarətinə getmişdi...*

Anan gözü yolda... döz demək olmur,
Sözünün üstündən söz demək olmur.
Bu ötən yaza da yaz demək olmur,
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

Ömrü uzun imiş bu gecələrin,
Hara baxıramsa, görünür yerin.
Qalıbdı bir yanda kitab-dəftərin:
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

Fikrimi dağıtmır ötüşən külək,
Yolların üstünü alıb çən-çiçək.
Kolların üstündə boylanan çiçək,
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

Ay qızım, bu sirrdən xəbərin yoxdu,
Haçaqulaq dovşan gözünü sıxdı.
Sarışın kuklalar üzümə baxdı,
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

Yuxular gözündən yuxumu çəkdi,
Sarışın qız gördüm, sarı örpəkli.
O qızı axtaran anam İpəkdi, -
Hardasan, ay Afaq, ay Afaq – deyir...

Soyuqdu, elə bil üşüyür bu yurd,
Olub-keçənləri oğulsan, unut.
Gözünü yollara dikib qara tut,
Hardasan, ay Afaq, ay Afaq? – deyir.

## BİZİM QİSMƏTİMİZ BELƏ ÖMÜRDÜ

*Ömür-gün yoldaşıma*

Getdik harayına süfrə başından,
Qəlbi kövrəyin də, qəlbi daşın da.
Əlacı biziksə, axan yaşın da...
Bizim qismətimiz belə ömürdü.

Arzu var, muraz var düşüb düyünə,
İsinə bilmirik toya-düyünə.
Gərək acımayaq bu ömür-günə,
Bizim qismətimiz belə ömürdü.

Varsa da üstündə Tanrı kölgəsi,
Bizi soraqlayar, gəzər bəndəsi.
Dərd yiyəsi qalıb, biz əriyəsi,
Bizim qismətimiz belə ömürdü.

Arzuya körpüyük, keçib gələn yox,
Dərdliyə sevincik, deyib-gülən yox.
Əriyən biziksə, bunu bilən yox,
Bizim qismətimiz belə ömürdü.

Vaxt qısa... ötənlər uzaqda qaldı,
Olanlar ya yuxu, ya da nağıldı?!
Başıma yığışan dostlar dağıldı,
Bizim qismətimiz belə ömürdü.

Taledən, ömürdən nəydi istəyim?
Nə zirvə, nə də ki, göydü istəyim.
Dərd olub qapını döydu istəyim,
Bizim qismətimiz belə ömürdü.

Hamıya yanırıq, daha nə xeyri? –
Bir yan günəşlidi, bir yan qüzeyli.
Bacı da, qardaş da bizdən gileyli, -
Bizim qismətimiz belə ömürdü.

Ürək də dəyişib, bir söz bənddi,
Yağış selə dönüb yuyacaq bəndi.
Bu ömür açılmaz bir qıfılbənddi,
Bizim qismətimiz belə ömürdü.

## MƏNASIZ

Ay ürək, yollardan bir yolu seçdin, -
Şaxtadan, sazaqdan, küləkdən keçdi.
Çörək kəsdiklərin çörəkdən keçdi, -
Daha əl uzadıb yemə mənasız.

Aylı gecələrlə vaxtını böldün,
Kim sənə əl açdı, baxtını böldün.
Hamıyla sevincin taxtını böldün,
Özünsə, yurd oldun qəmə mənasız.

Yolların daş oldu, daşa dönmədin,
Kiminsə üzündə yaşa dönmədin.
Qismətin qış oldu, qışa dönmədin,
Daha bu sözləri demə mənasız.

Qara üzü varmış bu gündüzlərin,
Sən dayaz bildiyin dərələr dərin.
Ot-ələf bürüyüb düşən izləri...
Toxunma köhnələn simə mənasız.

Çatıb qaşlarını, dedi çox nadan,
Düz yoluna əyri, doğruna yalan.
İnanan olmadı, sənə inanan, -
Sən isə, inandın kimə mənasız?!

## ÇAĞIRIN DƏRVİŞ VƏLİNİ

***Şair Vəli Xramçaylıya***

Bu dünyanın «mərd»i belə,
Seçilmir namərdi belə.
Ha çəkirik dərdi belə...
Bəlkə o bilə dilimi,
Çağırın Dərviş Vəlini.

Bəndəyə bəndə qibləsə, -
Mələk dedilər iblisə.
Umduğum səs vermir səsə,
Daş göyərir, qaya dinir,
Çağırın Dərviş Vəlini.

Nə var tərsinə yozdular,
Yazılanları pozdular.

Doğrunu kəsib-asdılar, -
Gəlib tapmışam ölümü,
Çağırın Dərviş Vəlini.

Yüzünün göz yaşındayam, -
De, kimin yaddaşındayam?
Bir qayanın başındayam,
İndi kim tutsun əlimi, -
Çağırın Dərviş Vəlini.

## BİR DOSTUMA

Düşdük pərən-pərən o doğma yurddan,
Danışma, kül olun oddan, ocaqdan.
Qorxuram o yollar çıxalar yaddan,
Yığışaq təzədən ocaq yerinə.

Qoyduq bu dünyanın geniş yerini,
Döydük bu şəhərin küçələrini.
Kimə danışasan ürək sirrini? –
Qoyurlar bizləri uşaq yerinə.

Hanı dərd bilənlər, kədər bilənlər,
Cümana dönənlər, sevinc bölənlər?
Hər səhər, hər axşam üzə gülənlər,
Çəkir nabələdi sınaq yerinə.

Kimi axtarırsan görünmür gözə,
Gedirsən, yolunda qar çıxır dizə.
Çörək kəsdyinlə dursan üz-üzə,
Dönürük özümüz qınaq yerinə.

***1977***

## ARZULAMA O MEYDANI

*«Meydan verin ürəyimi boşaldım...»*
*Mehdixan Kəlbəcərli*

Çoxdu iblisi, şeytanı,
Bu dumanda mərdi tanı.
Arzulama o meydanı,
Bu ürək boşalan deyil.

Tapılmır bizi oyadan,
Belə yuxudan-röyadan.
Çıxıb gedək, bu dünyadan
Bizə sirdaş olan deyil.

Bizə paymı bu imtahan? –
O yerləri gəzir güman.
Elə əridibdi zaman,
Daşından daş olan deyil.

Yolu tutub çən, danışma,
Namərdə mərddən danışma.
Hamıya dərddən danışma,
Gözləri yaş olan deyil.

Bu meydanda sapır kimi,
Öz atını çapır kimi.
Dərd də bilir tapır kimi,
Hamıya tuş olan deyil.

## GÜMANDAN QAPI YOX, GEDİB DÖYƏSƏN

Yollar uzaqlarda qalır deyəsən,
Tanrı verdiyini alır deyəsən.
Gümandan qapı yox, gedib döyəsən,
Süzülür ömürün yaşıl köynəyi.

Çiçəklər qalıbsa, qoxusuz qalıb,
Bizi gözləyən yurd yuxusuz qalıb.
«Bu ömür ölümdən qorxusuz qalıb...»
Deyib, oyatmayın anam İpəyi.

Duman da, çiskin də bürüyür yeri,
Aylı gecələrin görünür yeri.
Dumana bürünüb xatirələrim,
Gətir stol üstə qalan eynəyi.

Yuxudu illərin o şirin dadı, -
Belə yeyin ola, heç inanmadım.
Qaldı uzaqlarda baharın adı, -
Əsir ustümüzdə payız küləyi.

Bu yağan yağış da başqa yağışdı,
Sel yudu, yol-iz də yaman qarışdı.
Bu ömür payızla nə tez barışdı?
Uzaq bil, yuxuya dönən istəyi.

Yollar uzaqlarda qalır deyəsən,
Tanrı verdiyini alır deyəsən.
Gümandan qapı yox, gedib döyəsən,
Süzülür ömürün yaşıl köynəyi.

## YOLLAR UZAQ DÜŞÜB

Ay da uzaqlara ötür gizlicə,
Şöləsi göylərdə əriyir neçə?!
Baxıb kövrəlirəm, sanki bu gecə,
Göz yaşı isladın bəniz kimidi.

Yollar uzaq düşüb pənah yerindən,
Günah da sayılmır günah yerində.
Həsrət əyləşibdi padşah yerində,
Ürək qul-qaravaş, kəniz kimidi.

Ovçumuz içindən qaçan ömür-gün, -
Qar olub ələnir saça ömür-gün.
Yolları tapmaça, haça ömür-gün,
Gəmilər yol azan dəniz kimidi.

Ömürdən daha pay uman deyiləm,
Təzədən ümidə gedib əyiləm.
Gümanlar yağışla, qarla döyülən,
Görünməz-bilinməz yol, iz kimidi.

Qəlbi daşdan imiş bu yerin, göyün,
Bu bəxtlə de, neçə qürrələn, öyün?!
Yaxşı bir kitabı belə ömür-gün,
Könülsüz yazılan ön söz kimidi.

## MƏNİ AXTARAN VARSA

İzim düşən çəmənə,
Nə səsim-ünüm gələr.
Sizə şirin yuxutək,
Toyum-düyünüm gələr.

Unudun ağ yolları,
Daşlı yolları gəzin.
Bahara çatmaz əlim,
Qışlı yolları gəzin.

Gecələr çəkilirəm,
Otağımın künçünə.
Fikirlər salır məni,
Açılmayan düyünə.

Gecə dünyada nə var,
Görünür aydın-aydın...
Gündüz hara, mən hara?!
Məni axtaran varsa,
Gəlsə düşəcək qara,
Ya da qaranlıqlara.

## ÖMRÜ İTİRİRİK HƏR GÜN, HƏR GECƏ

*Tələbə yoldaşım, bacım*
*Hafizə Mustafayevaya*

Ocaq nəfəsini od-közdən alır,
İnsan sevincini xoş üzdən alır,
Dünya gözəlliyi gündüzdən alır,
Yalançı çil-çıraq düzməyə nə var.

Ömrü itiririk hər gün, hər gecə,
Ürəyim geriyə baxır gizlicə...
Dostun ürəyindən gərək dost keçə,
Bu torpaq üstündə gəzməyə nə var.

Yarı yolda qalır qal göstərənlər,
Yalandan dilini bal göstərənlər.
Şahdı yol azana yol göstərənlər,
Duman tək yolları kəsməyə nə var.

Dar gündə dostları gəzə biləsən,
Uğrunda dağ aşsan, dözə biləsən,
Dərd gəlsə, yolunu kəsə biləsən,
Süfrədə duz-çörək kəsməyə nə var.

Şerimdə adını unutdum, bacım, -
Bu günahdan ötrü kimə əl açım?
Səhvi düzəltməkdi, - bircə əlacım,
Yazıq Əfrahimdən küsməyə nə var.

## DAHA ÖMÜR-GÜNÜN DE, NƏYİ QALDI

Söylədim sirrimi çoxuna nahaqq, -
Nə bilindi günah, nə bilindi haqq.
Gərək yaşayaydım ömrü üzü ağ...
Sinəmdə səhvlərin göynəyi qaldı.

Bu da gəzdiyimiz payız... nə um, nə istə!
Güman əl çatmazdı, uzaqdı istək.
Bir göz qırpımında yolların üstə
Yaşıl ağacların köynəyi qaldı.

Yaxına, uzağa göz ucu baxdıq, -
Bulanıq sulara qoşulub axdıq.
Gəlib görünməyən yollara çıxdıq,
Daha ömür-günün de, nəyi qaldı?!

Bəlkə də bu dünya düzələ dedik, -
Qismətlə, bəxt ilə üz-üzə gəldik.
Qüruba yetişən gündüzə gəldik, -
Könlümə dünyanı sevməyi qaldı.

## YAZIÇI ŞAHMARIN XATİRƏSİNƏ



Şahmarı dəfn etdilər, -
Dəfn etdilər yazdığı
Kitabı da.
Bilmədilər
Çox şey tərsinə ola bilər
Dünyada.
Kitab söz-söz,
Kitab sətir-sətir
Boylandı bu məzardan...
Bilmədilər,
Kitab və Şahmar
Təzədən qayıdacaq...
Onu, aparan torpaq
Əzizi kimi
Gəzdirdi üstündə
Sətir-sətir, söz-söz...
Torpaq, indi gəl,
Özün bu ağrıya döz,
Özün bu əzaba döz!
Taxt imiş

Yerində deyilən söz...
Ay səni... ay səni...
Gözü tox olmayan torpaq,
Mərdi çox olmayan torpaq.
Sənin yerinə
Üzü qara qalan biz
Yenə də dözməyib
Ağrı-acını
Alan biz, -
Balan biz.

## BELƏ YAŞAYIRAM MƏN

Anam deyir, ay oğul
Yuxuda toy görəndə
Həmən gün çıxma evdən...
Hər gecə yuxularda
Toy görürəm, ay ana.
Dərd eləmə, biləsən, -
Necə yaşayıram mən,
Belə yaşayıram mən.

## DÜNYAYLA SÖHBƏTİMDƏN

Dünya, qoy düz deyim mən
Deyirdilər şirinsən...
Nə çoxmuş umub-küsən, -
Ürəyini qınadıq.

Körpülər kəsən də biz,
Yolda zülmət, çən də biz,
Günah gördük səndə biz, -
Küləyini... qınadıq.

Dərdin var qaçılmayan, -
Çox oldu ulduz sayan.
Səhəri açılmayan
Hər gününü qınadıq.

Yol göstər, tapım güman, -
Torpağı yudu leysan, -
Baharda açılmayan
Çiçəyini qınadıq.

Ömür-gün qoymuşuq biz,
«Şirin»dən doymuşuq biz.
Yüz ağrı duymuşuq biz,
Köynəyini qınadıq.

Gördük ki, qışlı yoldu, -
Mərd yolu daşlı yoldu...
Namərdə yaxın oldu, -
Çörəyini qınadıq.

Arzuya yol, yön nədi? –
Yollar bizə dönmədi.
Yaxşı, pis ələnmədi,
Ələyini qınadıq.

## QIZIM AFAQA

Haqsız haqqa yetişməz,
Haqqı ara haqq itməz.
Bu ömür ələ düşməz,
Kədərə gün saxlama.

Arada «duman» olar,
Birisi yaman olar...
Küsən peşiman olar,
Küsənlə kin saxlama.

Nə olsun çox acı var, -
Hər işin əlacı var.
Gör nə qədər bacın var,
Gözündə nəm saxlama.

Dostun sirrini saxla,
Kədər duysan, maraqlan.
Dost «ağlayanda, ağla»,
Arada çən saxlama.

## AĞRILI ÜRƏYİM QALDI

Qalaqlanır dərd ilbəil,
Bu ömrü sür, ya da əyil.
Gördüm gücüm çatan deyil...
Quruca gileyim qaldı.

Külək apardı sözümü,
Ocaq itridi közümü.
Yağış islatdı üzümü,
De, özümə nəyim qaldı.

Dağ-daş aşdım, kimlər umdu?! –
Bu oyun çətin oyundu.
Gec bildim mənim toyumdu,
Gör kimə çörəyim qaldı.

Dünya özü qalmaqaldı, -
Məni daşlı yola saldı.
Nə vermişdi aldı, aldı...
Ağrılı ürəyim qaldı.

## DEYİRLƏR Kİ..,



Deyirlər ki, ömrün
Əlli il olsun,
Ya da yüz il,
Şeytan gözə görünən deyil.
Mənsə öz gözlərimlə
Görmüşəm o şeytanı, -
Hətta görmüşəm
Necə olur kələyi də...
Deyirlər mələklər də
Görünməzdi, görünməz.
(Gəl, bu yalana döz!)
Görmüşəm mələyi də.
Görənlər gördüm deməsə də,
Mələyi mələk bilməsə də.
Fələk də ha fələkdi! –
Onları mənə fələk göstərib.
Yüz il ötsə də,
Göstərsələr, tanıyacağam
Bu şeytandı, ya mələkdi.
Daha səni qınamıram, fələk,
Əlində yarmış ələk.

# AKİF SƏMƏDƏ MƏKTUBLAR

## I
## ÇAĞIRMAYIN SİZ MƏNİ O ŞƏHƏRƏ

Çağırmayın siz məni o şəhərə,
Yolum düşdü... kim nə dedi, inandım.
Doğru bildim dilə gələn hər andı.
Qorxuram ki, sına bilən inadım,
Çağırmayın siz məni o şəhərə.

Külək döyür ağacların düzünü, -
Biri baxır, beşi döyür gözünü.
Kim danışıb kim deyəcək sözünü? –
Çağırmayın siz məni o şəhərə.

Yaxınamsa, yaxın olum uzaqda,
Nə işim var bu çovğunda, sazaqda.
Zaman məni sındırar o sınaqda,
Çağırmayın siz məni o şəhərə.

Ömür keçib... arzu uzaq, saç bəyaz, -
Dərviş Vəli indi məni tanımaz?!
Sözlərimi nahaqqa yoz, haqqa yoz...
Çağırmayın siz məni o şəhərə.

Burda mənə bəsdi at çapan qəhər,
Adamları tanıyıram bir təhər.
Yuxuma da girən deyil o şəhər,
Çağırmaın siz məni o şəhərə.

Tanımasa, tanış məni, dost məni, -
Nağıl olar ömrün olub-ötəni.
Kim qovacaq bu dumanı, bu çəni? –
Çağırmayın siz məni o şəhərə.

Yolun-izin ayaq əzən daşı var,
Yuxum qaçar, gecə-gündüz qarışar.
Yaxanızdan anam İpək yapışar,
Çağırmayın siz məni o şəhərə.

## II
## BU SAHİLDƏ DOLAN, OĞLAN

Cəmi bizsiz düşüb yola,
Baş qarışdı qalma-qala,
Öz oduna ocaq qala,
Bu sahildə qalan oğlan.

Arzulama bilə-bilə,
Əlin çatmaz o sahilə.
Bizə gülər üzə gülən,
Bu sahildə dolan, oğlan!

Alp ərənlər daşa döndü,
Oğuz eli qışa döndü.
Dərd yağmur-yağışa döndü, -
Pozulmazdı olan, oğlan!

Haqqı qoyub nahaqq gəzdik,
Dərd biləndən uzaq gəzdik,
Yurd qaldı, üzü ağ gəzdik,
Ha gəzirik güman, oğlan.

Gedən gəmi harda qaldı? –
Arzu, muraz darda qaldı.
Yol arayan yolda qaldı, -
Bizdən olmaz baxtı olan,
Bu sahildə dolan, oğlan.

## III
## KÜR BAŞINA DOLANMADIQ

Yurd yuxusuz – yatmaz oldu,
Ölüm bizə «batmaz» oldu,
Çörək də əlçatmaz oldu...
Yedik doyunca, bilmədik.

Haqqı haqq tək görənləri,
Ömrü-günü bölənləri,
Ölüm gəzən ərənləri
Ucadan uca bilmədik.

Gecə-gündüz artdı günah,
De, kimlərə yaddı günah?!
Yaxamızdan tutdu günah,
Uzağa qaça bilmədik.

Elə yatdıq oyanmadıq,
Sel önündə dayanmadıq.
Kür başına dolanmadıq, -
Arazdan keçə bilmədik.

## IV
## ALDANMA DAHA

Əl uzadana əl tutduq,
Göz yaşı gördük qurutduq.
Görən üzünü yan tutdu
Əriyib, aldanma daha.

Duya-duya yalanları
Bu ömür-gün oldu yarı.
Üzə gülənlərə sarı
Yeriyib, aldanma daha.

Haqqı aradıq, sığınaq, -
Bir az oduna qızınaq.
Yuxudu, yuxu bu sınaq! –
Baş əyib, aldanma daha.

***2001***

## V
## QIRXA ƏLİBOŞ GƏLMİŞƏM

***«Qırxa əliboş yetmədim...»***
***deyən Akif Səmədə***

Yurd qaldı elimdən uzaq,
Söz qaldı dilimdən uzaq.
Əllərim ölümdən uzaq, -
Qırxa əliboş gəlmişəm.

Gözlədik gələn səhəri,
Gələn dərdmiş üzü bəri.
Mələk olan bəndələrin
Ətəyində daş gəlmişəm.

Gecə yuxumu itirdi,
Gündüz gecədən betərdi.
Yiyəsin tapmayan dərdin
Gözlərində yaş gəlmişəm.

Bulud pərən-pərən deyil,
Göy üzü görünən deyil.
Çöl-çəmən göyərən deyil,
El-obası qış gəlmişəm.

Yurd qaldı elimdən uzaq,
Söz qaldı dilimdən uzaq.
Əllərim ölümdən uzaq, -
Qırxa əliboş gəlmişəm.

***1999***

# MÜƏLLİFİN 70-Cİ İLLƏRDƏ YAZDIĞI ŞEİRLƏRDƏN...

## KÖZƏ SARI

Meyl etmədim, azdım harda,
Özgə açan izə sarı.
Dedim yolum qayalarda,
Yerimədim düzə sarı.

Bulud axdı, yağış yağdı,
Xəyalımda bir qız baxdı;
Gəldiyim yol yaddan çıxdı,
Çaşıb gəldim sizə sarı.

Gözəllikdə, gülüm, təkdin,
Dartıb məni oda çəkdin.
Sən ki, yanıb sönəcəkdin,
Niyə durdun közə sarı?!

Sən də yaxşı anlayarsan;
Dönmək çətin, gəlmək asan –
«Bulud axsa, yağış yağsa,
Bir həsrətli dönüb baxsa»,
Çaşıb gəlsən bizə sarı.

***1975***

## POÇTALYON NƏĞMƏSİ

Adi təbəssümüm, adi gülüşüm,
Təsəlli olubdur, inam olubdur.
Məktublar əlimdə mənim gəlişim,
Ürəkdən-ürəyə körpü salıbdır.

Kiminsə sevdası gizli, xəlvəti,
Məktublar qoynuna sığışıb gələr.

O altı qitənin sözü, söhbəti,
Bu adi çantama yığışıb gələr.

İnamam, duyanda ayaq səsimi,
Boylanar qəlblərdə qalan ümidlər; -
41-dən, 45-dən indiyə kimi,
Gözləri yollarda qalanlar bilər.

Bir adi kağızda bir bəd xəbəri,
Yüz çantalıq yükdən ağır sanıram.
Desəm, doğmalardan bir şad xəbəri,
Analar gözündə doğmalanıram.

«Unudub» söhbəti qurtarsın təki;
Oğlanlar, qızların gözü yoldadır.
Hər gün analara məktub yazın ki,
Gəlişim onları yaman aldadır.

Bir sınıq qəlblinin gülümsəməsi,
Mənim öz sevincim, səadətimdir.
İnsan dodağının «sağ ol» kəlməsi,
Ay ellər, ömürlük şan-şöhrətimdir.

***1975***

## ANAM GƏLƏCƏK

Kimin ürəyində mənim sevincim,
Olsaydı, utanıb qəm alışardı.
Anamın qəlbini duysaydı əgər,
Yollar da bir azca qısalaşardı.

Dünyaya sığmayan bir məhəbbəti,
İşə bax, bir qatar gətirər bu gün.
Buludu yox olan göy üzü kimi
Anam kədərini itirər bu gün.

Tez seçib ayırar şad xəbərləri,
İncə muncuqları sapa düzəntək.
Fikirlər bir qəlbi hey atıb-tutar,
Ləpəli sularda qayıq üzəntək.

Qovuşub mənimlə, kəndimizdəki,
Toyları bilirəm niyə sayacaq.
Bəlkə də, bəlkə bu gündən belə,
Anamın saçları ağarmayacaq.

Kimin ürəyində mənim sevincim,
Olsaydı, dəniztək aşıb-daşardı.
Anamın qəlbini duysaydı əgər,
Yollar da bir azca qısalaşırdı.

## QÜRUB NƏ YAXINMIŞ...

Qürub nə yaxınmış, qaranlıq çökür,
Göylər bulud-bulud göz yaşı tökür...
Bütün gözəlləri sayalar bir-bir,
Yenə sən gözəlsən gözümdə mənim.

Eh, nədən yanıldın, bilmirəm nədən? –
Şirin sözlərimi eşidəndə sən...
Demə ki, dönmüşəm öz niyyətimdən,
Bu sevda qalacaq özümdə mənim.

Razıyam, mən haqqsız, sənsə ol haqlı,
Yaşayım əbədi vüsal soraqlı.
Qoy düzünü deyim, adınla bağlı,
Həsrətin duyulur səsimdə mənim.

Bilmədən alışdım, alışanda da,
Duyğuma məhəbbət qarışanda da.
Adını çəkirəm danışanda da,
Yaşarsın kəlməmdə, sözümdə mənim.

***12 noyabr, 1978-ci il***



## DƏYİŞƏN XASİYYƏTLƏR

Dostlarla, tanışlarla
İkiəlli görüşürdü;
Danışıb gülüşərdi.

O, müavin qoyuldu;
Onunçün dost söhbəti,
Tamam mənasız oldu.
Diliylə yox, lal kimi,
Başıyla salam aldı.

İndi müdir çağrılır;
Daha dost da, tanış da
Görünməyir gözünə.
O, «kiçik adam»ların
Məhəl qoymur sözünə.
«Lazımsız dost»ları da
Qəlbindən silib atıb.
Tək salam verməyi yox,
Almağı da unudub.

***1979***

## QIŞ DUYĞULARI

Çayları, gölləri qışın nəfəsi,
Şüşə qəfəslərə salıbdı indi.
Dağlara dırmaşan cığırı, izi,
Qar-örpək qoynuna alıbdı indi.

Əsən küləklərin, yoxsa sözü var?
Qucur yal-yamacı, yalayır bir-bir.
Üzü qırış-qırış, çopur qayalar,
Parıldayır... sanki güzgüləşibdir.

Çiçək əvəzinə, gül əvəzinə,
Budaqda qar qalıb, buz sallanıbdır.
Şəlalə son qoyub şaqraq səsinə;
Şaxtanın əliylə sığallanıbdır.

## O QIZ

***Hörmətli tələbə yoldaşım Gülzar haqqında***

İnan, günah etsə, günahlarını
Bir anda gülüşlə yuyandı o qız.
Örtsən, təbəssümlə üzündə kini,
Demə ki, sezmədi, duyandı o qız.

Üzü gülüşlənsə hey dönə-dönə,
Sanarsan, özgəsi gəlməz eyninə.
Bir dünya dost qəmi alıb çiyninə,
Daşıyar, qəlblərə həyandı o qız.

Söyləsən, bir ulduz alışdı, söndü,
Baharda bir yarpaq xəzələ döndü;
Görərsən üzündə qəm-kədər dindi,
Elə bil od alıb odlandı o qız.

Küsər, həsrət qallam bircə sözünə;
Çaşaram sataşsa, gözüm gözünə.
Qəbahətim sayar baxsam üzünə,
Yoxsa, yalanlara uyandı o qız?

***1974***



## DEYƏSƏN

Səmanın köksündə gəzən buludlar,
Dağların başını alır deyəsən.
Bu yandan o yana əsən küləklər,
Vaxtsız yarpaqları salır deyəsən.

Günlər vərəqlənir, ötüşür illər...
Kimsə o anları təzədən dilər.
Ətri könülləri məst edən güllər,
Saralır deyəsən, solur deyəsən.

Bir gözəldən ötrü yoxdu dincliyim;
Vüsal həsrətliydi onda istəyim.
Gecəli-gündüzlü yanan gəncliym,
Şirin bir xatirə olur deyəsən.

Sevindim o məni oda salanda,
Dərd verdi mehrini yada salanda.
Dönüb o günləri yada salanda,
Gözlərim bilmədən dolur deyəsən.

Nə olsun səhvlərin bilinməz sanı,
Demə, tanımadım yaxşı-yamanı.
O zaman təsəlli olan gümanım,
Hələ ürəyimdə qalır deyəsən.

Ömür var, yaşayır gözə görünməz,
Ömür var solanda izi silinməz.
Olaydı ömürlər sonu bilinməz...
Dünya başqa hava çalır deyəsən.

***Bakı, 25 noyabr, 1978***

## ADƏT

Buludlu səmanın görmə üzünü;
Yağmasa, itirməz bulud hirsini.
Torpaq da arzular ayaq izini,
Yollara çevrilmək iz adətidir.

Quzeyə günəşin saçı düzülməz,
Yazı istəsək də vədəsiz gəlməz.
Sən gəlmə, eybi yox, səbrim kəsilməz,
Qışdan sonra gəlmək yaz adətidir.

Saatın əqrəbi dolanıb gedər,
Hicran bu ürəyə qalanıb gedər.
Sanma ki, dözümüm talanıb gedər,
Deyirlər, gecikmək qız adətidir.

Ürəyim bir adi gülüşə həsrət;
Bu necə istəkdir, bu necə niyyət?
Gülümsə, qoy olsun bu da bir adət;
Bu da bu ürəyin səadətidir!

Nələr istəyinin yolunu kəsir,
Hisslər, duyğular titrəyir, əsir.
Ay aman, bu oğlan yaman tələsir;
Bu da bu ürəyin öz adətidir.

***Bakı, 1978***

## SƏN MƏNDƏN İNCİYƏNDƏ

Ürək dili qınayar,
Dil ürəyi qınayar.
Düşünürəm: - sevdamı
Bəlkə yenə sınayır,
Sən məndən inciyəndə.

Gecənin ömrü uzun;
Çəkilməz zülmət donu.
Fikirlər qırıq-qırıq,
Fikirlər ulduz sanı
Sən məndən inciyəndə.

Getdiyim yol dolaşıq,
Duyğularda duman, çən.
Səni günahsız billəm,
İnciyərəm özümdən
Sən məndən inciyəndə.

***1975***

## TƏCNİS

Onu hey soruşur şahid budaqlar,
Köksümü odlayır onsuz bu dağlar.
Bir vaxt çalışırdı, bilir bu dağlar,
Eşqimin şamını yandıra, könlüm!

Desələr mehrini sən də yada sal,
Onu ürəyindən tez sil, ya da sal.
Dediyin sözləri onda yada sal,
Üzü dönüklükdən yan dur, a könlüm!

Baxma bəyaz saça, nə də ki, yaşa,
Bu sevda yolunda sən od ol, yaşa!
Toxunsan quruya, ya da ki, yaşa,
Odlayıb tonqaltək yandır, a könlüm!

***1975***

## ANA LAYLASI

Səslənər – nur verər arzu-istəyə,
Önündə nəğmələr istər baş əyə.
Təşnə dodaqlara, təşnə ürəyə,
Elə bil su çilər ana laylası.

Sevincmi bürüyər bütün cahanı?!
Yaddaşdan silinər ayrılıq anı.
Neçə intizarı, necə hicranı,
Düşürüb itirər ana laylası.

Anlasa, bu səsi susar dəniz də,
Küləklər dayanar dərədə, düzdə.

Təbəssüm oynayar neçə bənizdə;
Yorğunluq götürər ana laylası.

«Yanıq Kərəmi»ni saxla, Ədalət!
Habil, kamanında hanı o qüdrət?
Ağ saça qaralıq, qəlbə dəyanət,
Təsəlli gətirər ana laylası.

***1975***

## ÖMRÜMÜN



Duysun dünya qoy məni də özündə;
Gözüm qalmaz özgəsinin izində.
Bu dünyanı gözəllədir gözümdə,
Enişləri, yoxuşları ömrümün.

Gülən görsəm oğul dərdli ananı,
Uçub gedər hisslərimin dumanı.
Qəm unutsa, sevinc tapsa insanı,
Eşidilər gülüşləri ömrümün.

Ömür yolu min havayla dolası,
Ömrüm özü bir havanı çalası.
Səadətin uçulmayan qalası –
Çətinliklə görüşləri ömrümün.

***1978***

## ÜRƏK UNUTMUR

Günəş dağlar üstə ocaq qurubdu;
Yoxsa, od baxışlım orda durubdu?
O qonşu pəncərə unudulubdu,
İndi üfüqlərmi boylanan yeri?

Ay bulaq – sevdamın səsi, harayı,
Demək, gözləməkmiş, həsrətmiş payım.
Günahkarmı sayım, yoxsa qınayım,
Bu ürəkdə ocaq qalanan yeri.

Bir də qismət ola onun gəlməyi,
Bir ümman sevincim – onun gülməyi.
Deyirəm, olaydı, onun ürəyi,
Bir azca insafın oyanan yeri.

O ürək, ay aman, sevdadan «doyub»,
Bu ürək – bu payız günləri sayıb.
O ürək zərrə də hicran dadmayıb,
Bu ürək – hicranın dayanan yeri.

Soyuqdur... Tənha ay yoxsa, titrəyir?
Gümüşü şöləsi üzümə dəyir.
Mənim baxışlarım gəzmək istəyir,
Onun baxışları dolanan yeri.

O gedən sevincim daha qayıtmır,
Təlaşlı hissləri heç nə uyutmur.
«Unutmaq yaxşıdır» - deyir, unutmur,
Bu ürək – vüsala son güman yeri.

***1975***

## TOY DUYĞULARI

«Vağzalı» sədası düşər aləmə,
Sanaram gül oynar, budaq əl çalar.
Açılar bir evdə qırmızı pərdə,
Otaq bir gəlinlik sevinclə dolar.

Qocalar xatirə içində itər:
Təzədən qaralar bəyaz telləri.
Kim isə vüsala yetişmək istər,
Amma ki, uzalı qalar əlləri.

Bir oğlan baxışı gəzib dolanar,
Bir qız baxışıyla toxunmaq üçün.
Bir qızın üzünə təbəssüm qonar,
Razılıq hissitək oxunmaq üçün.

Qayıtmaz illərə qayıdıb dönər,
Uşaqtək kövrələr sarsılar babam.
Nənəmin gözündən yaş gilələnər,
Gənclik çağlarını arzular babam.

Torpağa dirəyib əl ağacını,
Bir ana yollara baxar, hey baxar,
Oğlunun yoxluğu dağlayar onu,
Həsrət yaşa dönüb axar, hey axar.

«Oğlumun, oğlumun» deyib yığdığı,
Zərli parçaları yoxlayar anam.
Sıxar qucağına uşaqsayağı,
Sonra da boxçanı bağlayar anam.

«Vağzalı» sədası düşər aləmə,
Sanaram gül oynar, budaq əl çalar.
Açılar bir evdə qırmızı pərdə,
Otaq bir gəlinlik sevinclə dolar.

***1972***

## GECİKMİŞƏM

Ağaclar dayanıb sanki yuxusuz,
İntizar əlindən çəmən qoxusuz.
Bir vaxt təsəlliydin, ay qoşa ulduz,
İndi baxmaq çətin, sön,
gecikmişəm.

Fikirlər çəkilib yenə tarıma,
Həsrət qədəm qoyub könül varıma.
Cığır dolaşmayıb ayaqlarıma,
Yol niyə deməyib: - dön!
gecikmişəm.

Qaralan səmanın sönməyib hirsi,
Görünməz olubdu ayın bənizi.
Mənə doğma olan cığırı, izi,
Deyəsən bürüyüb çən,
gecikmişəm.

Sən demə, o istək boynunu əyib,
Vüsalı hər addım hicran izləyib.
Yollar kədərlənib, yollar gözləyib...
Səndən incimirəm,
mən gecikmişəm.

***10 yanvar, 1980***

## NƏĞMƏ

Harda görsəm ya mən səni,
Harda görsən ya sən məni.
Görməməkçün gözlərini
Nə sən «bağla», nə də ki mən.

Vüsal hara, hicran hara,
Yol verməyək intizara.
Görüşlərə vermə ara,
Nə sən ağla, nə də ki mən.

Bəzən dil də çaşar əlbət;
Dönüb edər bir qəbahət.
İnciməyək, kin-küdurət,
Nə sən saxla, nə də ki mən.

***1974***

## İNDİ

Sən məni günahkar bildin bir zaman,
İndisə əhdini də, kimdir danan?
Sevda səmasında günəştək yanan,
İndi ulduz kimi sayrışan olub.

Könlümdə yurd salıb arzu-istəkdə,
Çəkilməz gözümdən, atmaz ürək də.
Sevdamla odlanıb yanan ürəkdə,
Özgənin sevdası alışan olub.

Qəribtək boynunu burubdu güllər, -
Küləkdir, üzümə dəymir o tellər.
Gecələr əlimdə tutduğum əllər,
İndi başqa əllə qovuşan olub.

***1975***

## BULUDLAR

Bəzən yarı dönük aşiqlər kimi,
Süstləşib qüssəyə batar buludlar.
Bəzən dirsəklənər şiş qayalara,
Dağların döşündə yatar buludlar.

Bəzən köç eləyən quşlar sayağı
Düzülüb köç edər dəstəbədəstə.
Sevimli, istəkli əzizi kimi,
Qucub zirvələri öpər ahəstə.

Günəş çəkiləndə qürub yerinə,
Qızarar lalətək, düzləri bəzər.
İsmətli dağların zirvəsi üstə,
Qırmızı yaylığa, örpəyə bənzər.

Yayılıb səmada nurlu günəşi,
Gəlintək pərdədə saxlar buludlar.
Bəzən də oğulsuz analar kimi,
Hönkürüb anbaan ağlar buludlar.

***1974***

# ANAMIN ARZULARINDAN

Bir qız baxışının odu, atəşi,
Gözümdən qəlbimə dolacaq haçan?
Bir üzük saxlayıb illərlə anam,
Kimin barmağında olacaq haçan?

Bürüyər toy səsi bağ-baxçaları;
Gözləri yol çəkən bir gözəl kimi.
Çoxunun qəlbində boylanar istək.
Yorulmayıb yorar çalğıçıları,
Anam oynamağın tamarzısıtək.

Nənəm asta-asta başlar oyuna,
Babam dövrə vurub yorulan kimi.
Həsrətli qəlblərin həsrəti yanar,
Buğda sac üstündə qovrulan kimi.

Atamın gözündə sevinər cahan;
Paylayar şabaşı şabaş dalınca.
Dindirsən, danışmaz qonşu Gülüstan,
Yenə «qazan açdı» onun olunca.

Səslənər «Vağzalı» - həsrət nöqtəsi,
İki intizarı ürəkdən salar.
Kiminsə evində «qızım» deyilsən,
Bizim evimizdə «gəlnim» çağrılar.

***1975***

## SƏNİ GÖZLƏYƏ-GÖZLƏYƏ

Bu sevdanın adı ağır –
Xatirələr bizə baxır.
Daş da, dağ da qaldı axır,
Səni səsləyə-səsləyə.

Bu sevdadan kim yarıdı?
Bu nə hicran, nə yaradı?
Gördüm ömrüm tən yarıdı,
Səni izləyə-izləyə.

De, əlindən hara qaçım?
Xatirələr – son əlacım.
İtdi mənim qara saçım,
Səni gözləyə-gözləyə.

*1997*

## GƏRƏK

Sevirəm zirvədə cığır sətrini,
Yay günü su üstdə söyüd çətrini.
Necə duyulmamış dağın ətrini,
Nəfəs-nəfəs udam, qoxlayam gərək.

Səmanın buluddan olanda donu,
Duyğular səslənir: - Ulduzlar hanı?
Bulağın gözünün aydınlığını,
Mən öz ürəiymdə saxlayam gərək.

Kiminsə ümiddən üzülsə əli,
Könül oxşamağı bacara bilim.

Rəngi saralanda çiçəyin, gülün,
Bir çəngə buludtək ağlayam gərək.

Aparır duyğular hara ürəyi?!
Yanmaq düşüncəsi yora ürəyi!
Paxıl hisslər ilə vuran ürəyi,
Sözlərimlə vurub oxlayam gərək!

***1973***

## POÇTALYON OĞLANIN MƏHƏBBƏTİ



Nənəm həsrət-həsrət gözlər səhərdən,
Onun gəlişiylə tapar əmimi...
... Bir qızsa boylanar pəncərələrlən,
«Gizlənpac» oynayan uşaqlar kimi.

Baxışı həyətə sərilən hər gün,
Oğlan asta-asta üstündən adlar.
Bilmədən özü də bu gözəl üçün,
Hələ açılmamış bir məktub olar.

Paylanan məktublar açılar bir-bir,
Bu «məktub» hər dəfə açılmaz qalar.
Adi məktublar tək barmaqlar deyil,
Bu sirri açacaq həsrət baxışlar.

Məktublar açılar, kim gülər pünhan,
Kiminsə yanağı islanar yaşla...
Haçansa, bu «məktub» açılan zaman,
İki həsrət könlün sevdası başlar.

***1975***

## SÖNƏ BİLMİR

Uzadaraq görüşləri,
Dünyam idi gülüşləri.
Təbəssüm indi geri,
Dönə – yaxşı, dönə bilmir.

O çay qoşa görüb bizi,
Kim danışıb desin düzü.
O yol özü, çəmən özü,
Dinə – yaxşı, dinə bilmir.

Dəyişildi səs-sədası;
O sevdanın o havası.
Bu oğlanın bu sevdası,
Sönə – yaxşı, sönə bilmir.

***1973***

## YAĞIŞ

Gecə-gündüz
Göy çağlayır,
Həsrət-həsrət baxır yerə.
Sanki dözmür ayrılığa,
Göz yaşları
Aram-aram
Damla-damla axır yerə.

***1971***

## PAYIZ LÖVHƏSİ

Əsdi xəzan yeli...
soyudu rüzgar,
Göylər də ağladı gül-çiçək üçün.
Ağaclar donunu sərdi torpağa,
Elə bil torpağı isitmək üçün.

***1972***

## GÜNƏŞ KİMİ

Şəlaləyə bənzə, əgər su olsan,
Quruyub itərsən, göltək dayanma.
Dağların başına özgə əliylə,
Ucalsan, özünü zirvədə sanma.

Səmada parlasan əgər ulduztək,
Zülmətin köksünü didəsən gərək!
Əgər didəmməsən səmadan əl çək,
Boş yerə parlama, boş yerə yanma!

Əfrahim, vuruldun bir axşamçağı,
Köksünə çəkildi min hicran dağı.
Kül olarsan, yansan ocaqsayağı,
Günəşə dönməsən heç alovlanma!

***1971***

## QARA QARĞA

Bir buğda dənəsini
Aparırdı qarışqa...
Yuvasına çatmağa
Az qalırdı qarışqa.
Endi yol kənarına,
Boylandı ora qarğa.
Təkcə buğdanı deyil,
Yazıq qarışqanı da
Apardı qara qarğa.

# POEMALAR

## BU GÖRÜŞÜN HƏSRƏTİNİ ÇƏKMİŞİK

*Hər il 9 may günü Qız Qalasının önündə görüşdüyüm tələbə yoldaşlarım Aqil İsakov, Kərim Mirzəliyev, Cavanşir Həmidov, İsax Mustafayev, Gülnarə Məmmədova, Tofiq Nurəli, Abbasqulu Səfərov, Sevil Quliyeva, Sülhiyyə Həsənova, Nizami Məmmədov, Lətifə Əfəndiyeva, Sevdiyar Əliyev, Nadir Abbasov, Əliniyaz Məmmədov, Vaqif Cahangirov, Məmməd Cəfərov, Hafizə Mustafayeva və başqalarına ithaf edirəm.*

### I

Bu taleyə, bu qismətə nə deyim, -
Uzaq düşdük...
Bu da bəxtdən gileyim.
Sinəmizdə intizarın köynəyi
Bu görüşün həsrətini çəkmişik.

Yağış yuyar üzümüzü, nə bilək,
Qınayarıq yolu, izi, nə bilək,
Yolda qoyar gözümüzü, nə bilək, -
Bu görüşün həsrətini çəkmişik.

Baxa-baxa yollarına murazın
Yola saldıq qışın şaxta-ayazın.
Qala-qala sorağında bu yazın
Bu görüşün həsrətini çəkmişik.

Kimə deyək belə sirri gizlicə, -
Uzun imiş günlər necə, il necə.
Ulduz saydıq bu şəhərə gəlincə, -
Bu görüşün həsrətini çəkmişik.

Nə deyəsən bu doğruya, bu düzə;
Görüş günü – röya, yuxu, möcüzə.
Köhnə dostlar baxacaqlar göz-gözə,
Bu görüşün həsrətini çəkmişik.

## II

Görüşdən bir gün qabaq
Cəlilabadlı qonaq
Ürəyindən həsrətli
Duyğular keçə-keçə
Gəzdi sevdiyi, doğma
Şəhəri küçə-küçə.
Dolanırdı başında
Xatirələr dumanı...
Tapdı soraqladığı,
Axtardığı ünvanı.
...Qapını açan kimi
Tanıdı otaqdakı
Qarayanız oğlanı.
Kövrəldi düşündükcə, -
«O aylar, illər hanı?»
Oğlan dinməz-söyləməz
Baxırdı bu qonağa.
Gələn gülümsəyərək
Başladı danışmağa:

- O yaz belə yaz deyildi,
Saçımız bəyaz deyildi,
Sevincimiz az deyildi,
Tofiq, məni tanıdınmı?

Hanı o gün, hanı o yaz,
«Pəncərədən baxan o qız?»
Yaxamızdan tutub payız,
Tofiq, məni tanıdınmı?

O illərə fikrini qov,
Mən ərköyün, sən dəlisov...
Hardadı Aqil İsakov?
Tofiq, məni tanıdınmı?

Alnımdakı qırışa bax,
Üzümdəki yağışa bax!
Gələn köhnə sirdaşa bax,
Tofiq, məni tanıdınmı?

- Aha... Əfrahimsən...
tanıdım səni, -
Deyib gülümsədi Tofiq Nurəli.
Bağrına basmaqçün əziz dostunu
Yeridi irəli... uzandı əli.

Oyandı uyuyan xatirələri,
Dostlar görüşdülər, qucaqlaşdılar.
Bəlkə də heç kimə demədikləri
Bu gün neçə-neçə sirr də açdılar.

Əfrahim kövrəldi:
- Bu gec görüşçün
Günahım varsa da, bu günahdan keç,
Mən elə bilirdim Qonaqkənddəsən.
Ay Tofiq, yadına düşürdümmü heç?

Tofiq Nurəli:
- «Bəlkə yer tapılmaz mehmanxanada,
Bəlkə vağzalında yatıb qalaram...
Bəlkə səhv salaram küçələrini,
Qopar bir döngədə o köhnə yaram...

Elə bilərəm ki, köçüb bu dünya,
Elə bilirəm ki, mənəm sonuncu...
Göynəyir içimdə o köhnə yara,
Göynəyər, göynəyər burnumun ucu...

Tanış pəncərədən yad bir qız baxar,
Ürəyi təntiməz, gözünü silməz...
Mənim kimliyimi daş-divar bilər,
Mənim kimliyimi o gözəl bilməz.

Sürünüb gedərəm, getməz ürəyim,
Neynərəm, neynərəm görəsən onda?!
...Daha qonağıntək gəlib-gedərəm,
Əlvida, əlvida... Bakı əlvida!..» -
Desəm də, qayıdıb gəldim şəhərə,
Qaldı uzaqlarda, qaldı Qonaqkənd
Yatsam, yuxuma da gəlməzdi bu gün, -
Ömür möcüzəymiş, ömür qıfılbənd...

## III

Qız Qalası önü... doqquz may günü...
Açıldı yolların düşən düyünü.
Dilində arzunun, murazın ünü,
Həsrətin gözünü oyan gündü bu.

Kəlmələr, cümlələr şirin nəğməmi? –
Belə için-için əridir qəmi.

Bir böyük sevgidir hər gözün nəmi,
Qəlb qəlbi, göz gözü duyan gündü bu.

Bizə nə yaxınmış cavanlıq, baxır...
Dost olmaq şahlıqdı, dost üzağlığı,
Atın bir kənara bu uzaqlığı,
Günah-qəbahəti yuyan gündü bu.

Ötənlər yaxına gələr bu bahar, -
Doğmanı, uzağı bilər bu bahar,
Dünyanın gözündə gülər bu bahar,
Ürək səadətdən doyan gündü bu.

Gəzir, üzümüzdə təbəssüm gəzir...
Tanrı bədnəzərdən qorusun bizi.
Bu görüşdən ötrü gözlərimizi
Yollarda, izlərdə qoyan gündü bu.

Qız qalası önü... doqquz may günü...
Açıldı yolların düşən düyünü.

## IV

Cavanşir Həmidov:
- Belə günün adı başqa,
Bu görüşün dadı başqa.
Bu dostluğun odu başqa,
Gərək yaşayıb biləsən.

Bu baharın ətri nədir,
Dost-tanışın xətri nədir,
Bu görüşün qədri nədir,
Günlərin sayıb biləsən.

Belə sevincdən doymağı, -
Bu hiss-duyğunu duymağı,
Həsrətə nöqtə qoymağı,
Gərək daşıyıb biləsən.

## V

Abbasqulu Səfərov
- Yığışın dostlarım, duraq göz-gözə, -
Qarışsın söz-sözə, tanış səs-səsə.
Bu görüş, belə gün şirin nəğməsə,
Tanrı, ömrə-günə yaz bu nəğməni.

Yol tanış, iz tanış... indi kim susa?
Yayın bu sevinci elə, ulusa.
Bu olub-olanlar şirin yuxusa,
Ürək, uca yerə yaz bu nəğməni.

İndi bizə sarı baxan dənizin
Dilində nəğmə var, həzindən həzin!
Bu gün acığına sarı payızın
Yayar küçə-küçə yaz bu nəğməni.
Bu görüş, belə gün şirin nəğməsə,
Tanrı, ömrə-günə yaz bu nəğməni.

## VI

Sevil Quliyeva:
- O günlər, o illər mənim yadımda, -
Ürək için-için yanar odunda.
Bir bacınız da var Sevil adında,
Sizi bu şəhərdə gözləyən oldu.

Yudu, saçımızı yağışlar yudu...
Zaman ömrü-günü anbaan udur.

Bir əlimiz sevinc, biri qəm tutur, -
Ömrümüz-günümüz göz dəyən oldu.

Bu hissi, duyğunu varsa duyanlar,
Əriyər arada gəzən dumanlar.
Nə yaxşı ümidlər, doğru gümanlar
Bizi addım-addım izləyən oldu.

## VII

Sülhiyyə Həsənova:
- Arzu yaxın, yollar uzaq, yol çətin,
İtirmədik ələ düşən fürsəti.
Bəxtimizə yazdıq belə qisməti, -
Yığışmışıq bu şəhərə, nə yaxşı.

Tələbəlik... nə şirinmiş olanlar, -
Pozulmayan bir yazıdı o anlar.
Bu etibar, bu sədaqət, bu ilqar
Doğma imiş ürəklərə, nə yaxşı.

Qəlbimizdə bu şəhərin istəyi
Saçımızı daraqlayır küləyi.
Sizi gün-gün soraqlayan ürəyim
Bu gün sığmır göyə-yerə, nə yaxşı.

## VIII

Nizami Məmmədov:
- Bu görüş günündə, görüş anında
İllərin acısı çıxır canımdan.
Dərd yoxdu, - siz varsız mənim yanımda,
Gör necə yaxınıq gözlə qaş qədər.

Bu gün bu olayda nələr var, nələr? –
Kədər pərən-pərən, sevinc yerbəyer.
Qəlbimdən keçəni duysanız əgər,
Mən sizə yaxınam bir qardaş qədər.

Söküldü... həsrətin daşı söküldü,
O uzaq yolların beli büküldü.
Qalan ömür-günün üstünə gəldi
Ötən illər qədər, ötən yaş qədər.

## IX

Məmmədova Gülarə:
- Yanındayam dost-tanışın, -
Bu arzu mənim daş-qaşım.
Bizi soraqlayan qışın
Tufanından tufan olmaz.

Üzü gülən bu torpağa
Nə yağış, nə də qar yağar,
Sevincəm başdan ayağa,
Kədər məni tapan olmaz.

Yalan oldun, yalan, həsrət!
Uzaqlarda dolan, həsrət!
Çilik-çilik olan həsrət
Öz atını çapan olmaz.

Ağarsa da saçım dən-dən
Yolu kəssə duman-çən də
Dağ uçuran küləkdən də
Bu sevgini qovan olmaz.

## X

Lətifə Əfəndiyeva:
- İllər öz işində, köçhaköçündə, -
Əriyir arzular, ölür içimdə.
Ocaq ocaq deyil külün içində, -
Alovdan uzaqda, gözdən uzaqda.

Dəlir qayaları, daşları sükut...
Göylərin üzünü bürüyür bulud.
Yağsa, gəl bu yağan yağışı qurut, -
Bu şirin söhbətdən, sözdən uzaqda.

Bu dünya qəriblik gətirir bir az, -
Yollar da uzaqlıq bitirir bir az,
Çiçəklər ətrini itirir bir az,
Mənə elə gəlir, sizdən uzaqda.

## XI

İsax Mustafayev:
Necə gəzək şəhəri, -
Bu doğma küçələri?
Yatan xatirələri
Oyatmışıq təzədən.

Dayanmışıq uz-uzə:
Günah... doğru... göz-gözə.
Tələbə ömrümüzə
Qayıtmışıq təzədən.

Yer, göy nə gözəl oldu! –
Dünyanı bəzər oldu.
Şəhəri gəzər oldu
Bir yaraşıq təzədən.

## XII

Əliniyaz Məmmədov:
Sizsiz ürəyimi sıxar bu şəhər,
Sanaram istəyim hədərdir, hədər.
Ömrümdən-günümdən keçən gün qədər
Gözlərim yol çəkib gəzər yolları.

Səsləyin... bu səsə durub gələrəm,
Sevincə bir saray qurub gələrəm.
Yolların belini qırıb gələrəm,
Nə boran, nə də qar kəsər yolları.



## XIII

Nadir Abbasov:
- Gülür, sevinir dəniz də,
Qağayılar göy dənizdə,
Yaxşı-yaman günümüzdə
Həyan, ay şəhər, ay şəhər.

Belə sevinc gəlməz saya, -
Bürünmüşük hay-haraya.
Bu görüşə tamaşaya
Dayan, ay şəhər, ay şəhər.

Dünya, daşlar danışdımı?..
Sənin də səbrin daşdımı?
Üzlər sənə tanışdımı?
Oyan, ay şəhər, ay şəhər.

## XIV

Əliyev Sevdiyar:
- Ürəyimiz döndü dağa, -
Baxmadıq yola-uzağa.
Alovunda qızınmağa
Ocaq qalandı, qalandı.

Nə olsun ki, həkimlərik,
Bəxtin yanında kimlərik...
Bu şəhəri yeddi illik
Ömür dolandı, dolandı.

Həsrət daha hədərdisə,
Yolun sonu səhərdisə,
Ömür gəldi-gedərdisə
Vəfa qalandı, qalandı!

## XV

Vaqif Cahangirov:
- Mənə söz verdiniz danışmaq üçün, -
Bu görüş yanında nədir toy-düyün?
Deməklə qurtarmaz istəyim bu gün, -
Mənim ki, ürəyim boşalan deyil.

Qoy qalsın gecələr, deyək səhərdən, -
Şirinlik gətirən xatirələrdən.
Gəlin, uzaq olaq acı kədərdən,
Ürək ürəkdirsə, daş olan deyil.

Çəkdi illər bizi, çəkdi, sınağa,
Neçə qardaş, bacı düşdü uzağa...

Dost üçün gedərik qayaya, dağa, -
Kim deyir, gözümüz yaş olan deyil?

## XVI

Məmməd Cəfərov:
O günlər, o illər ötdü xəbərsiz,
Sevinc də uzağa getdi xəbərsiz.
Elə bil ömür də bitdi xəbərsiz,
Qınadım bu baxtı... unutmaq olmur.

Tale uzaq saldı neçə qardaşı, -
Döydü şaxta-sazaq küçəni, daşı.
Qarşıma hər səhər, hər addımbaşı
Çıxdı, həsrət çıxdı, unutmaq olmur.

O ötən illərmiş ömrümün yazı
Yaddaşdan silinməz, pozulmaz yazı.
Hanı o müqəddəs vaxtın mənası? –
O günü, o vaxtı unutmaq olmur.

İnstitut... illər... doğma adı var!..
İmtahan verməyin başqa dadı var,
Mənim ürəyimin xatiratı var,
Şah idik, o taxtı unutmaq olmur.

## XVII

Hafizə Mustafayeva:
Həsrət idik dost səsinə,
Bu günün bu nəfəsinə,
Dənizinin nəğməsinə
Bu sevinci qatdıq, şəhər!

Uzalı qalmadı qolum...
İndi dostdu sağım, solum.
Bu görüşə gələn yolun
Son ucuna çatdıq, şəhər!

Ürək gün saydı gizlicə, -
Yaz gözlədik gündüz, gecə...
Elə bil ki, küçə-küçə
Gül-çiçəyə batdıq, şəhər!

## SON SÖZ ƏVƏZİ

Kərim Mirzəliyev:
- Dağların başını qar almaz daha,
Yollar uzaq olmaz – dağ olmaz daha,
Bəlkə saçlarımız ağarmaz daha
Belə qismət olan görüşdən sonra.

Günəş qılınc çəkdi yağan qar üstə,
Qara xətt çəkildi intizar üstə.
Ürək, bu dünyadan daha nə istə,
Dolan, rahat dolan, görüşdən sonra.

Qaradan qaradır həsrətin günü, -
Çətin ki, bu yerə düşəcək yönü,
Ayrılıq acısı sevincə dönüb
Qəlbimizə dolan görüşdən sonra.

Dedik, ot basıbdı cığırı, izi, -
Qınadıq kövrələn ürəyimizi.
Sanırdıq çoxları unudub bizi,
Yalanmış, bir yalan, görüşdən sonra.

Etibar böyükdür... dünya dərdə dar,
Qaldı, uzaqlarda qaldı qəm-qübar.
Nəm olan gözümdə indi gör nə var? –
Sorağında qalan görüşdən sonra.

Dağların başını qar almaz daha,
Yollar uzaq olmaz – dağ olmaz daha,
Bəlkə saçlarımız ağarmaz daha
Belə qismət olan görüşdən sonra.

*10-27 mart 2001*
*Cəlilabad-Bakı.*

## EDAM GÜNÜ VAR BU AHIN

*Doğma ocaqlarından uzaq düşmüş, şerlərimi sevə-sevə oxuyan, gözəl şerlər müəllifi, istedadlı şairə Qərib şəhla və dostum həkim-rəssam İlyas Əzimova*

### I
### (Ön söz əvəzi)

Ulduzlar itmişdi buludlar altda, -
Yuxuya dönmüşdü arzu, murad da.
Həsrət göyərirmiş o doğma yurdda,
O doğma torpaqda, xəbərimiz yox.

Sürdüyümüz ömür hədərmiş, hədər!
Qalası ömrümüz betərmiş, betər!
Oğuldan, gəlindən anaya qədər
Hamımız sınaqda, xəbərimiz yox.

Qurulan həsrətin qalası imiş,
Analar saçını yolası imiş.
Bizdən uzaqlarda qalası imiş
O doğma ocaq da, xəbərimiz yox.

Yüz ağı olarmış külək səsində,
Çəmənlər qalarmış yad qəfəsində.
Solarmış həsrətin buz nəfəsindən
Ağac da, yarpaq da, xəbərimiz yox.

Xoş günlər bu elin köçündən uzaq,
Güman qalmaqalın içində, uzaq.
Keçilməz dumanın içində uzaq
Cığır da, yolaq da, xəbərimiz yox.

## II

Eniş, yoxuş, qaya, dağ...
Yolu necə arayaq?
Yağdı qar qalaq-qalaq,
Yağdı günün birində.

Bəxt də dönüb oldu yad,
Göyün üzündə inad.
Şimşəyə döndü bulud,
Çaxdı günün birində.

Soldu göyərib bitən, -
Yuxuymuş olub-ötən.
Çaylar körpülər üstən
Axdı günün birində.

Ha arxalandıq baxta,
Baxmadıq ötən vaxta.
Həsrət adlanan taxta
Çıxdıq günün birində.

Belədimi haqq yazan?
Ağı de, dəli ozan!
Doğma evə uzaqdan
Baxdıq günün birində.

## III
## (İlyasın dediklərindən)

Ağ yağış ələnir ocaq üstünə,
Günün saçı düşmür yarpaq üstünə.
Elə yayılmışıq torpaq üstünə
Bacı qardaşını görmür, İlahi!

Dağlar sinəmizə çəkilən dağdı,
Elindən uzaqda kim üzüağdı?
Şuşa da, Laçın da elə uzaqdı,
Biz nələr çəkirik... bilmir, İlahi!

Qara saçımızdan soraq yox, soraq!
Sevincə yad olduq, dərd qalaq-qalaq.
Doğma Vətəndə də qonağıq, qonaq!
Ümidlər atını sürmür, İlahi!

Yuxuda yüz dəfə yurdu görürsən,
Nə çəkilir duman, nə çəkilir çən.
Nə qədər gülməli nağıl deyirsən,
Uşağın üzü də gülmür, İlahi!

Basılıb nahaqqa çörəyimiz də,
Dərddən yük asılıb kürəyimizdən.
Qalıb zirvəsində ürəyimiz də,
Dağ da bu haraya gəlmir, İlahi!

Ağ yağış ələnir ocaq üstünə,
Günün saçı dəymir yarpaq üstünə.
Elə yayılmışıq torpaq üstünə,
Bacı qardaşını görmür, İlahi!

## IV

Ayı, günü yuxularda ötürdük,
Bu həsrəti əlimizlə bitirdik.
Ömrün-günün xoş üzünü itirdik,
Yuxu deyil, bu doğrudu, biləsən.

Şehə dönüb o dağlara çökəsən, -
Bu duvağı o dağlara çəkəsən.

Daş deyil ki, uzaqlara çəkəsən, -
Bu acıdı, bu ağrıdı, biləsən.

Bulud altda yüz-yüz ulduz, bir ay var...
Könlümüzdə doğma yurda saray var.
Küləklərin nəfəsində haray var,
Bu səs deyil, bu çağrıdı, biləsən.

**V**

Çəkməklə sağalmır bu ağrı, acı,
Həsrət əridərmi qaya daşını.
Vətən tapdananda ölərik deyən
Oğullar yüz yerdə qatır başını.

Anaların gözü yuxuya həsrət,
Yurdunsa gözləri yollarda qalıb.
Qalan ömür-günün şirinliyi də
Qalıb, bizdən uzaq diyarda qalıb.

Gəlinlər əlləri xınalı gəldi,
Analar bir şirin toy həsrətində.
Həkəri səsiylə kimi oxşayır? –
Qalmışıq nəğməli çay həsrətində.

Yüz yuxu oyadır yuxudan bizi,
Ayılıb dünyanı belə görürük,
Hanı o doğma ev, doğma qonşular?..
Bu da bir ömürdü... belə sürürük.

Vaqif torpağının qulağı səsdə,
Qərib durnalardan xəbər də yoxdur.
Batardıq otlara dizimizədək,
O zərif bahardan xəbər də yoxdur.

Dumanı görəndə yeriyirik ki,
Bəlkə saçımızı öpən dumandı.
Narın damcıları göz yaşı kimi
Bizim üstümüzə səpən dumandı.

Dayanma beləcə, qaralan bulud,
İndi ağlamağın vaxtı çatıbdı.
Səsimiz, ünümüz çatmayan yerdə
Namərdlər deyəsən, ocaq çatıbdı.

Külək də biz deyən külək deyilmiş,
Əsən küləklərə qarışıb gedək.
Tutulub göy üzü, görünmür belə, -
Köçən durnalara qoşulub gedək.

**VI**

Xan qızı ruhu – səbrinə,
Qar yağan Vaqif qəbrinə.
«Tapdanan Şuşa şəhrinə»
Çatarıq, bir gün çatarıq.

Bu hicran çəkilər dara
Sarmaşarıq o dağlara.
Dərdi-səri uzaqlara,
Atarıq, bir gün atarıq.

Xarı bülbül bitən yerdə,
Səf-səf durna ötən yerdə.
Yaz ətrinə, itən yerdə
Batarıq, bir gün batarıq.

Bu gələn bulaq səsimi?
Qırarıq dərd qəfəsini.
Dumanlı dağ nəfəsini
Dadarıq, bir gün dadarıq.
Udarıq, bir gün udarıq.

## VII
## (Qərib Şəhlanın dediklərindən)

Alar kəndi, burax gedək!
İlyas dayı, duraq gedək.
Eldən gəlib soraq, gedək,
İsinmək olmur ki, olmur.

Ay həkim qardaş, incimə,
Ay dost-sirdaş, incimə!
Qalan Alabaş, incimə...
İsinmək olmur ki, olmur.

Gəlib şəhərə çatmışıq,
Yuxudu, vallah, yatmışdıq.
Bu yerlərdə də yadmışıq,
İsinmək olmur ki, olmur.

Bu şəhərə çatdıq gecə,
Keçdik yolu keçə-keçə.
Könlümdən keçdi gizlicə; -
İsinmək olmur ki, olmur.

Yaşıl çəmən, çiçək hanı?
Qonşu qızı Çiçək hanı?
Çayı göstər, keçək, hanı?
İsinmək olmur ki, olmur.

Bu şəhərin tüstüsünə,
Bu küləyin tərs üzünə,
Göy dənizin bənizinə
İsinmək olmur ki, olmur.

İlyas dayı, çox qınama,
Məni yüz yerdə sınama.
Öyrəşmişəm öz obama,
İsinmək olmur ki, olmur.

## VIII

Haqqa baş əyəcək, göz yuman belə,
Kəsməz bu yolları bu duman belə,
Asılıb yaxamdan yüz güman belə,
Belə getməyəcək ömür sonadək.

Bu dünyanı görə-görə gəlmişik,
Namərdləri atdan düşən görmüşük.
Sevinc üçün aylar, illər sürmüşük,
Belə getməyəcək ömür sonadək.

Haqqı tapdayanın yaman günü var,
Yurdun yiyəsini tapan günü var.
Beyrəklər atını çapan günü var...
Belə getməyəcək ömür sonadək.

Sonasız oğullar sonalı olar,
Gəlinlər əlləri xınalı olar,
Uzaq düşən kəslər analı olar,
Belə getməyəcək ömür sonadək.

Kül olan ocaqlar alışasıdır,
Söz-sözə, səs-səsə qarışasıdır.
Torpaq da bizimlə barışasıdır,
Belə getməyəcək ömür sonadək.

Olanlar yuxutək düşəcək yada...
Hər evin içində doğma səs-səda...
Tapar yiyəsini ocaq da, od da, -
Belə getməyəcək ömür sonadək.

Üzlərdə kədərin yerində gülüş,
Dözümün bir üzü sevinmək imiş...
Tərsinə dönəcək haqq olmayan iş,
Belə getməyəcək ömür sonadək.

Yarımçıq düyünlər qurular bir gün,
Həsrətin düzümü qırılar bir gün.
Bulanıq sular da durular bir gün,
Belə getməyəcək ömür sonadək.

## IX

«Sevdik» qarlı qışı da,
Gördük ağ yağışı da.
Sevdik dinməz daşı da,
Torpaq bilməyən deyil.
Əsdi dörd yanda külək,
Demədik çıxıb gedək,
Yandıq kül olanadək,
Ocaq bilməyən deyli.
Payız üz tutub gəldi,
Xəzan dərdi betərdi.
Çəkdik, çəkdik bu dərdi,
Yarpaq bilməyən deyil.

## X
## (Son söz əvəzi)

Qara günün ağı da var,
Mərdin bac almağı da var.
Haqqın ucalmağı da var,
Tanrı göydən baxan yerdə.

Sevincin gələn günü var,
Torpağın gülən günü var.
Namərdin ölən günü var,
Tanrı göydən baxan yerdə.

Günəş buludu əridər,
Ot göyərər, çiçək bitər.
Yaman günlər, aylar ötər,
Tanrı göydən baxan yerdə.

Ocaq təzədən alışar,
Odu-oduna qarışar,
Sevinc torpaqla barışar,
Tanrı göydən baxan yerdə.

Sinəmizdə dərddi bitən?!
Oğullar ömürdən ötən...
Şuşasız qalmaz bu Vətən,
Tanrı göydən baxan yerdə.

Gözünü sıxdı bu yollar,
Bir ucu haqdı bu yollar.
İgidə taxtdı bu yollar,
Tanrı göydən baxan yerdə.

Zülmətin bir ucu səhər,
Bu eli boğmasın qəhər!
Bizi imtahana çəkər,
Tanrı göydən baxan yerdə.

Duz-çörək itirən kəsin,
Tutular, tutular gözü.
Gələsiyik Cıdır düzü,
Tanrı göydən baxan yerdə.

Ya kül olub yalan ollam,
Yurd yeri tək viran ollam;
Torpaq, sənin balan ollam,
Tanrı göydən baxan yerdə.

«Dost» dedim yada – günahım!
Ruzumu verdim – günahım!
Edam günü var bu ahın,
Tanrı göydən baxan yerdə.

***Alar-Bakı***
***12-30 mart, 2004-cü il.***

# BU ŞƏHƏR HƏSRƏT YERİDİ

*Qarabağ uğrunda, eləcə də Şuşa uğrunda döyüşlərdə qəhrəmancasına vuruşmuş əziz qardaşlarım, Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları – cəlilabadlı Fərahim Hüseynli və ağdamlı Zahid Vəliyevə ithaf olunur.*

**I**

Burda səhər günəşlə
İsinirdi bu torpaq.
Orda güllə səsindən
Diksinirdi bu torpaq...
Gözləri dolan bulud, -
Kövrəldi Çiçək bacı.
Təsəllisi nə olsun? –
Susdu qoca Gülbacı.
Yığışdı qohum, qonşu
Xeyir-dua verməyə,
Atanınsa sevinci
Sığmırdı Yerə, Göyə.
Yola xalıtək sərdi
Baxışını bir sona, -
Bu gün oğul gedirdi
Vətənin harayına.
Ana oğluna baxdı,
Bir də uzanan yola:
- Bilin, gözünü dikib
Sizə bu Vətən, bala!
Bu yazılan yazıdı, -
Qış ötməsə, gəlməz yaz.
Bu elin qeyrətindən
Uzaqdı ağlıdayaz.

Ömür yolu qayalıq, -
Onu igidlər keçər.
El uğrunda əzab – su,
Bu suyu mərdlər içər. –
Deyib bağrına basdı
Yola çıxan mərdini,
Amma gizli saxladı
Ürəyində boylanan
Bir ayrılıq dərdini.

## II

İnsan öz bəxtini yazan olarmış,
«Dost» da öz yolunu azan olarmış.
Tələsəndə yollar uzun olarmış, -
Oğlan yol gedirdi üzü Şuşaya.

Hamı gözü yolda, yurd intizarda...
Analar, atalar qalmışdı darda.
Ürəyi çatmışdı o doğma yurda
Hələ yol gedərkən özü Şuşaya.

Günaha gözünü yuman olsa da,
Arzular, murazlar güman olsa da,
Şuşanın yolları duman olsa da,
Qeyrət səsləyirdi bizi Şuşaya.

Yerə sığmayan dərd Göyə ucaldı, -
Bizə elə gəldi dünya qocaldı.
Allah, bu nə işdi, namərd bac aldı,
Baxsa da, dünyanın gözü Şuşaya.
Qeyrət səsləyirdi bizi Şuşaya,
Oğlan yol gedirdi üzü Şuşaya.

## III

Gəlib mənzilə çatdılar,
Gördülər yoxdu atlılar.
Doğmalar yurdda yaddılar,
Bu şəhər qürbət yeridi.

Üstündə göyün buludu,
Yerdə gül-çiçək qurudu.
Bu nə sirrdi, nə qurğudu? –
Bu şəhər həsrət yeridi.

Gördüyün çox azdı, oğlan,
Bu nə soyuq yazdı, oğlan,
Tale nələr yazdı, oğlan,
Bu şəhər möhnət yeridi.

Bu şəhərin adı Şuşa,
Yurd olub qara, yağışa.
Ay dərd bilən, indi yaşa,
Bu şəhər xiffət yeridi.

## IV

Nə tez uçdu bu «dostluğun sarayı»,
Bitən oldu bu ömürün harayı.
Bundan sonra yaxşı, pisi gəl ayır,
Namərd qonşu, sənə yaman inandıq.

Yurd yerini tikan basar, nə bilək,
Bu «sevgi»nin ömrü qısa, nə bilək.
Toy-düyünlər dönər yasa, nə bilək, -
Namərd qonşu, sənə yaman inandıq.

Nə biləydik, yad imişik gözündə,
Saxta kədər, dərd var imiş üzündə.
Yalan imiş, hiylə imiş sözün də, -
Namərd qonşu, sənə yaman inandıq.

Barmağımın qurtarmamış şəkəri,
Yola, izə səpdin qara zəhəri.
Bundan sonra necə açaq səhəri, -
Namərd qonşu, sənə yaman inandıq.

Doğma deyib gözüm üstə yer verdim...
Sən duymamış mən dərdini çəkərdim.
Namərd, sənə birdən-birə nə gəldi, -
Namərd qonşu, sənə yaman inandıq.



## V

«Namus»a, «qefrət»ə bax,
Çörəyimdən yeyən kəs
Yurdumu istəyirdi, -
Laçınımı, Şuşamı...
Ağdamı istəyirdi.
Şərəfimi, şanımı –
Adımı istəyirdi.
Od aldığım torpağı –
Odumu istəyirdi.
...Ölüm bir addımlıqda, -
Gözlə qaş arasında.

Arzu, muraz qalmışdı
Dərdlə yaş arasında.
Neçə gəncin gözündə
Vüsal şamı sönürdü,
Toy-düyün əvəzinə

Güllələr səslənirdi...
Sarıldılar silaha
Zahid, Fərahim... hamı
Ömürdən uca tutdu
Laçınımı, Şuşamı...
Düşmənin gümanını
Dara çəkdi igidlər.
Bəd niyyətin, arzunun
Neçə dəfə üstündən
Qara çəkdi igidlər.
Namərdinsə diləyi
Çıxmırdı öz canından.
Qeyrət qılınc yerinə
Sıyrılmışdı qınından, -
Qayalara, daşlara
Adlarını yazdılar
İgidlər öz qanından.
Düşmən başa düşürdü, -
Arzu dəyirdi daşa.
Qəlblərində qalmışdı
Ümid «böyük qardaş»a.

## VI

«Qardaş» sandığımız bir tələ qurdu, -
Çağrıldı «Xilaskar» o «Şanlı Ordu».
Al qana boyadı bu doğma yurdu, -
Bu doğma şəhəri, kəndi... xəbərsiz.

Tanrı dönmüşdüsə aman yerinə,
Bəndə yer qoymadı güman yerinə.
Şuşanın üstündə duman yerinə
Güllələr ələndi, endi xəbərsiz.

Nahaqq «haqq»a dönüb yolunu azdı, -
İnsafın, mürvətin qəbrini qazdı.
Namərdlər Şuşanı adına yazdı;
Sel yuyub apardı bəndi xəbərsiz.

Nə bilək, qalalar uça, bölünə,
Yollar bağlı qala gedib-gələnə.
Üz tutub gedirdik «işıqgələnə»,
Görünən işıqlar söndü xəbərsiz.

Ulduzlar üzünə tutdu buludu,
Çöllər, biçənəklər soldu, qurudu.
Bu zülüm də varmış bəxtində yurdun, -
Dağlar da, daşlar da dindi xəbərsiz.

Tanrı dönmüşdüsə aman yerinə,
Namərd üz qoymadı güman yerinə.
Şuşanın üstünə duman yerinə
Güllələr ələndi, endi xəbərsiz.

## VII

«Durnalar qanad saxladı»,
Dərdmiş qismətin bir adı.
«Xan qızı» deyib ağladı
Xansız qalan Xan sarayı.

Dağ-daşın da gözü dollar,
Cıdır düzü saçın yolar.
Doğma yurdda qərib olar,
Nə bilsin quran sarayı.

Taleyin fərmanı varmış, -
Arzunun boş camı varmış.
Həsrətin yüz canı varmış, -
Elədi viran sarayı.

Kölgəmizdə gəzən namərd,
Mərd göründün bizə, namərd.
Mərd səsindən əsən namərd,
Qəbir olar son sarayın!

## VIII

Dağların, düzlərin nəfəsində ah,
Günəşdən soraq yox, açılmır sabah.
Bir yandan dərd baxır, bir yandan günah,
Yuyulmaz, yuyulmaz yağan yağışla.

Çöl-çəmən axtarır sarı bülbülü, -
Hanı çiçəklərin yarı – bülbülü.
Göyərməz bu yurdun xarı bülbülü?!
Üz-üzə qalmışıq şaxtalı qışla.

Günah ha göyərdi biçmədik, Vətən,
Kədər suya döndü içmədik, Vətən.
Xoş gündən, ömürdən keçmədik, Vətən,
Üz də yox deməyə bizi bağışla.

## IX

Fərahim:
- Bu dağlarda gəzmək olmur,
Gülün saça düzmək olmur,
Sularında üzmək olmur,
Sonam, döz görüm, döz görüm.

Dəyişibdi Yerin üstü, -
Bir yan duman, bir yan tüstü.
Göy üzünü bulud kəsdi,
Durnam, döz görüm, döz görüm.

Bir anam bölünən torpaq,
Biri Vətən – sinəsi dağ.
Bir anamsa saçları ağ...
Anam, döz görüm, döz görüm.

## X

Zahid:
- Uçun, gedin, bulud sizi azdırar, -
Tale düzü yenə tərsə yazdırar...
Ürəyimdə bir həsrətli Vaqif var,
Üzüm yoxdu görəm sizi, durnalar.

Yerdə duman qatar-qatar süründü,
Göy üzü də buludlara büründü?
Nə Ay çıxdı, nə də ulduz göründü,
Yüz sınağa çəkdi bizi, durnalar.

Bu dağların həsrəti var, bölünməz, -
Elə bildik namərd bura gələmməz...
Daşlarının yaddaşı var, silinməz
Xan qızının şeiri-sözü, durnalar.

Uçun, gedin, bulud sizi azdırar,
Tale düzü yenə tərsə yazdırar.
Ürəyimdə bir həsrətli Vaqif var,
Üzüm yoxdu görəm sizi, durnalar!

## XI

Gün keçdi, ay ötdü... Ağdamlı Zahid
Dəstəyi götürüb yığdı nömrəni, -
- Alo...
- Fərahimdir, Cəlilabaddan,
Zahid, niyə susdun?.. tanıdım səni.
İgidlər susdular, danışmadılar,
Sıxdı ürəkləri tanış qəm, qübar...
Tapmaq çətin idi itən sevinci.
Xalqın ürəyindən keçən arzular.
Keçdi ürəyindən bu iki gəncin: -
«Dağ-daş da düşmənə qorxu olacaq,
Ahımız düşmənin ahı olacaq.
Olanlar bir zaman yuxu olacaq, -
Olanlar yalandı, yalandı, Şuşa!

Doğma yurd yerini oğulsan unut, -
Dağların gözünün yaşını qurut.
Bizə dərd gətirən o qara bulud
Dərd olub düşmənə qalandı, Şuşa!

Əlim harayıma çatmadı, küsdüm,
Arzudan, murazdan əlimi üzdüm.
Göz yumduq namərdin nazına, bəsdi!
Başını uca tut amandı, Şuşa!

Ürək söyləsə də, həsrət yerisən, -
Dərd-kədər yerisən, xiffət yerisən,
Bizə miras qalan qeyrət yerisən,
Demə, istək yolu dumandı, Şuşa!

Qoynunda güllərdən dərsəm, ölmərəm,
Vaqifdən bir şeir desəm, ölmərəm.

Xan qızı qəbrini görsəm, ölmərəm...
Fikrim o yerləri dolandı, Şuşa!

Qayalı yolları keçənlər gəlsin,
Namərdin əkdiyin biçənlər gəlsin,
Yaxşını yamandan seçənlər gəlsin,
Vaxt çatıb biz deyən zamandı, Şuşa!
Başını uca tut, amandı, Şuşa!
Olanlar yalandı, yalandı, Şuşa!»

## NƏĞMƏYƏ DÖNDÜ KÜLƏK

*Qızım Afaqa*

I

Babam qollarını açıb oynadı,
Qardaşım oynadı, bacım oynadı...
Atamın qurduğu o toyun dadı,
Bir dünya sevincdi, üzür bu evdə.

Gözlərim önündə istəyin səsi,
Qonşu uşaqların gülümsəməsi.
Mənə böyüklərin öyüd verməsi...
Şirin xatirələr gəzir bu evdə.

Başımız üstündə taleh küləyi,
Eləyə bilmədi yalan istəyi...
Bir nəvə murazı anam İpəyi,
Gecəli-gündüzlü üzür bu evdə.

Bizim üzümüzə açıq yollara,
Günahkar deyirik yazıq yollara.
Yağan qarsa verir açıq yollara,
Bizi həsrət buzu kəsir bu evdə.

Boylanır nar kolu, boylanır ağac,
Tanrı qismətinə qalıbdır əlac.
Divarlar bir körpə səsinə möhtac,
Elə bil küləklər əsir bu evdə.

## II

Çatmışdı kötüyə yanan siqaret,
Atamın qulağı səsdəydi o gün.
Baxırdı qapıya nə vaxt döyülər?
Gəzirdi fikrində o toy, o düyün.

Ürəyi arzunun məngənəsində,
Duymurdu günəşin çıxdığını da.
Bilmirdi, əyləşib dərd çəkən atam,
Sevincin bir addım yaxınlığında.

Fikirlər qarşıda duman kimiydi,
Görünməz olmuşdu gəlib – gedən də.
«Darıxma, ay kişi, yuxu görmüşəm,
Çin olar» demişdi anam gedəndə.

Allah, bu yolların səbrinə bir bax,
Dözürdü bu səbrə səbirsiz atam.
Bahar buludu tək kövrək olurmuş,
Gözləri yol çəkən, gözləyən adam.

Saatın əqrəbi, çıqqıltısı da,
Dünyanın ötməyən zamanı zalım.
Bəlkə də, bu fikrindən gəlib keçirdi,
Yolların dolaşan duman zalım.

Qapımız qəfildən açıldı... anam...
Sevinc yaşlarıyla gözləri doldu:
«Ay kişi, gördüyüm yuxu çindi, çin!
Bir sarışın nəvə qismətin oldu».

Saatlar ötüşdü, günlər ötüşdü...
Yığıldı bu evə qonşular bir-bir.

Birisi söylədi, İsmayıl dayı,
Balaca nəvəndən görəsən xeyir.
Birisi söylədi, gözünüz aydın...
Birisi söylədi, icazə verin,
Adını mən qoyum bu nəvəmizin.
Birisi söylədi gətirin barı,
Gətirin, gətirin, görək bənizin.
Birisi söylədi kədərlənməyin,
Nəvəniz qızdısa, qızıldı səbr.
Anam qonaqları süzdü birbəbir,
Atamsa dilləndi, qismətdi, susun!
Çoxları həsrətdi belə qismətə.
Başımız üstündə Tanrıya şükür,
Bu yurdda yer yoxdur daha xiffətə.

Qeyrət daşıyan kəs kişidi! Nəvəm
Oğluma, gəlnimə dayaqdı, dayaq.
İllərin qoynunda bir ad gəzirdi,
Bəxtə düşən bu ad Afaqdı, Afaq.
Adını qoydular sarışın qızın,
Başladı başqa çür dünyanın yazı.

## III

Elə bildik hər günün,
Sonu açılmaz düyün.
Arzuya çata bilən,
Əli varmış yolların.

Bir yan qar, bir yan duman,
Sandım nağıldı güman.
Qayaları uçuran,
Seli varmış yolların.

Ha çəkildik sınağa,
Arzu düşdü uzağa.
Bu yazını pozmağa,
İli varmış yolların.

Seçə-seçə yolları,
Gəzdik uzaq baharı...
Aya, günəşə sarı,
Biri varmış yolların.

## IV

Üzündə xiffət hanı?
Gözündə möhnət hanı?
Səsində həsrət hanı?
Hanı o vərdiş, ana?

Günlər yamandan yaman,
Çəkdi sınağa zaman.
Bənizində dolaşan,
Başqadı gülüş, ana!

İlləri verdin yelə,
Qocaldın bilə-bilə.
Belə gün düşməz ələ,
Ay saçı gümüş anam.

## V

Mən elə bilirdim həsrət bölünməz,
Uzaq düşən sevinc daha görünməz.
Çöllər də yamyaşıl dona bürünməz,
Bu gün gözlərimdə dəyişdi dünya.

Nəğməli dənizi, suları ilə,
Buzları əridən baharı ilə.
Üfüqə uzanan yolları ilə,
Deyirəm, nə qədər genişdi dünya.

Qınadıq yolları – keçilməzi var,
Yoxuşlu qayalar – keçilməz divar.
Nə bilək, həsrətin köç etməsi var...
İndi gözümüzdə enişdi dünya...
Deyirəm nə qədər genişdi dünya.

## VI

Göz yaşını sıxıb gəldi,
Dumanlardan çıxıb gəldi.
Uzaqlardan baxıb gəldi,
Liman axtaran arzumuz.

Gördü, yol uzaq da olar,
Yolum üzü ağ da olar.
Sevincə çatmaq da olar,
Güman axtaran arzumuz.

Yer yoxdu şaxta-ayaza,
Yüz yerə, min yerə yozaq.
İnanmadı belə yaza,
İnam axtaran arzumuz.

## VII

Yuxumu dediyim çay bu çay imiş,
Sularda görünən Ay bu Ay imiş.
Tanrıdan pay umdum, pay da pay imiş,
Dünyayla barışdın sən doğulan gün.

Həsrətin torpağa dəydi kürəyi,
Bir pay gətiribdi tale küləyi.
Üzünü isladan anam İpəyin,
Yaş deyil, yağışdı sən doğulan gün.

Xatirələr mənə nədər danışdı...
Daha saçım bəyaz, alnım qırışdı.
Sorağımda qaldı dost da, tanış da,
Bu evə yığışdım sən doğulan gün.

Gəlsin muştuluqçu, payı qalan var,
Bu gündən bu yana «dayı» olan var.
Baxışım xalı tək sərilən yollar,
Nağılmı danışdı sən doğulan gün.

Atam oğul dedi sarışın qıza,
Bu yurdda yer yoxdu daha payıza.
Göydən ay boylandı, ulduz ulduza,
Təzədən qarışdı sən doğulan gün.

Hardasa ağlasa, gülsə bir uşaq,
Səni axtarıram Afaq, ay Afaq!
Oduna yandığım bu od, bu oçaq,
Təzədən alışdı sən doğulan gün.

## VIII

Çoxları gözlədi haçalan, ömrüm,
Dərdi çəkə-çəkə baç alan ömrüm.
Bu gün gözlərimdə ucalan ömrüm,
Uzat əllərini barışaq daha.

Günlərin açısı, ağrısı getdi,
Getdi pozulmayan o yazı getdi.

Ömrün uzaqlara yarısı getdi,
Günlərə qaynayıb qarışaq daha.

Dərd gəldi, qəm gəldi, qınandı dünya,
Hər gün neçə dəfə sınandı dünya.
Bu bəxt, bu tale də oyandı dünya,
Bu umu-küsüdən yığışaq daha.

## IX

Qızıma nə alıram,
Hamısını bəyənir.
Ayaqqabı, çorab da,
Ata, qəşəngdir, deyir.
Yaman xoşuma gəlir
Dovşanın qulaqları,
Tülkününsə quyruğu.
Ata, əgər yatmasam,
Sən aldığın kuklanın,
Gözünə getməz yuxu...
- Bibini çox sevirsən,
Qızım yoxsa əmini?
- Bibim yaxşı bibidir,
Çox sevirəm əmimi.
- Atanı çox sevirsən,
Qızım, yoxsa ananı?
Utanma, söylə düzü.
- Ata, hər ikinizi.
Deyir, bir az qımışır,
Anasını çox sevir.
Qoy mənə toxunmasın,
Qızım yalan danışır.

# X

***(Afaq anam İpəklə Kərbəla ziyarətinə getmişdi)***

Duymadım... böyüdün hər axşam, səhər,
Bəxtində var imiş müqəddəs yerlər.
Səninçün yazdığım sözlər-şerlər:
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

Anan gözü yolda... «döz» demək olmur,
Sözünün üstündən söz demək olmur.
Bu ötən yaza da yaz demək olmur:
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

Ömrü uzun imiş bu gecələrin,
Hara baxıramsa görünür yerin.
Qalıbdır bir yanda kitab-dəftərin:
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

Fikrimi dağıtmır ötüşən külək,
Yolların üstünü alıb çən-çisək.
Kolların üstündə boylanan çiçək:
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

Ay qızım, bu sirrdən xəbərin yoxdu,
Haçaqulaq dovşan gözünü sıxdı.
Sarışın küklalar üzümə baxdı:
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

Yuxular gözümdən yuxumu çəkdi,
Sarışın qız gördüm, sarı örpəkli...
O qızı axtaran anam İpəkdi:
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

Soyuqdur, elə bil üşüyür bu yurd,
Olub keçənləri oğulsan unut?!
Gözünü yollara dikib qara tut:
- Hardasan, ay Afaq, ay Afaq? – deyir.

## SEVİNC
## XI

Ağ xalat geyinməyi,
Ömrünü
Ömürlərə bölməyi,
İslanan bənizlərdən
Göz yaşını silməyi
Arzuladı
Ürəyi.
Günlər ötüşdü...
İllər ötüşdü...
O ürək bu istəyin
Uğrunda
Yola düşdü.
Gördü –
Yolların üstə
Körpülər var – keçilməz.
Qayalar var – kiçilməz.
Daş-kəsək var, -
Bacarırsan indi keç!
Bu əzablı günləri
Udum-udum
İndi iç!..
Əllərindən tutmuşdu
Sevdiyi kitabları.
Açılmayan səhərləri ilə,

Yuxusuz gecələri ilə,
Getdi arzuya sarı,
Getdi –
Keçdi o körpüləri.
O qayalar kiçildi,
O daş-kəsək keçildi...
Getdi arzuya sarı,
Getdi... Getdi...
Gördü –
Durub üzbəüz
Axtardığı arzusu.
Bildi nahaq deyilmiş
O açılmaz gecələr,
Əpşə çıxan yuxusu.
Gözlərindən,
Xəbərsiz
Axdı sevinc yaşları.
Bəxtə düşən belə gün
Əritdi qayaları,
Əritdi lal daşları.

Uça-uça dönürdü,
Qaça-qaça dönürdü.
Qız doğma evə sarı.
Bir az bənzəri vardı,
Belə günün düyünə.
Ata-ana qoşuldu,
Bu sevincə, bu günə.
Gəldi Akif müəllim...
Kövrəldi uşaqsayaq:
Bu gün məni uçaltdın
Dağlar qədər, ay Afaq!
Arzum budur, beləcə
Həmişə ol üzüağ!

Gözlər baxa-baxa qaldı,
Sarışını yola saldı.
Üzü sənə sarı oldu,
Yolların bir uçu, Bakı!

Dənizdən baxan səhərin,
Səsli-küylü küçələrin.
Gündüz olan gecələrin,
Baxmasın gözuçu, Bakı!

Küləklər veribmi soraq? –
Kövrəlibdi doğma torpaq...
Qara tutdan düşən yarpaq,
Sənə sarı uçur, Bakı!

Çəkirsən məni qoynuna...
Bu ürəyi günlər qınar!
Yolun beli nə vaxt sınar?
Gəlməkdi əlacı, Bakı!

Adama gəlir divarlar...
Oyuncaqlar qatar-qatar,
Sanıram dilsiz kuklalar,
Məndən uzaq qaçır, Bakı!

## XIII

Bu şəhər uzaq deyil,
Yollar uca dağ deyil.
Həsrət üzə ağ deyil,
Bu gündən qəm saxlama.

Haqsız haqqa yetişməz,
Haqqı ara, haqq itməz.

Bu ömür ələ düşməz,
Kədərə gün saxlama.

Arada «duman» olar,
Birisi yaman olar...
Küsən peşiman olar,
Küsənlə kin saxlama.

Nə olsun çox acı var,
Hər işin əlacı var.
Gör nə qədər bacın var,
Gözündə nəm saxlama.

Dostun sirrini saxla,
Kədər duysan, maraqlan.
Dost «ağlayanda ağla»,
Arada çən saxlama.

## XIV
## (Son söz əvəzi)

Çıxmaz yollarıma qoçaldığım da,
Qayıdır təzədən ucalığım da...
O doğma həyətdə, o nar bağında,
Taparam gəncliyi, Ağ xalatlı qız!

Bir ana sağalıb silər göz yaşın,
Bir bacı əlinlə tapar qardaşın.
Səninsə əzabın-dostun, sirdaşın,
Bölünər dinçliyin, Ağ xalatlı qız.

Bu yol sənin üçün şirindən şirin,
Qurular qəlblərdə-ucada yerin.
Kədəri azalar bu Göyün, Yerin,
Böyüyər ürəyim, Ağ xalatlı qız.
Üstünə yağıştək yağar «sağ ol»lar,
Elə bil şaxtaya son qoyar bahar.
Yer üstə həkimdən ucada kim var?
İşıqdı... istəyin, Ağ xalatlı qız.

Yaxşılıq qalacaq... qonağıq, qonaq!
Ömür ömür olar, sürsən üzüağ!
Bir gün olacaqsan mənə də dayaq,
Ay mənim çiçəyim – Ağ xalatlı qız.

***10-31 mart 2003***

# MÜNDƏRİCAT

**ƏFRAHİM İSMAYIL OĞLU HÜSEYNLİ....................................... 3**
**ƏFRAHİM HAQQINDA DEYİLƏNLƏRDƏN ................................ 4**
KAINAT YAŞ TÖKÜR SARI PAYIZA ..................................................... 6
ŞAİR ÜRƏYİNİN SÖZÜNÜ DEYƏR........................................................ 7

**VƏTƏN... TORPAQ...VƏ BİZ.................................................... 9**
İMTAHAN VERMƏYƏ GEDİRİK HƏR GÜN..............................................11
GÖYLƏRDƏN UCA VƏTƏN... ...............................................................12
ÖMRÜ HAMITƏK YAŞASAN.................................................................13
DƏRD, ƏL AĞACIN DEYİLƏM ..............................................................13
QALDISA UZAQDA BAHAR - ÖMRÜMÜZ... ........................................16
BİR İL DƏ ÖTDÜ... ..............................................................................17
AXTARIŞ ............................................................................................18
DÜŞDÜK AĞ GÜNÜN İZİNƏ... ............................................................19
EVİM UZAQ DEYİL QƏBRİSTANLIĞA ...................................................20
ÜRƏK, MƏNİ RAHAT BURAX ..............................................................20
TORPAQ BİZNƏN HESAB ÇƏKİR .........................................................21
SEVGİ..................................................................................................22
«GEDİN DEYİN XAN ÇOBANA» ............................................................23
TORPAQ EŞİDƏR MƏNİ.......................................................................24
QISQANA-QISQANA ............................................................................25
ANA TORPAQ.......................................................................................26
BİZİ SAXLAYAN ALLAHDI ....................................................................27
ATAM GƏLƏCƏK...................................................................................27
MƏN SƏNƏ HƏR ŞEYİ DEMƏDİM, ANA ................................................28
DÜNYA BELƏ DÜNYADI.........................................................................30
VƏTƏN Kİ, DƏYİŞƏN DEYİL .................................................................31
İNSANLARA YAZDIĞIM YAZI ................................................................32
SULARDAN KEÇƏ BİLSƏN, GƏL ..........................................................33
ATAMDAN SONRA................................................................................34
BU QAPI ..............................................................................................35

DAŞ ADAM OLA BİLMƏDİM ........ 36
VƏTƏN ........ 36
QƏMƏR XALA, MURAD DAYI VƏ ZALIM MƏLİK ........ 37
QƏRİB ADAM ........ 39
ANAMIN MƏKTUBU ........ 40
BACILARIM HAQQINDA ........ 41
O GECƏ ATLARI APARDI HƏMZƏ ........ 42
UMURAM ........ 44
BU YOL NECƏ YOL İMİŞ ........ 44
ƏLƏNDİK, ƏLƏK BİLMƏDİ ........ 45
YOLLAR QAYADAN ASILIR ........ 46
QALACAQ ........ 46
BİLMƏDİ ........ 47
DUYAN DUYA BİLİR... ........ 48
ÖLÜM, SƏNNƏN QURTARMIŞAM ........ 49
DAHA DUZ ÇEVİRMƏ BAŞIMA MƏNİM ........ 50
ANAM İPƏK ÜÇÜN ........ 51
ÖMÜR ÖTSƏ BU SAYAQ ........ 52
ANAMLA SÖHBƏT ........ 52
MƏMMƏD ASLANA ........ 53
ÇIXIB GEDƏCƏYƏM BU KƏNDDƏN DAHA ........ 55
BEŞ ARŞIN BEZDƏN QAÇIRAM?... ........ 57
BU YURD ƏVVƏLKİ YURD DEYİL ........ 58
DÜNYANI SEVMƏK ÜÇÜN ........ 58
MƏKKƏM, MƏDİNƏM DƏ BİRDİ... ........ 59
KÖRPÜSÜ HANI BU ÇAYIN ........ 60
GÜNDÜZ UNUDURAM DEDİKLƏRİMİ ........ 61
ƏLLƏRİM UZUN DEYİLSƏ ........ 62
ANA TORPAQ ........ 63
YÜKSƏLƏ-YÜKSƏLƏ ........ 64
SINSA, SINMAYANDAN BAC ALAN ADAM ........ 65
ANAMIN SEVGİSİ ........ 66
YAŞAMAQ ........ 67

ANAM İPƏK İLƏ SÖHBƏTİMDƏN BİR-İKİ KƏLMƏ....68
GÖRƏSƏN BU QIŞIN XƏBƏRİ VARMI?....69
SALAM AY VƏTƏN, AY VƏTƏN....70
ÖMÜR SÜRMƏK NƏDİR, BİLDİM....71
DÜŞMÜŞÜK ŞEİRİN DALINCA.......72
DÖYÜR AĞACLARI AĞACDƏLƏN....73
ONSUZ DA MƏLƏKLƏR GÖZƏ GÖRÜNMÜR....74
SU DURULMUR, İÇİB GEDƏM....75
BƏNZƏMƏZ DAHA....75
YAXŞI Kİ, DÜNYANIN YAXŞILARI VAR....76
KİMİN ODU, KİMİN KÜLÜ OLACAQ....77



**MƏNSİZ YAŞAMAĞI ÖYRƏDİM SƏNƏ....79**
MƏNSİZ YAŞAMAĞI ÖYRƏDİM SƏNƏ....81
DAHA GECƏLƏR DƏ GÖZÜMDƏN DÜŞÜB.......82
SƏNİ UNUTMAĞA MƏNDƏN GÖZLƏMƏ....83
BİRİNİ BİLİRSƏN, BİRİNİSƏ YOX....84
AĞLIMA GƏLMƏZDİ....85
SƏNƏ ÜRƏYİMİ VERDİM....86
CAVABSIZ MƏKTUBLAR....87
DESƏM DƏ....88
ƏS KÜLƏK, HƏLƏ DƏ MƏN DEYƏN DEYİL....89
QAYIDIB GƏLSƏM DƏ.......90
EH... SƏNİ UNUTMAQ HEÇ MÜMKÜN DEYİL....91
BİLİRSƏNMİ HEÇ....92
SƏN ELƏ BİLMƏ Kİ.......93
AYLARI İTİRDİK....94
GÜNLƏRİ SAYMAQDAN VAXTIM HARDADI....95
BEŞ-ALTI MİSRAYA BAŞIM QARIŞDI....96
BİR PAYIZ GÜNÜ....97
MƏNİM AXIRIMA ÇIXACAQ ŞEİR....98
SƏN ELƏ BİLİRSƏN SEVMİRƏM SƏNİ....98
BARIŞMAĞA GƏLMİSƏN....99

QAYITMA BİR DAHA BİZ KEÇƏN YERƏ....100
İKİ QATAR....102
AY QARA SAÇ QIZ....103
NƏYİMİ SEVİRDİN, AY QARA SAÇLI....105
NƏ İSTƏYİR....106
YADINA GƏLİRMİ....106
İKİMİZ....107
ONSUZ DA SƏN MƏNİ TAPMAYACAQSAN....108
BİZİM YERLƏRİN PAYIZI....109
ÖMÜR BURA QƏDƏR İMİŞ....110
BU QIŞIN ÖMRÜ DƏ YAMAN UZANDI....111
AYI, İLİ VERDİM SƏNƏ....112
YAĞAN YAĞIŞ YOLLARINI DÖYDÜMÜ....113
GÖRDÜM YAŞAMAĞIN YOLU BAŞQADI....114
GÖRÜNMƏZ GÜMANA UYMAQ ÇƏTİNDİR....115
TANIMAZ BU ŞƏHƏR SƏNİ....116
MƏNİ KÖVRƏLTMƏZ DAHA....117
SÖZ VERMİŞDİM.......118
MƏNDƏN XƏBƏRİN OLDUMU....119
NƏ YAMAN ÇƏTİNMİŞ MƏNİ TANIMAQ....120
APAR ŞƏKLİNİ....122
MƏN SƏNİN ADINI YOLLARA, DAŞLARA, DAĞLARA YAZAYDIM GƏRƏK....122
HEÇ BİLMƏDİK YAĞAN QARDI, YAĞIŞDI.......124
YALANÇI BAHARDAN ƏL ÇƏKİB GEDƏK....125
UZAQ YOLLAR QARA XƏTTDİ....126
GƏLMƏ....127
AYIM İMİŞ, İLİM İMİŞ GECƏLƏR....128
VAXTIM HARDADI....129
ÜRƏK ƏHDƏ KƏNİZDİ....129
SƏNİ SEVMƏYİM DƏ ÜZÜMƏ AĞDIR....130
GÖZ YUMMARAM GÜNAHA....131
BU OCAĞI EŞƏLƏMƏ, ALIŞMAZ....131
YAMAN KÖVRƏLİRƏM BU SAHİLDƏ MƏN....132

**BU, BELƏ DÜNYADI... .................................................. 133**
YALANDAN ŞAHIQ DEYİRİK ........................................................135
BU BELƏ DÜNYADI ...................................................................136
YOLUM DÜŞÜB MƏZARLIQDAN ...................................................136
SAĞOLLAŞAQ ...........................................................................137
GETDİYİM YOLLARA GÖZ DİKMƏ ..............................................138
DAĞ AŞDIM DOST GÖRƏ-GÖRƏ ..................................................139
DAYANAN DEYİLMİŞ YAĞAN BU YAĞIŞ .......................................140
GÜNEYLƏR SAXLAYIR QUZEYTƏK QARI .....................................140
YERİYİRSƏN YOL DAŞ OLUR - YOL AĞI... ..................................141
QARIŞACAQSAN TÜSTÜMƏ... ...................................................142
ÖLƏN DOSTLUQ .......................................................................145
ELƏ BİL HEÇ NƏ OLMAMIŞDI ....................................................146
YAXŞILIQ ETDİYİM ADAM ..........................................................147
ƏLİNİ TUTMAĞA ƏL UMMA MƏNDƏN .........................................148
HEÇ BİLMƏZDİM... ...................................................................149
GÜNƏŞİN ÜZÜNƏ QÜRUB AÇIQDI .............................................149
DAHA BİLDİM NƏSƏN, ÖLÜM ...................................................150
KİMİ DİNDİRƏSƏN ...................................................................151
MƏNDƏN OLMAZ QƏM ELƏYƏN ..............................................151
BU GECƏ BELƏ GECƏDİ ...........................................................152
ŞAİRLƏR ÖLÜMÜN ÜZÜNƏ AĞDI ..............................................153
ŞAİRLƏR DİLİNƏ YİYƏLİK ETMİR .............................................154
DEDİLƏR ..................................................................................155
SELLƏR APARDI .......................................................................156
GÖZ YAŞI YUXU OLACAQ ..........................................................157
AXTARIR ..................................................................................158
İKİ KİŞİ ...................................................................................159
VAXTINDA GƏLMƏDİN, ÖLÜM ...................................................160
BİLƏN YOXMU ..........................................................................160
YUXUSA ...................................................................................161
ÖLMƏYƏ ÜZÜN OLA .................................................................162
YOLLAR ...................................................................................163

SINAĞA ÇƏKİR ........................................ 164
BİLMƏDİ ........................................ 165
BİR YAN QAYALIQDI, BİR YAN DƏNİZDİ ........................................ 166
YANANDAN ÖTRÜ ........................................ 167
BAHARDAN UCAYMIŞ PAYIZIN YERİ ........................................ 168
ÜZ TUTDUM GÖYLƏRƏ, BULUDU GÖRDÜM ........................................ 169
ÇIXIB GEDİM UZAQLARA ........................................ 170
DEDİK, BELƏ OLAR ........................................ 171
GÜNAHSIZI QANA ÇƏKMƏ ........................................ 171
MƏN ELƏ BİLİRDİM... ........................................ 172
KAŞ ƏLLƏRİN ÇATMAYAYDI ƏLİMƏ ........................................ 172
AXTARMA ........................................ 173
SƏN YAXŞILIĞI ELƏ ........................................ 174
NAHAQ GÖZLƏRİMDƏN YAŞ GİLƏLƏNDİ ........................................ 174
BU ŞƏHƏR BİZİMÇÜN QƏRİB YER DEYİL ........................................ 175
YUXU VƏ GERÇƏK ........................................ 176
MƏNƏMMİ BU GÜZGÜDƏKİ ........................................ 177
BU ŞƏHƏR DƏYİŞİB ........................................ 178
GÖRDÜYÜMÜ DEDİM, ŞƏHƏR ........................................ 179
İNANMAQ OLMUR ........................................ 180

**BİZİM QİSMƏTİMİZ ........................................ 181**
BELƏ ÖMÜRDÜ ........................................ 181
İŞ YERİMDƏN YOLUNU SALMA ........................................ 183
MƏNİ APARMADIN ........................................ 184
BU ŞƏHƏR ........................................ 185
DUR GEDƏK ........................................ 186
AKİF SƏMƏDƏ ........................................ 187
ATAMIN XATİRƏSİNƏ ........................................ 188
BU KƏNDİN ADAMI BELƏ DEYİLDİ ........................................ 189
ÜRƏYİ ALDATMAQ OLMUR ........................................ 190
XƏBƏRİN VARMI ........................................ 191
ÜRƏK DEYƏ BİLMƏYƏN SÖZ ........................................ 192

SƏN DOĞULAN GÜN.........193
ŞAİR VAQİF İBRAHİMİN XATİRƏSİNƏ.........194
QIZIM YALAN DANIŞIR.........194
TƏLƏBƏ ÖMRÜMLƏ AYRILIQ.........195
...KƏNDİMİZƏ QAYITMIŞDIM.........197
HARDASAN, AY AFAQ.........198
BİZİM QİSMƏTİMİZ BELƏ ÖMÜRDÜ.........199
MƏNASIZ.........200
ÇAĞIRIN DƏRVİŞ VƏLİNİ.........201
BİR DOSTUMA.........202
ARZULAMA O MEYDANI.........203
GÜMANDAN QAPI YOX, GEDİB DÖYƏSƏN.........204
YOLLAR UZAQ DÜŞÜB.........205
MƏNİ AXTARAN VARSA.........206
ÖMRÜ İTİRİRİK HƏR GÜN, HƏR GECƏ.........206
DAHA ÖMÜR-GÜNÜN DE, NƏYİ QALDI.........207
YAZIÇI ŞAHMARIN XATİRƏSİNƏ.........208
BELƏ YAŞAYIRAM MƏN.........209
DÜNYAYLA SÖHBƏTİMDƏN.........209
QIZIM AFAQA.........211
AĞRILI ÜRƏYİM QALDI.........211
DEYİRLƏR Kİ..,.........212

**AKİF SƏMƏDƏ MƏKTUBLAR.........213**
I ÇAĞIRMAYIN SİZ MƏNİ O ŞƏHƏRƏ.........215
II BU SAHİLDƏ DOLAN, OĞLAN.........216
III KÜR BAŞINA DOLANMADIQ.........217
IV ALDANMA DAHA.........217
V QIRXA ƏLİBOŞ GƏLMİŞƏM.........218

**MÜƏLLİFİN 70-Cİ İLLƏRDƏ YAZDIĞI ŞEİRLƏRDƏN... .........219**
KÖZƏ SARI.........221
POÇTALYON NƏĞMƏSİ.........221

ANAM GƏLƏCƏK ....................................................................222
QÜRUB NƏ YAXINMIŞ... ..........................................................223
DƏYİŞƏN XASİYYƏTLƏR ........................................................224
QIŞ DUYĞULARI ....................................................................225
O QIZ ....................................................................................225
DEYƏSƏN .............................................................................226
ADƏT ....................................................................................227
SƏN MƏNDƏN İNCİYƏNDƏ ..................................................228
TƏCNİS ..................................................................................229
ANA LAYLASI .......................................................................229
ÖMRÜMÜN ...........................................................................230
ÜRƏK UNUTMUR ..................................................................231
TOY DUYĞULARI .................................................................232
GECİKMİŞƏM ........................................................................233
NƏĞMƏ .................................................................................234
İNDİ .......................................................................................234
BULUDLAR ...........................................................................235
ANAMIN ARZULARINDAN ...................................................236
SƏNİ GÖZLƏYƏ-GÖZLƏYƏ ..................................................237
GƏRƏK ..................................................................................237
POÇTALYON OĞLANIN MƏHƏBBƏTİ .................................238
SÖNƏ BİLMİR .......................................................................239
YAĞIŞ ....................................................................................239
PAYIZ LÖVHƏSİ ...................................................................239
GÜNƏŞ KİMİ .........................................................................240
QARA QARĞA .......................................................................240

**POEMALAR .........................................................................241**
BU GÖRÜŞÜN HƏSRƏTİNİ ÇƏKMİŞİK ................................243
EDAM GÜNÜ VAR BU AHIN ................................................257
BU ŞƏHƏR HƏSRƏT YERİDİ ...............................................267
NƏĞMƏYƏ DÖNDÜ KÜLƏK ..................................................277

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

ƏFRAHİM

# ÜRƏYİ ALDATMAQ OLMUR


Nəşriyyat redaktoru: İlahə Hidayətqızı
Səhifələyici: Elvira Nadirqızı
Dizayner: Aynur Əsgərli

Çapa imzalanmışdır: 01,04,2014
Kağız formatı: 84x108 1/16
Həjmi: 19 ç.v; Sifariş: 120; Sayı: 500

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Ə.Salamzadə küç 9C.
Tel.: (050) 593 27 77, (055)222-71-93
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@gmail.com





əfrahim ÜRƏYI ALDATMAQ OLMUR